www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 5-6 iyul 2014-cü il Şənbə № 171 (5880) Qiyməti 40 qəpik

**Xəbər**

## Xaçmazda atasının intiharına dözməyən 18 yaşlı gənc özünü asdı

yazısı səh.14-də

**Gündəm**

### Şok iddia: Türkiyə Ermənistanla sərhədi açır



Qardaş ölkə mətbuatında məsələ yenidən gündəmə gəlib; Ərdoğanın bununla bağlı təlimat verdiyi bildirilir; Türkiyə XİN-dən reaksiya gəldi

yazısı səh.5-də

### Fazil Mustafadan Türkiyənin baş nazirinə sərt ittiham

yazısı səh.10-da

### Ali Məhkəmə Masallı dindarları barədə hökmü qüvvədə saxladı

yazısı səh.11-də

### ADP fəaliyyətini dayandırdı

yazısı səh.10-da

### Türkiyədə tutulan Sədərək gömrük rəisini geri alırlar

yazısı səh.3-də

### AYİB: "Avropadakı iqtisadi böhran yalnız Azərbaycanı "vurmayacaq""

yazısı səh.4-də

### Sərkisyan çevrilişlə hədələndi

yazısı səh.2-də

### Bakıdakı sənədsiz evlərin sakinlərinə şad xəbər

yazısı səh.12-də

### İqtidarda MDİ-nin ofisinin bağlanmasını kimlər istəyib?

yazısı səh.10-da

### Naxçıvan cəbhəsi Qarabağı xilas edəcəkmi?

yazısı səh.13-də

### Siyasi məhbusların apelyasiya şikayətlərinə baxılacaq

yazısı səh.2-də

**Ramazan ayının 5-ci günü**

İftar 21.30, İmsaq (azan) 4.46 (QMI-nin cədvəli)

7-ci günün duası: "İlahi, mənə bu günün orucunu tutmaqda və yaxşı əməllər etməkdə kömək ol! Belə bir gündə məni bu günün əyri yollarından və günahlarından uzaqlaşdır! Məni Öz köməyinlə Səni daim yad etməyə müvəffəq et! Ey, yolunu azmışlara Yol Göstərən!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN.

## Bakı-Moskva münasibətlərində təhlükəli gəlişmə

# PUTİNİN AZƏRBAYCANA QARŞI QORXULU "B PLANI"- TƏHLİL

Kremlin ölkəmizi xoşluqla Avrasiya Birliyinə qoşmaq səyləri alınmır; ATƏT tədbirində hakimiyyətin anti-Rusiya sənədinə səs verməməsinin daha bir səbəbi...

yazısı səh.4-də



## Vergilər naziri sələfilərlə işbirliyində

Vergilər Nazirliyini atəşə tutan Samir Qurbanov istintaq başa çatmamış azadlığa buraxılıb; vergi müfəttişləri sələfilərin biznes şəbəkəsinə müdaxilə etmirlər, qarşılığında isə Fazil Məmmədova Səudiyyə Ərəbistanında böyük biznes imkanları yaradılıb

yazısı səh.3-də



### Sabir Rüstəmxanlı qardaşının xaricə qaçmasını təkzib etdi

yazısı səh.3-də



*General Engin Alan:*

### "Öcalanın azad edilməsinə hazırlıq gedir"

yazısı səh.5-də



### Pənah Hüseyn Milli Şuradan danışdı - qalmaqal yenidən başlayır

yazısı səh.6-da

# 5-6 iyul 2014

# Siyasi məhbusların apelyasiya şikayətlərinə baxılacaq

## İsmayıllı dustaqları məhkəmənin ləngiməsindən narazıdırlar



**Son vaxtlarda Azərbaycanda demək olar ki, hər ay siyasi məhbusların sırasına yeni adlar əlavə olunur. Onlardan bir çoxu barəsində artıq hökm çıxarılsa da, siyasi motivlərlə həbs olunanlar arasında məhkəmələri davam edənlər də var.**

Onların məhkəmələri, verdikləri apelyasiya şikayətlərinə baxılıb-baxılmaması və son durumları ilə maraqlandıq.

Müsavat başqanının həbsdə olan müavini, “Yeni Müsavat” qəzetinin **köşə yazarı Tofiq Yaqublunun qızı Nərgiz Yaqublu** atasının saxlanma şəraitinin və səhhətinin normal olduğunu söylədi: “Saxlanma şəraitindən bir az şikayəti var. Çünki kamera hədsiz dərəcədə istidir. Kamerada sərinkeş yoxdur. Kənardan gətirilməsinə də icazə verilmir. Atam başda olmaqla, İsmayıllı məhbuslarının ən çox şikayətləri Apelyasiya Məhkəməsinin avqustun 12-nə təyin olunmasıdır. Onlar bunun növbəti qanun pozuntusu olduğunu və girov saxlandıqlarını bildirirlər”.

Müsavat başqanının həbsdəki müşaviri **Yadigar Sadıqovun Hüquqlarının Müdafiə Komitəsinin sədri Elman Fəttah** onunla iyulun 4-də görüşdüyünü və səhhətinin yaxşı olduğunu dedi: “Apelyasiya Məhkəməsinə hazırlaşır. Sonuncu məhkəmədə ekspertiza rəyi ətrafında narazılıq yarandı. Vəkil yenidən ekspertiza rəyi tələb etdi. Hakim ekspertlərin məhkəməyə gəlməsini istədi. Bu baxımdan proses təxirə salındı. Vəkil Adil İsmayılov dəlil sübutlar hazırlamışdı. Məhkəmə heyəti bu sübutlar qarşısında aciz duruma düşdü. Məhkəmə zamanı gətirdiyimiz sübutlarla istintaqın saxtalaşdırıldığını sübut etdik. Növbəti prosesə ciddi hazırlaşırıq”.

Mayın 6-da barələrində hökm oxunan NİDA vətəndaş hərəkatının üzvlərinin bu ayın 11-də apelyasiya şikayətlərinə baxılacaq. Bu barədə musavat.com-a onların yaxınları məlumat veriblər. Gənc fəalların yaxınları onların saxlanma şəraitlərinin və səhhətlərinin ümumən qənaətbəxş olduğunu bildiriblər.

NİDA vətəndaş hərəkatının həbsdə olan üzvü Zaur Qurbanlının atası oğlunun qulağında problem yarandığını həkimlərin müayinəsindən sonra hər şeyin qaydasına düşdüyünü bildirdi.

Bitərəf gənc fəal Orxan Əyyubzadənin səhhətində ciddi problemlər yaranıb. Buna səbəb 6 nəfərlik kamerada 7 nəfərin saxlanılmasıdır. Gənc fəalın yaxınları hətta kamerada məhbusların növbə ilə yatdığını söylədilər.

**Orxan Əyyubzadənin Hüquqlarını Müdafiə Komitəsinin sədri Şamil Beydulla onun apelyasiya şikayətinə baxıldığını qeyd etdi:** “Orxanın həbs müddəti daha 1 ay uzadılıb. Bununla bağlı apelyasiya şikayəti vermişdik. İki gün öncə şikayətə baxıldı və qərar qüvvədə saxlanıldı. Bu ayın sonu Orxanın məhkəməsi başlayır. Ona hazırlaşırıq”.

❑ **Cavanşir ABBASLI**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

**“Elm” tədris mərkəzi**

**MAGIC LANGUAGES**

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

«QAYA MƏTBUAT YAYIMI» MMC!
İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
■ Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə catdırılmasını;
■ Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
■ Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası gündəlik
«Yeni Musavat » qəzetinə–0,40 man
və bundan əlavə 2000 adda yerli və xarici nəşrlər.
■ Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45 598-35-22
Respublikanın digər büyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41

# Azərbaycanla bağlı korrupsiya hesabatı

**"Transparency International" təşkilatı iyulun 3-də Brüsseldə Azərbaycan və Moldova üzrə Milli İnteqrasiya sisteminin qiymətləndirilməsi - 2014 hesabatlarını təqdim edib.**

“Qafqazinfo” azadliq.og-a istinadən xəbər verir ki, hər iki ölkə üzrə hesabat korrupsiyanın bu ölkələrin Avropa Birliyi ilə siyasi və iqtisadi münasibətlərini laxlatdığını göstərir. Azərbaycan üzrə hesabatda deyilir ki, iqtisadiyyat neft gəlirlərindən həddən artıq asılıdır və Azərbaycan təbii sərvəti çox olan ökələr kimi korrupsiyadan ziyan çəkir.

Təşkilatın Azərbaycan bölməsi olan «Transparency International Azerbaijan»ın hazırladığı hesabatda bildirilir ki, cəmiyyətdə korrupsiya riskləri böyükdür. Həyəcan doğuran isə bunu izləməli olan qurumların - vətəndaş cəmiyyətinin, media və siyasi partiyaların zəif olmasıdır. Parlamentdə bunu izləməli qurumlar, Hesablama Palatası və ombudsman institutları kifayət qədər müstəqil deyillər və qanunun təmin etdiyi səviyyədə öz güclərindən istifadə edə bilmirlər. Hərçənd Azərbaycanda antikorrupsiya qanunvericiliyi var, özəl sektorda korrupsiya məsələsinin tənzimlənməsi və bir sıra vacib qanunlar yoxdur. Buna korrupsiya məlumatını verənin qorunması, maraqların ziddiyyəti, korrporativ idarəçilik qanunları aiddir.

Bununla belə, korrupsiya ilə mübarizədə bəzi ümidverici inkişaf var. Son illər hökumət korrupsiya ilə mübarizədə elektron xidməti tətbiq edib, bir pəncərəli ictimai xidmət mərkəzləri yaradıb, biznes qeydiyyatını sadələşdirməklə, özəl sektorda biznes mühitini yaxşılaşdırıb.

# Qənimət Zahidin qızı Fransada universitet tələbəsi oldu

**Ailəsi ilə birgə Fransada yaşayan “Azadlıq” qəzetinin baş redaktoru Qənimət Zahidin qızı Çilənay Saday Franş-Konte Universitetinə daxil olub. “Media forum” saytının məlumatına görə, Qənimət Zahidin həyat yoldaşı Ayəndə Mürsəliyeva iyulun 4-də belə açıqlama yayıb.**

Ayəndə Mürsəliyeva “Media forum” saytına deyib ki, qızı liseyi fərqlənmə diplomu ilə bitirib: “Çilənay Franş-Konte Universitetinin iqtisadiyyat və idarəetmə fakültəsinə qəbul olunub. Çox sevinirik. Allah hər kəsə belə sevinc nəsib etsin”.

# Sərkisyan ölkədə çevriliş olacağı ilə hədələndi

## “Özü də yaxşı anlayır ki, bu dəqiqə taleyi Moskvanın əlindədir”

**“Sentyabrda Serj Sərkisyan hakimiyyəti devrilə bilər”. Axar.az xəbər verir ki, bu iddia ilə Ermənistan mətbuatı çıxış edib.**

Mətbuat hər şeyin Sərkisyanın Qarabağla bağlı məsələdə Rusiyaya verəcəyi cavabdan asılı olacağını bildirib: "Sərkisyan özü də yaxşı anlayır ki, bu dəqiqə taleyi Moskvanın əlindədir. Onun sadəcə seçim etmək şansı var. O, yaxşı başa düşür ki, Qarabağın Azərbaycana verilməsi və rusların burada yerləşdirilməsini qəbul etsə, heç kəsə cavab verə bilməyəcək. Həmçinin Bakıya ilkin mərhələdə bir neçə rayonun qaytarılması məsələsində tərəddüd etsə, artıq Moskva onun nazı ilə çox oynamayacaq. Çünki Putinə indiki çətin zamanında konkret qərar və güvənə biləcəyi şəxslər lazımdır. Həmçinin Sərkisyan Nazarbayevin tələbinə uyğun olaraq Qarabağla arasında sərhəd keçid məntəqəsi quraşdırmalıdır. Bütün bunlar qarşısında Ermənistan çarəsiz vəziyyətdədir. Həmçinin Azərbaycan tərəfindən təzyiqin gücləndirilməsi Sərkisyanı çıxılmaz vəziyyətə qoyub. Eləcə də rusların təsiri ilə bəzi müxalif partiyalar xeyli aktivləşiblər. Artıq aralarından bəziləri Sərkisyana xalqı ayağa qaldırmamaq üçün konkret zaman da veriblər. Bundan başqa isə Köçəryan yenidən Moskvanın rzasını alıb hakimiyyətə dönmək istəyir. İndi hər şey Sərkisyanın verəcəyi qərardan asılı olacaq. Əgər Rusiyanın istəkləri yerinə yetməsə, Sərkisyan hakimiyyəti bitəcək. Moskvanın istəkləri isə hamıya bəllidir".



# Türkiyənin yeni baş naziri Binəli Yıldırım ola bilər

**AKP-nin prezidentliyə namizədi məlum olduqdan sonra siyasi dairələrdə Ərdoğan seçiləcəyi təqdirdə kimin yeni baş nazir olacağı məsələsi dartışılır. Avropa.info-nun məlumatına görə, baş nazir postu üçün AKP-də keçmiş nəqliyyat naziri Binəli Yıldırımın adı keçir.**

Siyasi partiyalar qanununda edilən dəyişiklikdən sonra baş nazir və partiya başqanı fərqli şəxslər ola bilər. Lakin AKP-də bunun həyata keçirilməsi gözlənilən deyil.

AKP başqanı ilə baş nazirin eyni şəxs olması gözlənilir.

Baş nazir Ərdoğan partiya nümayəndələrinə qəti şəkildə “Üç müddətə seçilmək qanunu dəyişməyəcək. Ara və yaxud vaxtından əvvəl seçkilərə gedilməyəcək” deyib.

AKP-də Ərdoğandan sonra baş nazirlik vəzifəsi üçün Bülənt Arınç, Əli Babacan, Binəli Yıldırım, Mehmet Əli Şahin və Əhməd Davudoğlunun adı keçir. Ən şanslının isə Ərdoğanın üstünlük verdiyi Binəli Yıldırım olduğu bildirilir.

AKP kulislərində iddia edilir ki, Abdulla Gül aktiv siyasətə qayıdarsa üstünlük məhz ona veriləcək. Lakin baş nazir millət vəkili də olmalıdır. Və Gül parlamentə seçilərsə, AKP başqanı və baş nazir ola bilər.

Bunun üçün vaxtından əvvəl seçkilərə getmək lazımdır. Bunun olmayacağını Ərdoğan bəyan edib.

# Bakıda avtobus sürücülərinə qarşı reyd

**Bakıda avtobus sürücülərinə qarşı reyd keçirildiyindən xəbər tutan bəzi sürücülər idarə etdikləri avtobusları ərazilərdə qoyub qaçıb və bununla da yoxlamadan yayınıblar. Bu isə paytaxtda sərnişindaşımada müəyyən problemlər yaradıb. Bu barədə «Trend»ə Daxili İşlər Nazirliyi (DİN) Bakı Şəhər Baş Polis İdarəsi Dövlət Yol Polisi İdarəsinin İctimai qurumlarla əlaqə bölməsinin rəisi, polis polkovnik-leytenantı Vaqif Əsədov deyib.**

Bölmə rəisi qeyd edib ki, Bakı şəhəri üzrə qeydə alınan yol-nəqliyyat hadisələrinin təhlili göstərir ki, avtobus sürücülərinin iştirakı ilə qeydə alınan yol qəzalarının əksəriyyəti paytaxtdan bölgələrə, kənd və qəsəbələr, yaşayış məntəqələri, bağ massivləri, istirahət mərkəzləri, çimərliklər istiqamətində baş verir. Ona görə də bu gündən etibarən Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin bölmə və şöbə əməkdaşları Nəqliyyat Nazirliyinin əməkdaşları ilə birgə paytaxtda sərnişindaşıma ilə məşğul olan avtobus sürücüləri arasında nizam-intizamın yaradılması, avtobusların iştirakı ilə baş verən yol-nəqliyyat hadisələrinin sayının minimuma endirilməsi məqsədilə reydlərin keçirilməsinə başlayıb: “Hazırda paytaxtda metronun ”20 Yanvar", “Koroğlu”, “Neftçilər” və “Xalqlar dostluğu” stansiyalarının yaxınlığında reydlər keçirilir. Reydlər zamanı yenə də avtobus sürücülərinin müvafiq kateqoriya və yaxud sürücülük vəsiqəsi olmadan nəqliyyat vasitəsini idarə etməsi müşahidə edilir. Saat 14:00-dək “20 Yanvar” dairəsində avtobus marşrutları üzrə keçirilmiş reyd zamanı 6 avtobus sürücüsündə heç bir sənədin olmadığı aşkar edilib".

Onun sözlərinə görə, reydlər şənbə və bazar günləri da davam etdiriləcək.



Ömər Məmmədov

# VHP üzvünə hökm oxunub

**Vətəndaş Həmrəyli Partiyasının (VHP) həbsdə olan üzvü Ömər Məmmədova hökm oxunub. APA-nın məlumatına görə, iyunun 4-də Bakı Ağır Cinayətlər Məhkəməsində keçirilən prosesdə Ö. Məmmədov 5 il müddətinə azadlıqdan məhrum edilib.**

Qeyd edək ki, Ö. Məmmədov yanvarın 24-də Bakıda saxlanılıb. Mülki geyimli şəxslər onu Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinə aparıb. İstintaqın məlumatına görə, onun üstündən 6 qram heroin götürülüb. Bakının Nəsimi Rayon Məhkəməsinin qərarı ilə Ömər Məmmədov barəsində 3 aylıq həbs-qətimkan tədbiri seçilib.

1995-ci ildə Bakıda anadan olan Ömər Məmmədov Şimali Kipr Türk Respublikasında yerləşən Beynəlxalq Kipr Universitetinin tələbəsidir. Azərbaycan Vətəndaş Həmrəyliyi Partiyasının üzvüdür. 2013-cü ildə bir qrup gənclə “Axın” Hərəkatını təsis edib.

# “Hansısa dövlət qurumunun işinə qiymət vermək fikrində deyiləm”

“Elə bir islahat yoxdur ki, bir il ərzində aparılsın və həmin vaxt başa çatandan sonra hansısa nəticə analiz edilsin”.

APA-nın xəbərinə görə, bunu Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) sədri Məleykə Abbaszadə Təhsil Nazirliyi tərəfindən ötən bir il ərzində görülən işlər və bunun şagirdlərin biliyinə təsiri barədə suala cavabında deyib.

**M. Abbaszadə bildirib ki, hansısa islahatı aparmaq üçün müəyyən vaxt verilir:** “Mən hansısa bir dövlət qurumunun işinə qiymət vermək fikrində deyiləm. İkincisi isə biliyin qiymətləndirilməsini hər il aparırıq deyə, yalnız keçən il və əvvəlki illərlə bu ilin nəticələrini müqayisə edə bilərik. Bu nəticələr bilavasitə uşaqların imtahanlarda göstərdiyi biliyin qiymətləndirilməsi nəticəsində olan fikirlər, əsaslardır. Deyə bilərəm ki, keçən illə müqayisədə buraxılış imtahanlarının nəticələri eyni səviyyədədir. Qəbul imtahanlarının nəticələrinə gəlincə, bu proses tam başa çatmayıb deyə, biz ümumi nəticə haqqında heç nə deyə bilmərik”.

# NATO gəmiləri Qara dənizə girdi

**NATO-nun mina-tral qrupunun ikinci daimi heyətinin dörd hərbi gəmisi Bosfor boğazından keçərək Qara dənizə daxil olub.**

Aktual.az xəbər verir ki, bu barədə “İnterfaks”a diplomatik mənbələrdən məlumat daxil olub. Agentliyin əməkdaşının verdiyi məlumata görə, İtaliyanın iki hərbi gəmisi - “Avier” və “ Rimni”, Yunanıstanın “Maçitis”, həmçinin Türkiyənin “Ağçay” tralı dünən Qara dənizin sularına daxil olub.

Bidirilib ki, gəmilər NATO-nun Bolqarıstandakı “Burqas” limanına istiqamət alıb. Məqsəd “Briz” şərti adı altında birgə hərbi dəniz təlimlərinin keçirilməsidir. Qeyd edilir ki, təlimlər NATO-nun İtaliyanın Neapol şəhərindəki komandanlığından idarə olunacaq.



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Günün içindən

YENİ MÜSAVAT
N 171 (5880) 5 iyul 2014

# Vergilər naziri sələfilərlə işbirliyində

## Vergilər Nazirliyinin əsas giriş qapısını və təhlükəsizlik kamerasını atəşə tutan Samir Qurbanov istintaq başa çatmamış müəmmalı şəkildə azadlığa buraxılıb; vergi müfəttişləri sələfilərin biznes şəbəkəsinə müdaxilə etmirlər, qarşılığında isə Fazil Məmmədova Səudiyyə Ərəbistanında böyük biznes imkanları yaradılıb



**Ötən ilin sonunda Vergilər Nazirliyinin əsas giriş qapısını və təhlükəsizlik kamerasını atəşə tutan Samir Qurbanov istintaq başa çatmamış, müəmmalı şəkildə azadlığa buraxılıb. Silahlı insidentə görə həbs edilən şəxs vergilər naziri Fazil Məmmədovun ən yaxın və inanılmış adamlarından biri, nazirin xaricdəki biznesinin idarəçiliyi ilə məşğul olan, "Ataholdinq" ASC-nin Müşahidə Şurasının üzvü Qafar Qurbanovun qardaşı Samir Qurbanovdur.**

Bu barədə "Yeni Müsavat"a nazirlikdəki qaynaqlardan məlumat daxil olub.

S.Qurbanovun həbsi ilə bağlı ötən saylarımızda məlumat vermişdik. S.Qurbanov sələfi məzhəbini qəbul edib və icmanın nüfuzlu üzvlərindən biridir. İddiada o da bildirilir ki, onun nüfuz dairəsində 300 nəfərə yaxın sələfi var və onların 50 nəfəri Sumqayıt şəhərində yaşayır. S.Qurbanov istənilən kritik saatda telefon zəngləri ilə minimum 100 nəfər idmançı görkəmli vəhhabini bir araya gətirmək imkanına sahib birisi kimi xarakterizə olunur. S.Qurbanov bir neçə il Vergilər Nazirliyinin təhlükəsizlik xidmətinin rəhbəri vəzifəsində çalışıb. Ancaq ötən ilin sonlarında uzun illər çalışdığı vəzifəsindən gözlənilmədən çıxarılıb. Bu da silahlı insidentin baş verməsinə səbəb olub.

O vaxt yayılan məlumatlara görə, S.Qurbanov mühafizə xidmətinin rəhbəri kimi hər ay nazirlikdən rəsmi maaşından əlavə 50 min manat "paket" *(qeyri-rəsmi maaş)* də alırmış. Bu pulu özünə yaxın olan vəhhabi icmasının ehtiyaclarına xərcləyirmiş. Onun işdən çıxarılmasının səbəbi də təriqətçiliyi və nazirin ünvanına tez-tez tənqidlər səsləndirməsi olub. O, son aylarda hər gün deyirmiş ki, burada hər kəsin qazandığı haramdır və mütləq bu pullardan ona "zəkat" verilməlidir. Nəticədə S.Qurbanovu işdən çıxarıblar və həm də "paketi"ni kəsiblər. Onu ən çox hiddətləndirən də "paket"in kəsilməsi olub. O, bir neçə dəfə rəhbərlikdən, xüsusilə də nazirə ən yaxın olan Binəqədi İH başçısı Xaləddin İsgəndərovdan *(bu şəxs də uzun müddət vergi xidmətində rəhbər vəzifələrdə çalışıb - red.)* "paket"in bərpa edilməsini tələb edib. Samir Qurbanovun özünün də zəngin olması ilə bağlı məlumatlar var. Onun az qala 40 bahalı maşını var. Hamısının da nömrəsi 041-lə bitir.

İnsident baş verən gün S.Qurbanovun hədəfində əsasən 2 şəxs olub - vergilər naziri Fazil Məmmədov və onun yaxın qohumu, Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov. Lakin onu içəri buraxmayıblar. Qəzəblənən Samir nazirliyin giriş qapısına və təhlükəsizlik kamerasına atəş açmaqla, bir növ bu şəxslərə xəbərdarlıq edib. İnsidentdən sonra F.Məmmədovun və X.İsgəndərovun şəxsi mühafizəsi gücləndirilib, nazirliyin mühafizə sisteminə sayıqlığı artırmaq tapşırılıb.

**Redaksiyamızı bilgiləndirən mənbə S.Qurbanovun müəmmalı şəkildə azadlığa buraxılması ilə bağlı şok detalları da açıqlayıb:** "Bu məsələdə F.Məmmədovun biznesinin idarəçiliyi ilə məşğul olan Qafar Qurbanov vasitəçilik edib. Q.Qurbanov F.Məmmədovu inandırıb ki, qardaşının hərəkətini təqdir etməsə də, onun həbsdə qalması nazirin ziyanınadır. Çünki onun təsir dairəsində olan radikal dindarlar təxribata əl ata bilərlər və bunun da məsuliyyətini F.Məmmədov daşımalı olacaq. Yazılmamış qanunlara görə, oliqarxın çevrəsində olan istənilən insidentin məsuliyyətini oliqarx daşıyır. Ona görə də Q.Qurbanov bir daha belə bir insidentin olmayacağı ilə bağlı nazirə təminat verib. O deyib ki, bundan sonra qardaşı və onun rəhbərlik etdiyi icmanın maliyyə xərclərini şəxsən özü qarşılayacaq və onlara şəxsən özü nəzarət edəcək. Bundan sonra S.Qurbanovun azadlığa buraxılması reallaşıb".

Q.Qurbanovun adı mətbuatda ilk dəfə 2012-ci ilin yayında ARDNŞ-in Monteneqroda ada alması ətrafında qalmaqalda hallanıb. Mediada gedən məlumatlara görə, icarə müqaviləsini ARDNŞ-in adından "Ataholdinq" ASC-nin Müşahidə Şurasının üzvü Qafar Qurbanov imzalayıb. Özəl şirkət olan "Ataholdinq"in rəsmisinə dövlət şirkəti tərəfindən belə səlahiyyət verilməsi isə ekspertlər tərəfindən hüquqi nihilizm kimi qiymətləndirilib. Ekspertlərin fikrincə, yaranmış uyğunsuzluq bu iki şirkət arasında müəmmalı maraqlardan və bağlılıqdan xəbər verir.

**Qəzetimizi bilgiləndirən mənbənin sözlərinə görə, S.Qurbanovun azadlığa buraxılmasının səbəblərindən biri də F.Məmmədovla sələfi icmasının biznes seti arasında işgüzar münasibətlərin olmasıdır:** "Sələfilərin biznes şəbəkəsinə dəstək verən dövlət məmurlarından biri da vergilər naziridir. Vergi müfəttişləri sələfilərin biznes şəbəkəsinə demək olar ki, müdaxilə etmirlər. Qarşılığında isə F.Məmmədova Səudiyyə Ərəbistanında böyük biznes imkanları yaradılıb. Nazirin bu ölkədə çox böyük biznesi var. Bu amil də S.Qurbanovun azadlığa çıxmasında önəmli rol oynayıb. F.Məmmədov S.Qurbanova görə böyük bir beynəlxalq biznes şəbəkəsi ilə münasibətlərini korlamaq istəməyib".



Fazil Məmmədov

Mənbə maraqlı bir detala da toxunub. S.Qurbanovun istintaqı Respublika Prokurorluğunun Ağır Cinayətlərə dair İstintaq İdarəsində aparılır. Ancaq istintaq müddətində onun müdafiəsi ilə bağlı tanınmış vəkillərdən heç biri ilə müqavilə imzalanmayıb. Onun hüquqlarını təyinat üzrə ayrılmış vəkil müdafiə edib. Bu onu göstərir ki, F. Məmmədov S. Qurbanova münasibətdə öncədən ehtiyatlı mövqe tutub. Yəni onun taleyinin istintaqdan kənar həll ediləcəyi öncədən razılaşdırılıb. Bu detal da F.Məmmədovun sələfi icması ilə iş birliyində olmasını təsdiqləyir.

Yazıda adıçəkilən hər kəsin, eyni zamanda Vergilər Nazirliyi və Baş Prokurorluğun mövqeyini də dərc etməyə hazırıq.

❑ İqtisadiyyat şöbəsi

# Türkiyədə tutulan Sədərək gömrük rəisini geri alırlar

## Mirməhəmməd Seyidov "sübut-dəlil bazasının kifayət qədər olmaması" adi ilə Azərbaycana verilir; "Yeni Müsavat"ın yazdıqları təsdiqlənir

**Türkiyədə saxlanılan Sədərək gömrük-keçid məntəqəsinin rəisi Mirməhəmməd Seyidov Azərbaycana təhvil veriləcək. Bunu anspress-ə Azərbaycanın Qarsdakı Baş Konsulluğundan deyiblər. 2013-cü ilin dekabrında Türkiyədə saxlanılan Mirməhəmməd Seyidovun Azərbaycana təhvil verilməsi üçün sənədlərin hazırlanması tamamlanmaq üzrədir.**

Qeyd edək ki, Mirməhəmməd Seyidov ötən ilin dekabrında Qarsda hava limanında Türkiyə Qaçaqmalçılıq və Mütəşəkkil Cinayətkarlıqla Mübarizə Şöbəsinin əməkdaşları tərəfindən saxlanılıb. M.Seyidov 2 gün ən ciddi şəkildə Türkiyə Prokurorluğu müstəntiqlərinin suallarını cavablandırıb. İstintaq zamanı gömrük rəisinin istintaqda olan sübut-dəlilləri dolayısı ilə də olsa təsdiqləməkdən başqa yolu qalmayıb. Ondan rüşvət ötürmələri zamanı istifadə edilən parolları, cinayət ortaqlarının telefonlarına göndərilən kodlu sözlərin mənası haqda da bilgilər alınıb. Bundan sonra onu Ərzurum həbsxanasına köçürüblər.

2 illik izləmələrdən sonra keçirilən əməliyyat zamanı saxlanılanlar arasında Mirməhəmməd Seyidovla yanaşı, Türkiyənin Naxçıvanla sərhədindəki Dilucu Gömrük Postunun əməkdaşları və nəqliyyat firmalarının sahibləri də olub. Biri qadın olmaqla, ümumilikdə 18 nəfərlik dəstəyə qarşı mütəşəkkil qrup yaratmaq, rüşvət alıb-vermək, yanacaq qaçaqmalçılığı kimi ittihamlar irəli sürülüb. İğdır polisində və ədliyyəsində aparılan ilkin dindirmədən sonra rüşvətin Naxçıvan gömrüyündə Mirməhəmməd Seyidov tərəfindən toplandığı, daha sonra Türkiyə tərəfinə aparılaraq tərəflər arasında bölüşdürüldüyü ortaya çıxıb. Dilucu Sərhəd-Keçid Məntəqəsindəki türk gömrük məmurları telefonlarının dinlənməsi riskindən çəkinərək, Mirməhəmməd Seyidovla rüşvət danışıqlarını sərhədi keçən TIR və yük maşını sürücülərinin cib telefonları ilə apardıqları üzə çıxıb. Telefon danışıqlarında tərəflər parollardan istifadə ediblər.

Türk gömrük məmurlarından biri Mirməhəmməd Seyidovla telefonla danışanda "Qarnım ağrıyır, mənə dərman göndər" deməsi, Mirməhəmməd Seyidovun isə ona "Qarnının ağrısı üçün dərman göndərdim" deməsi də istifadə edilən parollarin sübutu kimi cinayət işinə əlavə olunub. M.Seyidovun topladığı rüşvət pullarını torbalarla Türkiyə tərəfinə aparıb işbirliyində olduğu adamlar arasında bölüb...

Qeyd edək ki, "Yeni Müsavat"ın 13 iyun 2014-cü il tarixli sayında dərc olunan "Sədərək Gömrüyünün rəisinin həbsindən 6 ay ötür" sərlöhvəli yazıda Azərbaycan tərəfinin M.Seyidovu Türkiyə Prokurorluğundan "sübut-dəlil bazasının kifayət qədər olmaması" əsası ilə geri almağa səy göstərməsi haqda bilgi vermişdik.

**Həmin yazıda belə bir məqam vardı:** "Tutulan iş adamları sırasında Güney Azərbaycan kökənli iş adamı Rza Zərrab da vardı. Bir müddət öncə o, azadlığa buraxıldı. Bütün bu əməliyyat daha çox onun üzərində qurulmuşdu. Əgər R.Zərrab azad edilibsə, Mirməhəmməd Seyidovun həbsdən buraxılacağı istisna deyil". Son məlumatlar yazdıqlarımızı bir daha təsdiqləyir. M.Seyidovun Azərbaycan tərəfinə verilməsi məsələsinin siyasi müstəvidə aparılan qarşılıqlı razılaşmaların bir elementi də olduğu vurğulanır.

Yada salaq ki, Türkiyə hüquq-mühafizə orqanlarının keçirdiyi həmin əməliyyat zamanı 17 gömrük məmuru, o cümlədən İstanbulda 3 nazir oğlu da daxil olmaqla, 80-dən çox məşhur iş adamı və yüksək vəzifəli şəxs saxlanılıb.

❑ E.HÜSEYNOV

# Sabir Rüstəmxanlı qardaşının xaricə qaçmasını təkzib etdi

## "Əlövsət Əliyev ailə durumu ilə bağlı xaricdədir"



Əlövsət Əliyev



Sabir Rüstəmxanlı

**"Qardaşım Əlövsət Əliyevin xarici ölkəyə qaçması ilə bağlı xəbərlər əsassızdır", - deputat Sabir Rüstəmxanlı qardaşının qaçması ilə bağlı yayılan xəbərləri "Turan"a şərh edərkən bildirib. Onun sözlərinə görə, qardaşı hazırda Almaniyadadır. Qardaşının bu ölkəyə getməsnə səbəb isə oğlunun bu ölkədə yaşaması və nəvəsinin dünyaya gəlməsidir. "O, bu yaxınlarda ölkəyə qayıdacaq" deyə, S.Rüstəmxanli duruma aydınlıq gətirib. O, qardaşının ölkədən qaçması haqda xəbərləri yaymaqda maraqlı qüvvələrin olduğunu nəzərə çatdırıb.**

Eyni zamanda S.Rüstəmxanlı oğlu Cəmil Rüstəmxanlının "Azəryolservis"də vəzifə alması ilə bağlı məsələyə də münasibətini bildirib. Belə ki, oğlunun beynəlxalq bölmədə bir neçə ildir ki, çalışdığını deyib. Onun bu bölmədə qrup rəhbəri təyin olunmasına səbəb kimi xaricdə təhsil alması, bir neçə dil bilməsi kimi keyfiyyətləri göstərilib. "Onsuz da qohum-əqrəbadakı gənclərin çoxu işsizdir, yəni S.Rüstəmxanlının övladının işləməsi sensasiyadırmı?", - S.Rüstəmxanli yayılan xəbərə münasibətini ifadə edib.

YENİ MÜSAVAT
N 171 (5880) 5 iyul 2014



# Gün var ki...

Hüseynbala SƏLİMOV

**Bəli, bizim hakimiyyət adamları qarşılarında opponent görməyəndə lap həvəslənirlər, özlərini tamam unudurlar. “Siz heç təsəvvür edirsinizmi? Sən demə, bunlar müstəqil olandan yüz il sonra quldarlığı ləgv ediblər! Amma bizdən 20 il ərzində elə bir demokratiya tələb edirlər ki...”**

Bu isterik bəyanatı hakimiyyətyönümlü politoloqlardan birinin dilindən eşidəndə, doğrusu, əvvəlcə ikili hiss keçirdim. Bir tərəfdən təlaş keçirdim, o biri tərəfdən də təəccübləndim.

Ona görə təlaş keçirdim ki, düşündüm, birdən bunlar da quldarlığı tətbiq edərlər, onda biz nə edərik? Ona görə təəccübləndim ki, elə məsələlər var ki, onları artıq hamı qəbul edir.

Bəli, hamı qəbul edir ki, ABŞ-ın keçdiyi demokratiya yolu bəşəriyyətin yolu idi. O vaxta qədər yalnız Afinada quldarlıq demokratiyası olmuşdu. Başqa bir təcrübə yox idi. Məgər bunu həmin hakimiyyət yönümlü politoloq bilmirdimi?

Bildiyim odur ki, bütün təqvimlər içində iki tarix xüsusi maraq kəsb edir. Bunlardan biri 4 iyul, o birisi isə 14 iyuldur. Biri ABŞ-ın müstəqillik günüdür, digəri isə Böyük Fransa inqilabının başlandığı gün. Hər ikisi böyük tarixdir. Bəzən onların önəmini azaltmağa çalışırlar. Bunu da adi hal kimi qəbul etmək lazım gəlir. Bir şeyi hamıya sevdirmək olmur.

Gələk əsas məsələnin üstünə - 4 iyula. Bəli, bu tarixdən təxminən yüz il sonra quldarlıq ləğv edildi, təqribən 150 il sonra qadınlara da seçki hüququ verildi və təxminən 200 il sonra irqi seqreqasiyaya tamam son qoyuldu. Heç kim də bunları inkar etmək niyyətində deyil.

Üstəlik, onu da qeyd edirik ki, quldarlığın ləgvi ilə bağlı konstitusiyaya edilmiş 13-cü düzəlişi sonuncu ştat-Missisipi lap bu yaxınlarda, 2013-cü ildə ratifikasiya etdi.

Bəli, bu məsələlərlə, eləcə də ABŞ-ın dünyada yeri və rolu haqqında sonsuzluğa qədər mübahisə etmək olar. Çox şey demək olar. Prinsipcə, sovet quruluşu qadınlara ABŞ-dan tez seçki hüququ vermişdi. Amma seçki yox idi, onu faktiki olaraq ləşv etmişdilər. Kimə lazım idi belə “seçki hüququ”?

Bəli, sovetlərdə nəinki hüquqi, həm də sosial mənada bərabərlik vardı. Amma bu, dəhşətli yoxsulluq fonundakı bərabərlik idi. Lazım idimi insanlara belə bərabərlik?..

Əslində 4 iyulun fəlsəfəsi başqa idi. Bu gün göstərdi ki, birinci olmaq heç də həmişə qorxulu deyil. Millət istəyəndə kimin birinci, kimin ikinci olmasına elə də məhəl qoymur, öz yolu ilə gedir.

Azərbaycanda “anoloqu olmayan” ifadəsini çox sevirlər. Bəli, düz iki yüz otuz səkkiz il bundan əvvəl Amerikada anoloqu olmayan hadisə baş verdi: ilk dəfə olaraq koloniya metropoliyadan ayrılaraq müstəqil oldu, hətta metropoliyanın bu prosesin qarşısını almaq üçün törətdiyi müharibəni də uddu və buna İstiqlaliyyət uğrunda müharibə adını verdi.

O vaxt nə “dünya birliyi” vardı, nə də Avropa Şurası. İnsanlar “cəhd və səhv” yolu ilə nəsə etməyə çalışırdılar. Bəzən alınırdı, bəzən də alınmırdı.

Azərbaycanda “eksperiment” sözünü sevmirlər. Hətta 1918-20-ci illərdə baş vermiş hadisələrə eksperiment deyəndə inciyirlər də.

Amma ABŞ özü böyük bir eksperiment idi. Bəlkə elə indi də eksperimentdir.

Əvvəldə dedik ki, müasir dünyada ABŞ-ın yeri və rolu haqda çox mübahisə etmək olar. Amma ABŞ-ın önəmi heç onun dünyada oynadığı rolda da deyil. Ondadır ki, bu ölkədə hədsiz dərəcədə effektiv siyasi və iqtisadi sistem yaradılıb. Sözsüz ki, qüsursuz deyil. Amma digər ölkələr kimi tək qüsurlardan da ibarət deyil. Çox effektiv sistemdir.

Azərbaycanda “artım parametrləri”lə öyünməyi sevirlər. Amma kökündə neft gəlirləri dayanan bu “artım parametrləri” ABŞ-da ilk illərdə müşahidə olunan artım parametrləri kimi təəccübləndirmək gücündə deyil.

Hətta bir əsr bundan əvvəl okeanın o tayında tütündən və şəkərqamışından başqa yox idi. İndi isə okeanın bu tayında nələrin olduğu haqqında düşünmək lazım gəlir...

Niyə görə? Ona görə ki, onlar eksperimentdən qorxmurlar. Onlar səhv etməkdən də qorxmurlar. Ona görə ki, birdəfəlik qəbul ediblər ki, irəli getmək üçün daim nəsə etmək lazımdır. Nəsə edirsənsə, səhv də edə bilərsən. Yalnız ölülər və bir də axmaqlar səhv etmir.

Məgər belə deyilmi?..

## Bakı-Moskva münasibətlərində təhlükəli gəlişmə

# Putinin Azərbaycana qarşı qorxulu “B planı” - təhlil

### Kremlin ölkəmizi xoşluqla Avrasiya Birliyinə qoşmaq səyləri alınmır; ATƏT tədbirində hakimiyyətin anti-Rusiya sənədinə səs verməməsinin daha bir səbəbi...



**Putinin Azərbaycanı Avrasiya Birliyinə (AB) cəlb etmək üçün israrlı səyləri davam edir. Rusiyanın bu yöndə cəhdlərinə ara verəcəyini düşünmək sadəlövhlük olardı. Çünki AB Kreml başçısı üçün olduqca mühüm, onun siyasi taleyini həll edəcək bir projedir, xüsusən də Ukrayna olaylarından dolayı güclənməkdə olan Qərb-Rusiya soyuq savaşı fonunda Rusiyanın dünyada özünütəsdiq məsələsidir.**

Bu qarşıdurma ATƏT-in Bakı toplantısında özünü çılpaqlığı ilə göstərdi. Bəlli oldu ki, postsovet məkanında həyati maraqlar uğrunda iki güc mərkəzi arasında amansız rəqabətin yaxın perspektivdə səngiyəcəyini gözləməyə dəyməz. Bu rəqabətdə isə “bloklara qoşulmayan”, neytral Azərbaycana Moskva məxsusi önəm verir. Bir neçə dəfə yazdığımız kimi, hətta Azərbaycan üçün ən ağrılı problem olan Qarabağ məsələsində Moskvanın Bakı ilə bazarlığa hazır olması barədə informasiya xarakterli, erməni tərəfini də bərk narahat edən xəbərlər yayılıb.

Rusiya Azərbaycanı Avrasiya tələsinə salmaq üçün bütün resurslarını işə salmış kimi görünür. Ermənistanın Avrasiya İttifaqının qapısı ağzında saxlanılması da bilavasitə Azərbaycanla bağlıdır. Məsələ ondadır ki, AB-yə qoşulmamaq üçün Azərbaycanın əlində ənənəvi arqument təcavüzkar Ermənistanla eyni ittifaqda təmsil olunmağın mümkünsüzlüyüdür. Bunu Moskvada gözəl anlayırlar. O üzdən Ermənistanın quruma üzvlüyünü ertələmək istəyirlər.

Yəni Rusiya Ermənistanın yeni AB-yə qəbulunu gecikdirməklə Azərbaycan üçün daha məqbul və komfort şərait yaratmağa, Bakının əlindəki kontur arqumentləri kəsərsizləşdirəcəyinə ümid edir. Ermənistan onsuz da Kremlin ovcundadır. Azərbaycan isə Ukraynadan sonra faktiki surətdə Avrasiya İttifaqının, demək, həm də Güney Qafqazın taleyini həll edə biləcək, Rusiyanın regionda qalıb-qalmayacağını müəyyənləşdirəcək strateji ölkədir. Ona görə də Moskva Azərbaycana ən müxtəlif vasitələrlə, maksimum təsir göstərməyə çalışır. Bu təsirlər yüzdə yüz artacaq.

Bu xüsusda son vaxtlar Rusiya yazılı və elektron KİV-lərində Azərbaycanla, Dağlıq Qarabağla bağlı pozitiv materialların artması da təsadüfi sayıla bilməz. Kremlə yaxın ekspertlərin dilindən ölkəmizə ünvanlı neqativ, hədələyici fikirlər da daha gözə dəymir. Heç şübhəsiz, bu tip gəlişmə də bilavasitə Kremlin, Putinin iradəsinə bağlıdır və Bakının qərar verməsi üçün məqbul siyasi atmosferi gücləndirməyə hesablanıb. Çünki avtoritar ölkə olan Rusiyada mətbuat hakimiyyətin nəzarətindədir və sonuncunun rüsxəti olmadan Azərbaycana yönəlik belə təbliğati reveranslar istisnadır. Ukrayna barədə Rusiya KİV-lərinin aylardır apardığı qarayaxma kampaniyası buna əyani sübutdur.

Lakin belə görünür, Kremlin Azərbaycana dair “A planı” yerimir. Hər halda, bizə çatan kifayət qədər mötəbər bilgilərə inansaq, rəsmi Bakını Moskvanın “3 rayon əvəzinə Avrasiya İttifaqı” kimi şirnikləndirici, “tələdə pendir” effektli təklif qane etməyib. Son məlumatlara görə, bu mövqe ötən ay ölkəmizə bir-birinin ardınca səfər etmiş yüksək çinli rus emissarları *(Roqozin, Lavrov)* vasitəsilə Putinin nəzərinə artıq çatdırılıb. Elə Bakının Moskva tərəfindən yerinə yetirilməsi mümkünsüz olan əsas şərt-tələbi də: “Dağlıq Qarabağı qaytarın, ittifaqda bir yerdə olaq”.

Qalır “B planı” - hədə, şantaj yolu. Çox böyük ehtimalla, Azərbaycan iqtidarı həm də bu və başqa təhlükələri ciddiyə alaraq ATƏT-in Bakı toplantısında Ukraynaya dair sərt anti-Rusiya qətnaməsinə səs verməkdən yayınıb. Yeri gəlmişkən, bu mövqe barədə Azərbaycanın iqtidar mediası, o sırada telekanallar bir kəlmə belə demədi, yazmadı. Rusiyanı izafi qıcıqlandırmamaq üçün fakt maksimum şəkildə ört-basdır edildi.

Ancaq bütün hallarda ortada Moskva əleyhinə olduqca sərt ritorikalı Bakı Bəyannaməsi var. Bu sənəd “B planı”ndan ötrü Kreml üçün ilkin istinad müstəvisi və ya bəhanə platforması rolu oynaya bilər. Doğrudur, hələ ki, Putinin qorxulu planı işə saldığının əlamətləri müşahidə edilmir. Ancaq qarşımızda Rusiyadır. Bəlkə də onun Azərbaycanı tələyə salmaq üçün hələ C planı da var...

❑ Siyasət şöbəsi

# AYİB: “Avropada iqtisadi böhrandan yalnız Azərbaycan yayına biləcək”

**Avropada iqtisadi böhrandan növbəti dəfə yayına biləcək ölkə ancaq Azərbaycan olacaq.**

“APA-Economics”in məlumatına görə, bu barədə Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) hesabatında bildirilir.

European Bank for Reconstruction and Development

AYİB-in hesabatına görə, 2014-cü ildə Azərbaycanda iqtisadiyyatın artımı 3,5%-dən, 2015-ci ildə isə 3%-dən az olmayacaq.

Bankın hesablamalarına görə, bu ilin sonuna Ukrayna iqtisadiyyatı 7% azalacaq, gələn il isə ölkə iqtisadiyyatının artımı ən yaxşı halda sıfıra bərabər olacaq.

Qeyd edək ki, Ukrayna Avropa qitəsində yeganə ölkədir ki, 20 il ərzində iqtisadi artımı sıfıra bərabər olub.

Bank bildirir ki, bu il Rusiya iqtisadiyyatının artımı da sıfıra bərabər olacaq. Yalnız gələn il Rusiyanın iqtisadiyyatında 0,8%-lik artım baş verə bilər.

# "Ocalanın azad edilməsinə hazırlıq gedir"

## Əfsanəvi general Engin Alan: "O vaxt biz ermənilərin hücumuna qarşı "Rüzgar birliyi"ni yaratdıq"

**"Balyoz işi" üzrə məhkum olunan və bir müddət əvvəl azadlığa çıxan MHP millət vəkili Engin Alan "Bengütürk" televiziya kanalına müsahibə verib. "Yeni Müsavat"ın məlumatına görə, əfsanəvi komutan "Ufukun ötəsi" proqramında jurnalistlərlə birgə Türkiyə gündəmini dəyərləndirib.**




Engin Alan həbsi barədə danışmaqla yanaşı, Ərdoğan hökumətinin PKK-ya yaxınlaşması ilə bağlı bildirib ki, baş nazirin ən böyük planı Türkiyə Silahlı Qüvvələrində millətini düşünən zabitləri sıradan çıxarmaq olub: "50 ildən çox mən silahlı qüvvələrdə xidmət etmişəm. Türkiyə ordusu dünyanın ən yaxşı iki ordusundan biridir. Ordu hər zaman hüquqsuzluğa müdaxilə edib. Biz son illər bu ölkədə hüquq adına bir şey görməmişik. Terrorla mücadilə edən şərəfli zabitləri həbs elədilər. Onları həbsxanada çürütmək istəyirdilər".

Engin Alan bildirib ki, artıq Türkiyədə PKK lideri Abdulla Öcalanın azad edilməsinə hazırlıq gedir. O, bunu PKK-nın hazırkı rəhbəri Murad Karayılanın və terror təşkilatına birbaşa və açıq dəstək verən millət vəkillərinin son günlər verdiyi açıqlamaları ilə əsaslandırıb.

Verilişin aparıcısı bildirib ki, Azərbaycan və türkmən elindən sizə qarşı çox böyük mesajlar var. Verilişin qonağı olan jurnalistlər əfsanəvi generaldan türkmən eli ilə bağlı xatirələrini danışmağı xahiş ediblər.

**Engin Alan bildirib ki, Allah heç bir türk toplumuna əsarət göstərməsin:** "Telefari, Tuzurmatini, Kərkükü heç vaxt ağlımdan çıxara bilmirəm. Baş verən olaylar bir daha göstərir ki, İraqın 3 yerə parçalanması ilə bağlı hazırlıqlar gedir. Burada ən böyük ziyan türkmənlərə dəyəcək".

**Engin Alan bildirib ki, Azərbaycan onun canıdır:** "Türkiyə mənim üçün nədirsə, Azərbaycan da mənim üçün elədir. Azərbaycanda xidmət etmişəm. Azərbaycanın 91-ci ildə əldə etdiyi müstəqilliyindən sonra, ordusunun qurulmasına xidmətlərim olub. O vaxt biz ermənilərin hücumuna qarşı "Rüzgar birliyi"ni yaratdıq. Eyni şeyi türkmənlər üçün də etdik. Hazırda mən akınçıların nə vəziyyətdə olduğunu bilmirəm. Çünki aradan çox uzun bir zaman keçib".

2011-ci ilin yayında Türkiyədə keçirilən parlament seçkilərində MHP-nin siyahısından İstanbuldan deputat seçilib. Bundan başqa, həbsdə olduğu müddətdə barəsində ikinci məhkəmə hökmü çıxıb. "28 fevral" prosesində ittiham olunan E.Alan 2012-ci ildə həbs cəzası alsa da, 2013-cü ilin yayında bu ittihamla məhkumluq üzərindən götürülüb.

Türkiyə ordusunda, ölkə daxilində və xaricdə keçirilən xüsusi əməliyyatlara görə general Engin Alan Kipr savaş medalı, Türk Silahlı Qüvvələri Cəsarət və Fəraqət medalı, TSK Uğur medalı kimi medallara layiq görülüb.

❑ **Fərahim İLQAROĞLU**

# Şok iddia: Türkiyə Ermənistanla sərhədi açır

## Qardaş ölkə mətbuatında məsələ yenidən gündəmə gəlib; Ərdoğanın bununla bağlı təlimat verdiyi bildirilir; Türkiyə XİN-dən reaksiya gəldi...

**Türkiyə Ermənistanla sərhədi açır. Anspress-in məlumatına görə, bu iddia ilə Türkiyənin "Taraf" qəzeti çıxış edib. Qəzetdə yer alan məlumatda bildirilir ki, baş nazir Rəcəb Tayyib Ərdoğan sentyabrda sərhəd qapısının açılması ilə bağlı hətta təlimat da verib.**



Qeyd edilir ki, prezidentliyə namizədliyini açıqlayandan sonra Ərdoğan Türkiyə-Ermənistan münasibətlərinin normallaşması üçün ikinci addım atmağa qərar verib. Məlumata görə, Alican sərhəd qapısının açılması həm də ABŞ-Ermənistan münasibətlərinin normallaşacağına hesablanıb.

Qəzetin yazdığına görə, ermənilər qondarma erməni soyqırımının 100 illiyi ilə bağlı bir sıra tədbirlər hazırlayırlar. AKP hökuməti isə bu kampaniyanın təsirini azaltmaq üçün işlərə başlayıb. İlk addım olaraq baş nazir bu ilin aprel ayında qondarma soyqırımın ildönümü ərəfəsində 1915-ci ildə baş verən hadisələr zamanı ölən ermənilərin nəvələrinə başsağlığı verib. Bundan əlavə, sərhəd qapısına kimi olan 7 km-lik yol asfaltlanaraq hazır vəziyyətə gətirilib. Artıq buraxılış məntəqəsində gömrük cihazları, X Rayler sisteminin qurulması da tamamlanır. Rəsmi açılış tarixi hələ dəqiqiləşdirilməyib.

**"Alican sərhəd qapısı Dağlıq Qarabağ münaqişəsi başlayandan, Azərbaycan torpaqları işğal ediləndən sonra bağlanılıb. Türkiyənin rəsmi şəxsləri dəfələrlə sərhəd qapısının Azərbaycanın işğal altında olan torpaqları azad ediləməyənə kimi açılmayacağı barədə bəyanatlar səsləndiriblər"**, - deyə nəşr vurğulayıb.

Yazının dərcindən az sonra Türkiyə XİN-i məlumatı təkzib edib. Ancaq təkzib olsa da, olmasa da, bədnam iddianın 100 illiyi yaxınlaşdıqca Ermənistanla sərhədlər məsələsi də tez-tez gündəmə gəlir. Hətta Azərbaycanda və Ermənistanda bəzi ekspertlər səviyyəsində belə ehtiyatlı fikirlər də səslənib ki, artıq Türkiyə ilə Ermənistan arasında bu məsələdə ABŞ-ın patronajlığı ilə ilkin gizli anlaşma əldə edilib.

Ərdoğanın başsağlığı kimi, Ermənistan prezidenti Serj Sərkisyanın Türkiyənin yeni seçiləcək prezidentini İrəvana dəvət eləməsinin də həmçinin həmin anlaşma daxilində olduğu söylənilir. Ötən ay isə Amerikanın Ermənistandakı səfiri Con Xafefrn Sürix protokollarından danışarkən ümidi itirmədiklərini, sərhədlərin açılması məsələsində Türkiyə ilə işləməkdə davam etdiklərini söyləmişdi. Diplomat həmçinin Sürix protokollarının əsas təşəbbüskarının Vaşinqton olduğunu, Birləşmiş Ştatların tərəflərə sərhədləri açmaq üçün təkan verdiyini xüsusi vurğulamışdı.

Hər şeydən göründüyü kimi, proses dayanmayıb və altdan-altdan, ABŞ-ın himayəsi altında davam etdirilir. Hər halda, "od yanmasa, tüstü çıxmaz". Böyük ehtimalla, proses Putin Rusiyasının Azərbaycanla Ermənistanı Avrasiya Birliyi adı altında öz orbitinə çəkmək səyləri ilə bağlı sürətlənəcək. Çünki Ağ Ev sərhədlərin açılmasına ən əvvəl Kremlin bölgəyə, ələlxüsus işğalçı Ermənistana təsirini azaltmaq vasitəsi kimi baxır. Qərbin regiondakı maraqlarının ötürücü dövləti sayılan Türkiyə vasitəsilə İrəvanın Moskvadan birbaşa asılılığını minimuma endirmək vasitəsi qismində nəzərdən keçirir.

"Qonşularla sıfır problem" siyasəti yürüdən Türkiyə hökuməti də təbii ki, bunda maraqlıdır. Ancaq belə planın reallaşmasında ciddi bir əngəl var - Qarabağ ixtilafı, Azərbaycanı razı salmaq. Bu məsələdə rəsmi Ankaranın mövqeyi dəfələrlə elan edilib. Türkiyə ilə Azərbaycan strateji müttəfiqlərdir və yəqin ki, həmişə belə olacaq. Yeni sərhədlərin açılmasına Bakıdan razılıq alınması qaçılmaz olacaq. Onu necə və nəyin qarşılığında alacaqlar? Əsas sual da budur.

❑ **Siyasət şöbəsi**

# Hacı İlqar İbrahimoğlu saqqal kəsmə videosuna reaksiya verdi


İlqar İbrahimoğlu

**Son günlər internet məkanında zorən saqqal kəsmə ilə bağlı video yayılmaqdadır. İçərişəhər "Cümə" məscidinin imam-camaatı, ilahiyyatçı-filosof Hacı İlqar İbrahimoğlu buna reaksiya verib: "Mübarək Ramazan ayının 6-cı günü və ilk cüməsinin hüzurunu yaşayırdım. Xəbər saytlarına nəzər salan zaman saqqal kəsmə əməliyyatının videolentinə rast gəldim. Gözlərimə inanmadım. 2-ci dəfə baxmaq istədim. Amma sona qədər baxa bilmədim. Söyüşlərlə müşayiət edilən səhnələri izləmə vərdişim yoxdur.**

Çox duyğulandım. Ürək ağrısı ilə bu səhnələri yaşadım. Baş verənlər - Azərbaycan insanının faciəsidir. Sovetlərdən sonra öz inancını normal yaşatmaq və təbliğ etmək imkanı verilməyən insanın faciəsidir. Bir ifratdan digər ifrata yuvarlanan Azərbaycan insanının faciəsi.

Son günlər İŞİD cinayətləri hamının ürəyini dağlayıb. Amma bu, qətiyyən əsas vermir ki, kimsə haradasa uzunsaqqallı insan görən kimi, onun saqqalını kəsmək vəzifəsini üzərinə götürsün.

Son günlər İŞİD bir çox murdar işlər görüb. Amma bu, əsas vermir ki, söyüşlə, təhqirlə, döyməklə, alçaltmaqla müşayiət edilən tərzdə cəzalandırma aksiyaları həyata keçirtsin.

Son günlər İŞİD, təkfirçi-vəhhabi ideolojisinin təzahürü olaraq, oyun oyun ağıllar. Amma bu, heç kimə əsas vermir ki, harada gəldi və necə gəldi əks cəzalandırma əməliyyatları həyata keçirsin.

Mən qəzəblənən insanları anlamağa çalışıram. Amma anlaya bilmirəm. Əhli-Beyt (ə) sevgisi, Əhli-Beyt (ə) məntiqi məni bunu anlamağa qoymur. Əli (ə) rəhmi məni bunu anlamağa qoymur. Düşməninə qarşı rəhmi ilə xüsusi seçilən İmam Əlimizin (ə) rəhmi.

Əbəlfəzl (ə) qeyrəti mənə bunu anlamağa qoymur.

Üzümü İŞİD-in cinayətlərindən qəzəblənmiş və özlərinə bu kimi reaksiyaları vermək icazəsi verən insanlara tuturam. Bu, İslam deyil. Onlar İslamı yaşatmırsa, siz də onlar kimi etməyəsiniz gərək.

İslam dini, Peyğəmbər (s) və Əhli-Beyt (ə) yolu - ağıllı, məntiqli, mərd, izzətli, İslam hüququna söykənən yoldur. Emosiyalar yolu deyil. Nəfsin istəklərinin yolu deyil.

Allah dərgahında olduğumuzu unutmayaq. Özümüzü Allah bəndələri olaraq hiss edək. Təqvalı rəftar edək. Düşmənlərimizlə belə, təqvalı rəftar edək. Necə ki, Peyğəmbərimiz (s) rəftar edib.

Necə ki, Əlimiz (ə) rəftar edib...

Necə ki, İmam Hüseynimiz (ə) rəftar edib. Düşməninə mübarək ovcunda su verən İmam Hüseynimiz (ə)...

Allah-Təala bizləri axırəz-zamanın fitnələrindən amanda saxlasın".

❑ **Musavat.com**

# Donbasın 36 rayonundan 23-ü dövlətin nəzarətindədir



**Ukraynanın şərqində - Donbasda antiterror əməliyyatının başladığı gündən bu yana güc strukturları 17 yaşayış məntəqəsini azad ediblər. APA-nın "censor.net" saytına istinadən yaydığı xəbərə görə, bu barədə Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Andrey Parubiy açıqlama verib.**

A.Parubiy bildirib ki, Ukrayna qüvvələri hazırda Donbasda 36 rayondan 23-nə nəzarət edir. Bu rayonlardan 13-ü Donetsk vilayətində, 10-u Luqansk vilayətindədir: "Rusiya KİV-i silahlıların Luqansk və Donetsk vilayətlərinə guya tam nəzarət etdikləri barədə çox tez-tez danışır. Bu səbəblə mən doğru statistikanı vermək istəyərdim ki, ona istinad olunsun. Bu günə olan məlumata əsasən Ukrayna dövləti həmin zonadakı 36 rayondan 23-nə nəzarət edir. Belə ki, Donetsk vilayətinin üçdə ikisindən çoxu - 18 rayondan 13-ü, Luqansk vilayətinin isə yarısından çoxu - 18 rayondan 10-u bizim əlimizdədir".

A.Parubiy separatçılardan təmizlənən rayonlarda yerli idarəetmə, milis orqanları və kommunal xidmətin işinin bərpa olunduğunu söyləyib.

Qeyd edək ki, Ukrayna prezidenti Petro Poroşenkonun elan etdiyi 10 günlük atəşkəsdən sonra Ukrayna güc strukturlarının ölkənin şərqində həyata keçirdiyi antiterror əməliyyatı yeni vüsət alıb. Bir neçə yaşayış məntəqəsi azad edilib və Ukrayna ordusu Luqansk şəhərinin kənar məhəllələrinə daxil olub.

YENİ MÜSAVAT
N 171 (5880) 5 iyul 2014

# Pənah Hüseyn Milli Şuradan danışdı - qalmaqal yenidən başlayır

## AXP lideri müxalifətin yeni və gerçək birliyinin qarşısında duran problemləri göstərdi; sabiq baş nazir deyir ki, günün sualı "nə etməli" yox, "nə etməməli" olmalıdır...

**"Yeni Müsavat" qəzetinin müxbiri AXP lideri Pənah Hüseyndən Azərbaycanın siyasi müxalifətinin problemləri barədə müsahibə alıb. Həmin müsahibəni təqdim edirik.**

***- Pənah bəy, KİV- də təsisçilərindən olduğunuz Milli Strateji Düşüncə Mərkəzinin növbəti tədbirlərindən birinin keçirilməsi barədə ümumi məlumat keçdi. Lakin müzakirənin məzmunu haqqında konkret informasiya verilmədi. Deməyə sözünüzmü yoxdur, ya belə məxfiliyin səbəbi nədir?***

- Burda daha çox məxfilikdən yox, mətbuata məhdud çıxışdan söhbət gedə bilər. Mətbuata qapalılığın məqsədi də müzakirələrin səmərəliliyini təmin etməkdir. Bəziləri də, əsasən ekspertlər sırasından, müzakirələrdə iştiraklarının və fikirlərinin mətbuatda açıqlanmasını istəmirlər. Onsuz da Düşüncə Mərkəzinin statusu, rolu və vəzifələri, perspektivlərinə yanaşmalarda təsisçilər arasında ciddi sayılacaq dərəcədə fərqlər olub və indi də var. Bu fərqlilik tədricən işin gedişində aradan qalxa bilər.

***- Dediniz ki, sizin ciddi saydığınız fikir ayrılıqları var? Xahiş edirəm konkretləşdirəsiniz.***

- "Düşüncə Mərkəzinə yanaşmada fərqliliklər var" kimi ifadə edilsə daha dəqiq olar. Buna da təbii baxmaq lazımdır. Bu prosesdə analitiklərlə yanaşı, fəaliyyətdə olan tanınmış siyasətçilər, ictimai xadimlər iştirak edirlər. Əslində bu, Azərbaycan üçün yeni olan, müsbət hadisədir, lakin MSDM-in mahiyyətini başa düşməkdə çətinlik törədir. Dərhal bu qurumun müxalifətin növbəti birlik formatlarından biri kimi qavranılması hadisəsi baş verir. Bilirsiniz ki, həm daxili, həm də xarici ictimai rəydə, o cümlədən demokratik düşərgədə Azərbaycan müxalifətinin birliyi kimi formulə edilən problem-sifariş mövcuddur. Bu istiqamətdə yeni-yeni axtarışlar aparılır, səylər göstərilir. MSDM-ə bu baxımdan, Milli Şura təcrübəsinin müxalifətin iqtidara gəlməsini təmin etmə mənasında uğursuzluğundan və seçkilərdən sonra məruz qaldığı böhrandan sonra yaranan indiki siyasi situasiyada yeni, əlverişli, alternativ model kimi baxılması və istifadə edilməsi cəhdləri bu baxımdan gözləniləndir. Lakin problemlər yaradır.

***- Milli Şura təcrübəsinin uğursuzluğunu müxalifətin hakimiyyətə gəlməsini təmin etmə baxımından qeyd etdiniz. Bəs bu təcrübəni ümumiyyətlə dəyərləndirə bilərsinizmi?***

- Bu məsələni mürəkkəbləşdirən cəhət ondan ibarətdir ki, iqtidar da əsasən geosiyasi xarakterli nüanslar üzündən Milli Şuranın səhnədən çıxmasında maraqlı görünür. İqtidar bir şeyə qarşıdırsa, bu, müxalifətin xeyrinədir, yaxud iqtidar bir şeyi istəyirsə, bu, müxalifətin əleyhinədir məntiqi demokratik düşərgədə Milli Şura ilə bağlı gerçəkliyi görüb qəbul etməyə, faydalı diskussiyaya mane olur. İlk dövrdə milli demokratik qüvvələrin əksəriyyətinin birmənalı dəstəklədiyi, şəxsən özümün də təqdir etdiyim Milli Şura ideyası- İctimai Palata ilə Ziyalılar Forumunun siyasi əməkdaşlığı, Rüstəm İbrahimbəyovun şəxsində ziyalı elitasına daxil olan bir şəxsin demokratik qüvvələrin liderliyinə gəlməsi əhəmiyyətli canlanmaya və əsassız olmayan ümidlərə səbəb olsa da, son nəticədə müxalifətin xeyrinə işləmədi. Milli Şuranın yaradılması prosesi milli demokratik müxalifətin liderləri *(Müsavat və AXCP-rəhbərlərinin şəxsində)* onlara qarşı opponentləri və demoqojik ictimai rəy tərəfindən göstərilən təzyiq, irəli sürülən ittihamlar, geosiyasi vəsvəsələr, qarşısında ardıcıl olaraq, addım-addım, bir sıra prinsipial siyasi və ideoloji mövqelərdən geri çəkilməsi ilə müşayiət olundu. Milli Şuranın yaradılmasının son mərhələsində-2013-cü il mayın 28- də isə faktiki olaraq, opponentlərinə və demoqojik ictimai rəyə təslim oldular. Prosesdə Milli demokratik müxalifətin və onun platformasının aparıcı, lider mövqeyi əldən verildi. Cəmiyyətin alt qatlarında hakimiyyət dəyişikliyi ilə bağlı demokratik qüvvələrin xeyrinə olmayan tendensiyalar vüsət aldı. Mən indi ona görə bunu söyləyirəm ki, hələ o vaxt, həmin ərəfədə İctimai Palatanın sessiyasında bu barədə çıxış edib mövqeyimi açıq bildirmişəm. Habelə 28 mayda M. Ə. Rəsulzadənin abidəsi önündəki mitinqdə, liderləri mühasirəyə alıb Milli Şura burda elan edilənə qədər buraxmayaq çağırışım da bununla bağlı idi. Milli demokratik düşərgə o vaxtkı konyukturda yol verdiyi təslimiyyətin neqativləri ilə hələ uzun müddət üzləşəcəkdir. Güzəştlərin, kompromislərin əvəzində avtoritarizmə qarşı və demokratiya uğrunda yaranacağı ehtimal olunan ümummilli birlik meydana gəlmədi, hakimiyyət əldə olunmadı. Seçkilər başa çatmamış dərin çatlar göründü.

2013-cü il seçkilərində Milli Şuranın prezidentliyə namizədi kimi iştirak etmiş professor Cəmil Həsənlinin uğurunu, bir siyasi tarix yazmasını, bu kampaniyada əmək sərf etmiş, fədakarlıq göstərmiş ayrı - ayrı təşkilatların və şəxslərin rolunu inkar etməyərək, onun Milli Şuranın namizədi olmasından daha artıq şəxsi intellektual səviyyəsi, siyasi hazırlığı, iradi və mənəvi keyfiyyətləri ilə şərtlənən müstəqil fenomen olması ilə bağlı olduğu qənaətimi də qeyd etmək istəyirəm. Yekun dəyərləndirmə üçün mövcud duruma göz atmaq kifayətdir. Son illərin ən ciddi hadisələrindən olan Ziyalılar Forumu faktiki olaraq dağılıb, digər funksiyaları ilə yanaşı, əsas siyasi müxalifət partiyaları Müsavat və AXCP-nin əməkdaşlıq mexanizmi rolunu oynayan İP- in fəaliyyətinə son verilib. Maraqlı ideyalardan olan EL birliyi davamlı böhran zolağına düşüb. Milli Şurada qalmaqda davam edən siyasi partiyaların, eləcə də digərlərinin fəaliyyəti durğunluq vəziyyətindədir. Problemi dərinləşdirən ciddi amil milli-demokrat qüvvələrin əsas subyekt olduqları sistemə Rusiya amilinin qarışması və bununla bağlı yaşanan siyasi- psixoloji fəsadların davam etməsidir. "A" deyib "B"-ni də demək lazımdır. Azərbaycanın real müxalifətinin bir hissəsinin bu gün fəaliyyət göstərən yeganə geniş birlik formatı olan Milli Şura rəhbərlərinin bu qurumun gələcəyi, rolu və perspektivləri haqqında ciddi düşünmələrinə ehtiyac var. Böyük ehtimalla düşünürlər də. Milli Şura təcrübədə ideoloji platforması və geosiyasi meylləri müxtəlif olan qüvvələrin bir təşkilat şəklində *(üzvlük, lider, səs çoxluğu ilə qərar qəbul etmə və s.)* əməkdaşlığının qüsurlu və zərərli olduğunu ortaya qoyub. Açıq deyim ki, sizin Milli Şura barədəki sualınıza həm də ona görə bu qədər geniş cavab verdim ki, bu təcrübə mənim müxalifətin birliyi məsələsinə, o cümlədən Milli Strateji Düşüncə Mərkəzinə yanaşmamın müəyyən edilməsində olduqca mühüm rol oynayır.

***- Müxalifətin son 20 ildə ən müxtəlif konfiqurasiyalarda birlik formatlarının yaradılmasının (Demkonqres, SİDSUH, "Bizim Azərbaycan", "Azadlıq", Milli Şura və s.) hakimiyyətə gəlmək baxımından qəti uğura səbəb olmaması Milli Şura təcrübəsi də nəzərə alınaraq, hazırkı durumda müxalifət birliyi ideyasına münasibət hansı istiqamətdə dəyişmişdir?***

- Müşahidə göstərir ki, birləşmə təcrübələrinin hakimiyyətə gəlməyi təmin etmə mənasında uğur qazandırmamasına baxmayaraq müxalifətin birliyi daxili ictimai rəydə və müxalifət tabanında üstün ideya olaraq qalmaqda davam edir. Azərbaycan siyasi proseslərində təsir faktorlarından olan xarici qüvvələrin rəy, təklif və tövsiyələrində, müxalifətə yönəlik siyasətin müəyyənləşdirilməsində də bu məsələ aparıcı yer tutur. Son onillikdə zaman- zaman irəli sürülən müxalifətin xalqla bütünləşməsinin, müxalifətin bir - biri ilə birləşməsindən daha mühüm və səmərəli olması tezisi nəzəri baxımdan doğru və cəlbedici görünsə də, praktikada gerçəkləşdirilə bilmir. Müxalifətin xalqla birliyinin müxalifətin bir-biri ilə birləşməsindən keçdiyi qənaəti bunun əksi istiqamətində ciddi dəyişikliyə uğramır. Bu da faktdır ki, müxalifət həmişə birlikdə olanda parçalanmış vəziyyətdə olduğundan daha güclü, proseslərə təsiri, siyasi çəkisi və nüfuzu daha böyük olmuşdur. Birləşmə ideyası o qədər mübahisəsiz və apriori doğru qəbul edilir ki, o, alternativsiz görünür.

***- Nə etməli?***

- Mən belə düşünürəm ki, bəlkə sualı belə qoyaq ki, nə etməməli? Məncə, cavab ondan ibarətdir ki, ideoloji platformaları və geosiyasi meylləri fərqli olan qüvvələrin təşkilat tipli *(üzvlük, xüsusilə fərdi üzvlük, səs çoxluğu ilə qərarlar qəbul edilməsi və s.)* birliklərinin yaradılmasına gedilməməlidir. Təşkilat tipli birliklərin yaradılmasına müstəsna hallarda, ideoloji və geosiyasi oriyentasiyası üst- üstə düşən qüvvələr çərçivəsində getmək olar. Mən bizdə bu tipli birliklərin də təcrübəsindən çıxış edərək təşkilat tipli birliklərin yaradılması zamanı həmin birliyin vahid liderinin də olmasını mühüm element hesab edirəm. Eyni zamanda bu yanaşma geniş tərkibli funksional əməkdaşlığı, funksional birlikləri istisna etmir. Beləlikə, "ayrılıqda, yoxsa birlikdə" dilemması "ayrılıqda və birlikdə" şəklində həll edilir.



***- Xeyli mücərrəd və sxematik oldu. Qəbul edirsinizmi ki, bu səbəbdən geniş oxucu kütləsinə belə cavab maraqsız, hətta açıq danışsaq, hansısa alt niyyətləri gizləmək cəhdi kimi görünə bilər?***

- Bu xəttin nə demək olduğunu hələ keçən il, prezident seçkilərindən sonra İsa Qəmbərin şəxsində Müsavat Partiyası rəhbərliyinə təklif etdiyim layihə nümunəsində izah edə bilərəm. Layihə ondan ibarət idi ki, Müsavat başqanı İsa Qəmbəri siyasi lider, Müsavat ideologiyasını *(Rəsulzadə - Elçibəy platforması)* ideoloji platforma kimi qəbul edən siyasi partiyalar və fərdlər "Müsavat" adlı siyasi blok şəklində birləşdiklərini və bu birliyin dayanıqlığının təminatı və cazibə mənbəyi olaraq 2015- ci il parlament seçkilərində Müsavat Partiyasının siyahısı ilə iştirak edəcəklərini bəyan edirlər. Qalan məsələlərdə isə radikal, yaxud yumşaq, solçu və ya sağçı, mühafizəkar və ya liberal, dinçi və ya dünyəvi və s. olmalarından asılı olmayaraq, bütün digər siyasi qüvvələrlə funksional əməkdaşlıq edilir. Aydındır ki, situasiyadan asılı olaraq seçkilərdə iştirak edib-etməmək probleminin necə həll ediləcəyi, müxalifətin daha geniş tərkibi ilə seçki bloku yaradılacağı kimi məsələlər nəzəri olaraq gündəmdə qalır. Bu model müxalifətin bir partiyalı siyasi güc mərkəzi adlandırıla bilər. Mənim bu təklifim o vaxt bəyənilib qəbul edilmədi.

***- Sizcə, niyə qəbul edilmədi?***

- Ehtimal edirəm ki, bu birliyə ən azı ilkin dövrdə qoşulanların Müsavata və İsa Qəmbərə güc qatma əmsalı *(o cümlədən siyasi vitrin problemi)* götür - qoy edilərək effektiv sayılmayıb. Effektivliyi şübhəli olan əlavə təşkilat və şəxslərin faydalı olmaqdan daha çox problem yaradacağı *(məsələn, parlament seçkilərində siyahıda yer və dairə davası döyəcəkləri, siyahıdan Müsavat Partiyası üzvlərinin deyil, başqa şəxslərin mandat ala biləcəyi kimi)* mülahizələr nəzərə alınıb. Təkrar edirəm ki, bunlar sadəcə mənim ehtimallarımdır. Daha ciddi səbəblərin olmasını da istisna etmirəm. Prinsipcə, Müsavat Partiyasının yalnız öz resursları ilə, kənardan heç kəsi cəlb etməyərək xalis "bir partiyalı siyasi güc mərkəzi" kursu aparması variantlardan biridir. Lakin bu kursun uğur qazanması üçün ilk öncə o, ideya olaraq mütləq açıq bəyan edilib ictimailəşməlidir ki, maddi siyasi qüvvəyə çevrilə bilsin. Bu məsələnin başqa ciddi problemləri də var ki, burda onlar üzərində geniş dayanmaq istəmirəm. Çoxpartiyalı siyasi güc mərkəzləri mənim təsəvvürümə görə funksional birliklər kimi yaradılmalı, təşkilat əlamətlərinə mümkün qədər malik olmamalıdırlar. Bu halda da MSDM özünü xalis beyin mərkəzi fəaliyyəti ilə yanaşı, keçici olaraq düşərgənin geniş tərkibli funksional birliyi istiqamətində tranzit rolunu da oynaya bilər. Ümumiyyətlə, mən müzakirələrdə MSDM- in siyasi tranzit funksiyası üzərində geniş dayanmağı xoşlamıram. Çünki çətin başa düşülür və fikirləri yanlış istiqamətlərə yayındırır. Lakin diskussiyalar zamanı məcburən buna diqqət cəlb etmək lazım gəlir.

❑ **E.SEYİDAĞA**




# Ümid Partiyası gənclərə ingilis dili öyrədəcək

**Ümid Partiyası Gənclər Təşkilatının "Dil Mərkəzi"ndə ingilis dili öyrənmək istəyən dinləyicilərlə görüş keçirilib. Görüşdə İcra Aparatının rəhbəri Taleh Əliyev dinləyiciləri Ümid Partiyasının gənclər üçün təsis etdiyi "Dil Mərkəzi" haqqında məlumatlandırdı, onların istək və təkliflərini dinləyib.**

Qeyd edək ki, "Dil Mərkəzi"ndə əvvəlcə ingilis dili dərsləri tədris ediləcək. Lakin gələcəkdə digər beynəlxalq dillərin də tədrisinə start verəcəyik. Mərkəzidə dərslər tam təmənnasız keçiriləcək.




# Partiyanın saytında xəbərlər 3 dildə veriləcək

**Ümid Partiyasında aparılan struktur dəyişikliklər öz bəhrəsini verməkdədir. Dəyişiklikdən sonra partiyanın rəhbər orqanları müntəzəm və daha operativ fəaliyyət göstərir. Partiyada yeni müavinlik institutu və şöbələrin daxil olduğu İcra Aparatı yaradılıb. Gündəlik görülən cari işlər belə kollegial şəkildə planlaşdırılır və konkret iş bölgüsü əsasında həyata keçirilir. Hər həftənin ikinci günü İcra Aparatının, cümə günü isə müavinliyin toplantısı keçirilir.**

İyunun 4-də Ümid Partiyasının mərkəzi qərargahında partiya sədrinin birinci müavini Ənvər Ağazadənin rəhbərliyi ilə müavinliyin növbəti iclası keçirilib. Partiyanın mətbuat xidməti xəbər verir ki, iclasda qərarların icra vəziyyəti, partiyanın təşkilat və təbliğat işinin gücləndirilməsi, bələdiyyə seçkilərinə hazırlıq işlərinin gedişi, partiya sıralarına qəbul olunmuş yeni üzvlərə üzvlük vəsiqələrinin verilməsi, yaxın günlərdə fəaliyyətə başlayacaq partiyanın saytı və partiyanın keçirəcəyi ramazan tədbirləri müzakirə olunub. Qərarların icra vəziyyəti ilə bağlı partiya İcra Aparatının rəhbəri Taleh Əliyev və təşkilat məsələləri üzrə müavin Bakir Həsəndəyli məruzə ediblər.

T.Əliyev bələdiyyə seçkilərinə hazırlıq, bu günə qədər bələdiyyə üzvlüyünə irəliyə sürüləcək namizədlər və partiya saytı ilə bağlı məlumat verib. İcra Aparatının rəhbəri qeyd edib ki, beynəlxalq arenada partiyanın yaxından tanınması üçün qarşıda duran əsas məqsədlər əməkdaşlıq üçün öncəliklə partiyanın saytının fəaliyyətə başlayacaq. Artıq sayt hazırdır və bəzi texniki məsələlərin həllindən sonra yaxın vaxtlarda fəaliyyətə başlayacaq. Saytda ümumi partiya haqda, partiya sədri, müavinlər, şöbə müdirləri haqda ən azı 3 dildə internetdə bilgilər yerləşdiriləcək. Mütəmadi olaraq partiyanın keçirdiyi tədbirlər haqda məlumatlar, Ümid Partiyası sədrinin, rəhbərlikdə çalışanların ictimai-siyasi, cari məsələlərə münasibətləri və müsahibələri, həmçinin xəbər bölməsində regionda və dünyada baş verən siyasi xəbərlər və baş verən siyasi proseslərə münasibətlər yerləşdiriləcək. Bununla da partiya ilə əlaqə yaratmaq istəyən insanlarla daha yaxından ünsiyyət qura bilmək imkanları yaradılacaq.

B. Həsənbəyli isə Göyçay rayonunda partiya fəalları ilə keçirdiyi görüşlə bağlı iclas iştirakçılarını məlumatlandırıb. Qeyd etdi ki, Göyçay rayonunda partiyanın seçkilərə hazırlığı ciddi şəkildə davam etdirilir.

Müzakirələr zamanı qərarların icra vəziyyəti qənaətbəxş hesab edilib. Eyni zamanda, toplantıda növbəti həftə ərzində görüləcək işlər planlaşdırılıb. Ramazan tədbirləri çərçivəsində partiya qərargahında iftar süfrələrinin təşkil edilməsi ilə bağlı humanitar məsələlər üzrə müavinliyə tapşırıqlar verilib.

# "Ölkənin şimalı ilə cənubundakı siyasi panorama eyni olmaya bilər"

## **Bakir Həsənbəyli:** "Çalışırıq ki, məhz özümüzün müəyyən etdiyimiz meydanda fəaliyyət göstərək"

**Siyasətin fəsillə hər hansı əlaqəsi olmasa da, lakin yay mövsümündə siyasi aktivliyin hər iki düşərgədə - iqtidar və müxalifət düşərgəsində nisbətən səngidiyi hiss olunmaqdadır. Lakin ötən illərdə olduğu kimi Ümid Partiyası ilin sonlarında keçiriləcək bələdiyyə seçkilərinə ciddi hazırlıqlar mərhələsindədir. Ümid Partiyası sədrinin təşkilatı məsələlər üzrə müavini Bakir Həsənbəyli seçkilərə hazırlığın vəziyyəti ilə bağlı mətbuat xidmətinə danışıb:**



"Partiya olaraq məqsədimizə addım - addım yaxınlaşırıq. Biri var, məqsəd müəyyən edilə və heç nə etmədən tarixi situasiyanı gözləyəsən, biri də var təşkilat və komanda olaraq həmin istiqamətdə fəaliyyət göstərəsən. Bunlar tamamilə biri - birindən fərqli məsələlərdir. Biz Azərbaycan cəmiyyəti üçün xarakterik olmayan bir neçə müsbət ilkə imza atmış siyasi təşkilatıq. Ümid Partiyası ölkə siyasətində öz yeri, öz sözü, özünəməxsus siyasi xətti, dinamikliyi olan bir partiyadır. Azərbaycanda demək olar ki, həm mərkəzi aparatında, həm də yerli təşkilatlarında strukturları olan iki-üç siyasi partiyadan biriyik. Biz mövcud iqtidarın müxalif düşərgəyə münasibətini bildiyimiz üçün çalışırıq ki, hər kəs üçün müəyyən edilmiş meydanda deyil, məhz özümüzün müəyyən etdiyimiz meydanda fəaliyyətimizi göstərək. Etiraf edim ki, buna nail də oluruq. Məsələn, biz ötən yay olduğu kimi, bu yayda da regional müşavirələr keçirir, üzvlərimizlə, təəssübkeşlərimizlə davamlı görüşürük və bu ənənə davam edir. Təvazökarlıqdan uzaq da olsa Ümid Partiyası bu il keçirilməsi nəzərdə tutulan bələdiyyə seçkilərinə əksər partiyalardan, hətta hakim partiyadan da fərqli olaraq namizədlərin ilkin siyahısını müəyyən edib. Düzdür, proses hələ başa çatmayıb. Amma ilkin siyahımızda kifayət qədər böyük hesab olunacaq rəqəm var. Hər kəslə, bütün namizədlərlə fərdi görüşməyi düşünürük. Biz bilirik ki, Azərbaycanda bələdiyyələrin statusu kifayət qədər aşağıdır. Bu qurum yerli icra hakimiyyətlərinin yan qurumu statusunda fəaliyyət göstərir. Bu ona əsas vermir axı insanlarımıza, "siz heç bir statusu olmayan bir strukturun seçkisinə qoşulmayın" deyək. Əksinə, biz bütün iddialı namizədlərimizə bu qurumun statusunu məhz ona üzv seçildikdən sonra qaldırılması ilə bağlı hüquqi işləmlərə başlamağın vacibliyini aşılayırıq. Əsas insanlarımızı prosesə hazırlamaqdır. Və biz bunu edirik. Mən təşkilat məsələləri üzrə sədr müavini təyin olunandan sonra verdiyim ilk müsahibəmdə də söyləmişdim - Ümid partiyası ənənəvi təşkilatçılıqdan imtina etməyin konturlarını hazırlayır. Rayon təşkilatlarımızı müəyyən kateqoriyalar üzrə kodlaşdırırıq. Bütün ölkə üzrə üzvlərimizin yenidən siyahıya alınması prosesinə start vermişik. Artıq növbəti ayda bu prosesdə yekunlaşacaq. Biz Azərbaycansayağ yuxarıdan tapşırıq prinsipləri ilə işin effektiv olmadığını artıq özümüz üçün müəyyənləşdirmişik. Elə ona görə də yerli strukturlarımızın tam işlək vəziyyətə gətirilməsi üçün prosesə rayon təşkilat sədrlərini, aktivləri cəlb etmişik. Artıq görüləcək işlərlə bağlı təkliflər yerlərdən olacaq. Yəni şəxs özü daha yaxşı bilir ki, nəyi bacarır, nəyi bacarmır. Onu da qeyd edim ki, bu məsələlər hər bir rayon üçün xarakterik olaraq hazırlanır. Yəni ölkənin şimalı ilə cənubundakı siyasi panorama eyni olmaya bilər. Bizim siyasi rəhbər olaraq əsas işimiz görüləcək işləri koordinasiya etməklə paralel, eyni zamanda ölkənin hər bir regionunda icraya yönəli məsəlinin sonuc olaraq məhz partiyanın aktivinə yazılmasını təmin etməkdir. Partiya olaraq regional liderin müəyyən edilməsi istiqamətində də fəaliyyətə start vermişik. Bu prosesi uğurla başa çatdıracağımız təqdirdə, həm bu il keçirilməsi nəzərdə tutulan bələdiyyə, həm də növbəti il keçiriləcək parlament seçkilərində hər bir namizədin komandası prinsipinə nail olacağıq. Bilirsiniz ki, hakim partiya bu prosesi inzibati metodlarla həyata keçirir. Digər müxalifət təşkilatlarında isə nəinki bələdiyyəyə namizədin, hətta parlament seçkiləri zamanı namizədliyi irəli sürülmüş şəxsin komandasının müəyyən edilməsi prosesində də problemlər yaşayırlar. Çünki işləmlərə məhz prosesə rəsmi start verildikdən sonra başlayırlar. Ümid Partiyasında isə alt yapı aylar öncədən hazırlanır".

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**

YENİ MÜSAVAT
N 171 (5880) 5 iyul 2014



# Heç nə itmir

Zamin HACI
zaminhaci@mail.ru

**BP şirkəti keçən il Azərbaycanda nə qədər neft çıxarılması haqda rəqəmi açıqlayıb, "Turan" agentliyinin məlumatına görə, bu rəqəm ARDNŞ-in açıqladığından ciddi fərqlənirmiş. Ortada hardasa 3 milyon tona yaxın neftin söhbəti var. BP deyir neft istehsalınız 46,2 milyon ton olub, Rövnəq əkə deyir yox əşşi, cəmi-cümü 43,5 milyon ton çıxartmışıq.**

İndi hamı təəccüb eləyir ki, belə fərqlər necə yaranır. Şirkətdən soruşublar, onlar da çiyinlərini çəkiblər, barmaqları ilə yuxarını göstəriblər. "Bizdən yuxarıda oturanlar sümürüb" mənasında yox, "Allah bilir" mənasında. Sirlər dünyasında yaşayırıq axı. Bəlkə də pirə gedib nəzir vermək lazımdır, o zaman itən neft tapılacaqdır. Rəsədxana Pirqulu, ağsaqqal pirani, rayon Pirallahı, məscid Təzəpir adlanan, hər kəsin gözüylə gördüyünə deyil, görmədiyinə pərəstiş elədiyi *(dəli şeytan deyir bu sözün də kökü "pirəstiş" olmuşdur)*, nağıllara inandığı yerdə əlac pirə qalıb.

Ancaq biz təxmin edirik o 3 milyon ton neft haralarda gizlənmişdir. *(Neft, ümumiyyətlə, gizlənmək xassəsi olan maddədir).* Misal üçün, bir də görürsən hansısa dəyərli ziyalımız böyrünü qəfil qoydu yerə, daha bunu kəndçi-kündçünün uzandığı, mal-qara iyi verən dövlət xəstəxanasına apara bilmərik ki? Ziyalı ziyalı, işıqlı xəstəxanada müalicə almalıdır, bu zaman işə cənab prezident qarışır, adamın müalicə xərclərini üzərinə götürür, xalqımız da minnətdarlıq edir, deyirlər nə yaxşı oldu, ziyalı sağ qaldı, yenə bizim üçün çoxlu şeir və poemalar qayıracaqdır.

Yaxud uzaq Pakistan dərələrində məktəb tikməkdən tutmuş Meksikada heykəl qoymağa, Gədəbəydə Aşıq Universiteti yaratmaqdan AYB-yə restoran açmağa qədər min cür işlərə də pul ayrılır, adətən bu işlərin maliyyəsi "Heydər Əliyev Fondu", "Prezidentin ehtiyat fondu", "İlyas Əfəndiyev Fondu", "Pirquluya dövlət dəstəyi fondu" və sairə bu tipli əsrar dolu fondlardan ayrılır. Əsrar dolu ona görə yazıram ki, həmin qurumlara pulun hardan girdiyi, hardan çıxdığı hələ heç bir bəni-adəmə məlum olmayıbdır, maraqlanan bir neçə nəfərin isə ağzı əyilib, toyu vaya dönüb, qürbətə gedəni gəlməmişdir. İndi mən ehtimal edirəm ki, itmiş 3 milyon ton neft məhz bu sahələrdə, fondlarda cəm olubdur.

Molla Nəsrəddinin bu mövzuda yaxşı lətifəsi də var. Qonşudan qazan alır, sonra qaytaranda içində balaca qazança verir, deyir qazanınız balalayıb. Növbəti dəfə qazanı alanda isə geri qaytarmır, qonşuya deyir qazanınız öldü. Qonşu deyir qazan ölərmi, Molla deyir: "Bəs sən qazan doğanda nə cür inanmışdın? Doğulan bir gün ölər də!"

Sözümün canı odur ki, ey uca millətim, əgər bir pulu alıb, basıb yeyəndə bunun mənbəyi ilə maraqlanmırsınızsa, o zaman neft pullarını da soruşmaq məntiqli deyil. Zəhmətsiz gəlirlə yaşayan xalq üçün nə fərqi var, 2 milyon hara getdi, 3 milyon hardan gəldi? Önəmi yoxdur. *(Açığı, "Turan" Agentliyindən başqa, deyəsən, bunu heç soruşan da olmayıb, bayaq səhvən "hamı soruşur" yazdım. Bunlar da yəqin xarici agentlərdir - adları üstündə. Qara qüvvələr, inkişafımızı görmək istəməyən ünsürlər).*

Təbiətdə enerjinin, maddənin itməməsi haqda qanunlar var. Bir yerdən kəsilirsə, o biri yerdə artır. Bizdən oğurlananlar, başqasını varlandırır. Qəm yeməyə, vurnuxmağa, sorğu-sual etməyə ehtiyac yoxdur. Yazını Şəkidən gələn həyəcanlı bir məktubla bitirirəm. Bakıxan Qəribli adlı rayon sakini yazır: "Şəkinin Köbər Zəyzid, Fazil, Aşağı Küngüt, Çapağan, İbrahimkənd, Aydınbulaq, Əliyar, Aşağı Daşağıl, Aşağı Kəldək kəndləri bu günə qədər görünməmiş su qıtlığı ilə üz-üzədir. Bu ərazidə mal-qara içməyə su tapmır. Bu il taxılçılıqda məhsuldarlıq 1 hektardan 0,2 sentner olub. Qış üçün ot tədarükü yoxdur. Bütün bunlara səbəb Oğuz-Qəbələ-Bakı su kəməridir".

Bu da Şəkidə yoxa çıxan, kəm gələn su haqda hesabatdır. Su Bakıya gedib, Şəkidə deyirlər yoxdur.

# "Qarabağın statusunda yaxın illərdə heç bir dəyişiklik olmayacaq"

## İqbal Ağazadə: "10 il, 11 il bundan önçəki siyasi institutların vəziyyəti ilə 2014-cü ilin siyasi institutları arasında ciddi geriləmə var"



**İyulun 3-də Ümid Partiyasının sədri İqbal Ağazadə "Yeni Müsavat" qəzetinin qonağı olub. Həm Azərbaycan gündəmi, həm regiondakı proseslər, həm də dünyanın bugünkü siyasi xəritəsi ilə bağlı geniş söhbət Ümid sədrinin "müdhiş türk" adlandırılan Əlirza Bozqurdla görüşünün detalları haqqında suallarla başlayıb. Müsahibənin ikinci hissəsini təqdim edirik.**

(əvvəli ötən sayımızda)

***- Qərb Azərbaycandan nə istəyir və sizin düşüncənizə görə Azərbaycan iqtidarı Qərbin tələbləri qarşısında nələrə gedə bilər?***

- Azərbaycan hökuməti maksimum dərəcədə belə bir vəziyyət yaratmaq istəyir ki, ortada siyasi qüvvə, ictimai institutlar olduqca az olsun. Beynəlxalq aləmə göstərə bilsin ki, proseslər olduqca zəif gedir, bu institutlara şərait yaradılsa da onların gücü yoxdur. Diqqət etsək görəcəyik ki, 10 il, 11 il bundan öncəki siyasi institutların vəziyyəti ilə 2014-cü ilin siyasi institutları arasında ciddi geriləmə var. Bunlar faktlardır. O geriləməni də təqdim edən hakimiyyət Azərbaycan müxalifəti bu qədər gücə malikdir deyib nümunə göstərmək istəyir. Qeyri-hökumət təşkilatlarına münasibətdə vətəndaş cəmiyyətinin formalaşması istiqamətində, onunla çalışmayan və hakimiyyətin müəyyən etdiyi ümumi standartlardan kənara çıxmaları qəbul etmək istəmir. O istəyir ki, bu standartların diktəsini daha çox artırsın. Diktəni Qərb institutları yox, özü etsin. Bütün çalışmalar buna yönəlikdir. Qərb də daha çox çalışır ki, siyasi institutlar və qeyri-hökumət təşkilatları bu istiqamətdə fəaliyyət göstərsin. Ancaq Qərbin bu məsələdə uzun müddətli bir yanlışlığı oldu və Azərbaycan hakimiyyəti həmin yanlışlıqdan ciddi yararlandı. Qərb siyasi institutların üzərindən keçib vətəndaş cəmiyyəti üzərində işləməyə başladı. Vətəndaş cəmiyyətinin nümayəndələrinə siyasi institutların görə biləcəyi işlərin monitorinqini həvalə etdi. Gərək bir təşkilat mövcudluğunu qoruya, fəaliyyət göstərə bilsin ki, digər bir təşkilat onun monitorinqini aparsın. İndi-indi Qərb institutları anlayır ki, daha çox ölkəni ayaqda saxlayan çox kiçicik qruplara malik ayrı-ayrı kiçik qeyri-hökumət təşkilatları deyil, siyasi institutlardır və buna görə də siyasi institutlara diqqət ayırmaq lazımdır. Hesab edirəm ki, 2014-2015-ci illər Qərb institutlarının, Qərb dairələrinin Azərbaycandakı siyasi institutlara diqqət ayırdığı və ayaqda durması üçün çalışdığı bir mərhələ olacaq. Biz bunu 2015-ci ilin parlament seçkilərində nəticə olaraq görəcəyik.

***- 2014-cü il bələdiyyə seçkisində nə görəcəyik?***

- Təəssüf ki, bələdiyyə seçkilərində hakimiyyət istədiyi mühiti yaradıb. Azərbaycan müxalifəti bələdiyyə seçkisi prosesinə qatılmaq istəmir.

***- Siz qatılacaqsınız?***

- Qatılacağıq. Hakimiyyət bələdiyyələrin statusunu elə bir həddə çatdırıb ki, orada işləmək istəyən yoxdur. Bələdiyyənin faktiki statusu yoxdur. İnsanlar düşünür ki, faktiki statusu olmayan bir quruma seçkidə iştirak etməyin mənası nədir? Hətta qalib gəlsələr belə, bu, insanlara heç nə vermir. Bələdiyyənin bircə qəbiristanlıq yeri vermək ixtiyarı var. Bu qurumun faktiki olaraq başqa heç bir səlahiyyəti yoxdur. Yerli idarəetmə ilə bağlı bütün səlahiyyətlər icra hakimiyyətindədir. Bu birinci səbəbdir. Daha bir vacib səbəb var. Hakimiyyət bələdiyyələrin sayını süni surətdə azaltdı, birləşdirmə mexanizmi həyata keçirdi. Bələdiyyə özünüidarəetmə orqanıdır. Bəzən 6-7, bəzən də 10 kəndi bir bələdiyyədə birləşdirirlər. Bir kəndin 800 seçicisi var, o biri kəndin 1500 seçicisi var, bir kəndin 4000 seçicisi var. 1500 və 800 seçicisi olan kəndlər toplaşsa belə, özünə bələdiyyə seçə bilməyəcək, üstünlük 4000 seçicisi olan kənddə olacaq. Yəni azad, sərbəst seçki keçirilsə, belə mənzərə ortaya çıxar. Bu özünüidarə deyil. Türkiyədə bu institutu çox inkişaf etdiriblər. Seçicilərinin sayı 150-yə çatan məhəllələrdə belə muxtarlar seçilir. Azərbaycanda bunu da azaltdılar. Ona görə də bir zamanlar bələdiyyə seçkilərində 30-35 min namizəd iştirak edirdi, indi bu say 16 minə düşüb. Birdən-birə bu say yarıbayarı azaldı. Çünki siyasi institut bu prosesdə iştirak etsə, bələdiyyələrin statusu olsa, 35 min namizədin hər birinin prosesə 100 nəfər qatması 60 faiz seçicinin seçki prosesində iştirakı deməkdir. Hakimiyyət bu fəallığın qarşısını almaq üçün bələdiyyələrin statusunu yox həddində saxlayır.



***- Cəmiyyətdə önəmi, xüsusi çəkisi olmayan bələdiyyələrə seçki prosesinin qarşısını alan hakimiyyət 2015-ci il parlament seçkilərində açılım edəcək?***

- Açılımı hakimiyyət etməyəcək. Bu prosesi Azərbaycanın daxilində siyasi institutların vəziyyətinin yüksəlməsini istəyən Qərb institutları həyata keçirəcək. Hakimiyyət buna getməyə məhkumdur. Çünki hakimiyyət nə qədər çalışsa da onu Avropa coğrafiyasından kənara buraxmadılar.

***- Cızdığınız bu rəsmdə Qarabağın yeri haradadır?***

- İşğal altındakı Qarabağın statusunda yaxın illərdə heç bir dəyişiklik olmayacaq. Bu mümkün deyil. Bütün hesablamalar bunu göstərir.

***- "Yaxın illər" deyəndə neçə ili nəzərdə tutursunuz?***

- Ən azı yaxın 5 ildə heç bir dəyişiklik gözləmirəm. Mümkün deyil. Çünki bu gün israrla Avropanın demokratik institutları Ermənistan-Azərbaycan cəbhəsində vəziyyətin dəyişməsinə yox, vəziyyətin dəyişməməsinə, yəni atəşkəs rejiminin saxlanılmasına çalışır.

***- Atəşkəs rejimi qala-qala Ermənistanı bir neçə Azərbaycan rayonunu boşaltmağa vadar etmək olmazmı?***

- Mümkün deyil. Çünki Ermənistan bu məsələdə tək deyil. Onun arxasında güclü Rusiya var. Rusiya regiondan çıxmayana qədər, Rusiya regionda təklənməyənə qədər bu proses gerçəkləşməyəcək. Vaxtilə bizim Türkiyə-Ermənistan sərhədinin açılması məsələsini qoymaqda məqsədimiz Rusiyanın regionda dominantlıq etməsini istəməməyimiz idi. Bu gün faktiki olaraq Güney Qafqazın dominantı Rusiyadır. Bütün münasibətlər üzrə belədir. Azərbaycan Rusiyadan qorxur, Gürcüstana istədiyi vaxt girə bilir, Ermənistanda isə təkhakimiyyətlilikdir. Amma qapılar açılsaydı, Türkiyə də bu regiona girsəydi, durum fərqli olacaqdı. Artıq Türkiyə vasitəsilə Rusiya yavaş-yavaş regiondan sıxışdırılacaqdı. Üstəlik, Türkiyənin regional əhəmiyyəti artacaqdı.

***- Yəni deyirsiz ki, kaş ki açılaydı.***

- Əlbəttə ki...

***- Ancaq sizin bu yanaşmanız populyar deyil.***

- Ola bilər ki, seçici bir aspektdən düşünsün. Azərbaycan hakimiyyətinin bir qolu Ermənistan-Türkiyə sərhədlərinin açılmasına qarşı təbliğat aparır, iqtidar deyir ki, biz Ermənistanı çökdürmüşük, sərhədlər açılacaqsa Ermənistan iqtisadi cəhətdən diriləcək. Seçici bu təbliğatdan etkilənir, təbii. Ancaq biz düşünürük ki, itirdiklərimizi yalnız düşmənçilik əhval-ruhiyyəsi ilə qazana bilmərik. Yalnız düşmənçiliklə nələrsə əldə etmək mümkün olsaydı, Avropa Birliyi qurulmazdı, Rusiya-Almaniya münasibətləri bugünkü səviyyəyə gəlib çatmazdı. Biz ermənilərlə dost olmağa məhkum deyilik, ancaq qonşu olmağa məhkumuq. Bu məhkumluğu da doğru-dürüst müəyyən etməliyik. Millətin çıxarı harada ola bilər, xalqın, dövlətin maraqları necə təmin oluna bilər. Biz düşünməliyik ki, harada itirmişik və bu yoldan necə geri qayıda bilərik? Bizim həm Ermənistan, həm də Gürcüstan qarşısında demoqrafik, iqtisadi üstünlüklərimiz göz önündədir. Azərbaycanın ehtiyat fondu yox, illik büdcəsi Ermənistan və Gürcüstanın dövlət büdcəsi və ehtiyat fondundan 2-3 dəfə çoxdur. Biz bu üstünlükləri istifadə edib Güney Qafqazın gerçək liderinə çevrilmək əvəzinə soyuq savaş dönəmindəki silahlanma taktikasına üstünlük veririk. Bu yanaşmalar doğru deyil.

### "2014-2015-ci illər Qərb dairələrinin Azərbaycandakı siyasi institutlara diqqət ayırdığı və ayaqda durması üçün çalışdığı bir mərhələ olacaq"

***- İqbal bəy, son zamanlar Azərbaycanda baş verən bir neçə hadisəyə də münasibət bildirməyinizi istəyirik. Bunlardan birincisi türk liseylərinin bağlanmasıdır. Niyə 21 ildən sonra Azərbaycan bu məktəbləri bağladı?***

- Adının nə olmağından asılı olmayaraq hər hansı məktəbin bağlanmasının əleyhinəyəm. Azərbaycanda belə anormal hadisələr olur. Məsələn, Beynəlxalq Universitetin təcrübəsi. Bir gün məlum olur ki, sən demə, Beynəlxalq Universitetdə oxuyanlar qanunsuz qəbul olunub, başqa institutlara köçürmələr qanunsuzdur, onlara diplom verilməyəcək. Nəyə görəsə, bütün bunlarım hamısı bircə gündə məlum olur. Bu təbii, inandırıcı deyil. İndi də bir gün bəlli olub ki, Azərbaycana türk liseyləri gərək deyil. Halbuki o məktəblər çox savadlı uşaqlar yetişdirirdi, onlar dünyanın nüfuzlu ali məktəblərinə çox asanlıqla qəbul olunurdular. Mən heç bir məktəbin bağlanmasının tərəfdarı deyiləm. Məktəb bağlamaq olmaz. Əgər məktəbdə problem varsa, o problem aradan qaldırılmalıdır. Özü də cəmiyyətlə bu mövzuda açıq danışmaq lazımdır.

***- Bu məsələni Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğanın adına bağlayırlar.***

- Mən bu haqda bir şey deyə bilərəm. Varsa, var, yoxdursa, yoxdur. Mən o danışıqlarda iştirak etməmişəm, belə bir danışıqların olduğunu da bilmirəm. Fərziyyə ilə nəsə demək istəməzdim. Bəlkə başqa bir şeylər var?

***- Amma bu proses Türkiyədə Gülən məktəblərinin bağlanması ilə eyni vaxta düşdü.***

- Türkiyədə nə qədər bağlanmayan "camaat" məktəbləri var. Gülənin kurslarını dayandırdılar, ancaq məktəblərini bağlaya bilməyiblər. Ərdoğan o məktəbləri bağlaya bilməyib, sadəcə, vətəndaşlara çağırış etdi ki, övladlarınızı Gülən məktəblərinə qoymayın.

***- Digər bir məsələ jurnalist Fərahim İlqaroğlunun döyülməsi və bu açıq faktın, videolu cinayət işinin sona çatmamasıdır. İstintaq susur, biz hər gün yazırıq, piketə hazırlaşırıq, Bakı meriyası bizə cavab yazır. Bütün bunlar bütün ölkənin gözü qabağında baş versə də, reaksiya yoxdur. Bunca açıq bir cinayət işini yekunlaşdırmaq üçün bir partiya sədri, millət vəkili olaraq nə təklif edirsiz?***

- Məncə, bu məsələ ilə bağlı xüsusi bir qrup yaratmaq lazımdır. Bu qrup həm istintaq orqanları ilə görüşüb istintaqı nəzarətdə saxlamalıdır, həm dövlət başçısına və səlahiyyətli qurumlara müraciət etməlidir, həm də prosesin iştirakçısı olduğu ehtimal olunan tərəflərlə danışıqlar aparmalıdır. Bu, ictimai nəzarətin olduğunu diqqətə çatdırmaq üçün son dərəcə vacibdir. Bu yalnız Rauf Arifoğlunun, "Yeni Müsavat" qəzetinin problemi deyil.

***- Ancaq elə çıxır.***

- Bəli. Çünki problemə yanaşmalar xeyli dərəcədə qüsurludur. Hətta sizin müdafiə taktikanız da. Siz fədakarcasına əməkdaşınızla bağlı bütün məsələni üzərinizə götürürsünüz. Ancaq bu məsələyə cəmiyyətin təpkisi daha çox olmalıdır.

***- Cəmiyyətə müraciət etmişik, cəmiyyət bizi dəstəkləmir.***

- Biz sizə dəstək veririk. Hər zaman yanınızda olmağa hazırıq. Cəmiyyət nə qədər "Yeni Müsavat" qəzetindən faydalanırsa, bir o qədər də qəzetə dəstək verməlidir. Bu mərhələyə qədər istintaqda nə olduğunu, hansı proseslər getdiyini bilmirəm, ancaq hesab edirəm ki, bundan sonrakı mərhələdə ən doğru variant budur.

***- İŞİD terror təşkilatının İraqın müəyyən bir hissəsini nəzarətə götürməklə Azərbaycanda yaranan atmosfer haqqında nə düşünürsüz? İddialar var ki, İŞİD Azərbaycana da müdaxilə edə bilər. Çünki İŞİD-in sıralarında xeyli azərbaycanlı döyüşür. Bu iddiaların onlarla videosübutları da var. Bunu önləmək üçün siz nələr təklif edirsiz? İŞİD 2014-cü ildə ortaya çıxsa da 1986-cı ildən yol gəlir. Onların lider hesab etdikləri Zərqavi İordaniya vətəndaşı olan sələfidir. O, sovet qoşunları Əfqanıstanda "Camaat-əl Tövhid" və "əl-Cihad" təşkilatını yaratmışdı. Onu 2006-cı ildə öldürdülər. İŞİD-in kökündə bu təşkilatdırmı?***

- Bəli. İŞİD məhz oradan başlayıb. Əfqanıstanda sovet qoşunlarına qarşı idi, ancaq sovet qoşunları çıxandan sonra ABŞ qoşunlarına qarşı cihad elan etdilər. Onlar «əl-Qaidə» terror təşkilatı ilə bir yerdə idilər. Onlar 2004-cü ildə «əl-Qaidə»nin İraq qolu elan edilmişdilər. Sonra onlar İraq qolu olmaqdan imtina etdilər. Suriyada proseslər başlayanda isə onlar Bəşər Əsəd rejiminə qarşı sələfilər olaraq açıq döyüşə başladılar.

***- Bu məsələ ilə bağlı daha bir iddia var - guya İŞİD-ə Türkiyə dəstək verir. Bu ehtimala münasibətiniz necədir?***

- Hatayın Reyhanlı kəndindəki 52 nəfərin ölümü, 100-dən artıq insanın yaralanması ilə bağlı terror olayını bu qüvvə öz üzərinə götürmüşdü. O zaman adları İŞİD deyildi, ancaq söhbət eyni qüvvədən gedir. Sonra onlar Suriyada əl-Nüsra cəbhəsi ilə birləşib Bəşər Əsəd rejiminə qarşı döyüşdülər. Ardınca da bu coğrafiyada sələfi dövlətinin qurulması ideyasını ortaya atdılar. Dediyim odur ki, İŞİD bu günün məsələsi deyil. Bu gün İŞİD-di, ancaq burada "əl-Qaidə", "Hizbullah", "Ceyşullah", "Həməs" kimi terror təşkilatlarının təmsilçiləri var.

***- Necə etmək olar ki, bu radikal dini təmayüllər Azərbaycana sıçramasın? Əgər sıçrayarsa, Azərbaycanda onların inkişafı üçün mühit varmı?***

- Bu gün İslam dünyasında nə qədər təşkilat var, hamısının Azərbaycanda bölmələri var.

***- Onları ölkəyə kim buraxır?***

- Çox təəssüf, XXI əsrdə İslamın təşkilat olduğu bir mərhələyə gəlmişik. Bu gün İslamı din anlayışından çıxarıb təşkilat anlayışına gətirib çıxarıblar. Bu gün İslam dünyasında döyüşənlərin hansı cəbhədə olmasından asılı olmayaraq bir təşkilatı var. Mən bir dəfə də demişdim, mənim üçün İslam inamdı, imandı, Allaha bağlılıqdı. Onun başında şeyxi, əmiri, axundu, mollası olanda o, təşkilata çevrilir və oradakı insanlarda dini qaydaları ilə yox, təşkilatın maraqları ilə çıxış edir. Bu gün həmin təşkilat maraqları Yaxın Şərqdə daha çox pul qazanmağa, daha geniş səlahiyyətlər əldə etməyə yönələn mübarizə metodudur. Yerlərdə, bölgələrdə hətta İslamı qəbul etmiş insanlar arasında tərəfdarlar tapırlar. Suriyadakı 5000 minlik sonradan İŞİD-ə çevriləcək ordusunun 80 faizi əcnəbi vətəndaşlar idi. Onlardan cəmi 1000 nəfəri Suriyadan idi, qalanları ən müxtəlif ölkələrdən gəlmişdilər. Bu gün də elədir. İŞİD-in tərkibində dünyanın əksər müsəlman ölkələrinin təmsilçiləri var.

***- Sizcə, Azərbaycan hökuməti öz vətəndaşlarının gedib böyük bir coğrafiyada amansız qətllərə, dağılmalara səbəb olan terrorçu təşkilata qoşulmasına niyə göz yumur?***

(ardı gələn sayımızda)

❑ Qələmə aldı Aygün MURADXANLI

### "Bu gün İslam dünyasında nə qədər təşkilat var hamısının Azərbaycanda bölmələri var"



### "Hakimiyyət bələdiyyələrin statusunu elə bir həddə çatdırıb ki, orada işləmək istəyən yoxdur"

# Bakıdan qovulan Qərb təşkilatları

Azər RƏŞİDOĞLU



**Qərb təşkilatları tədricən Azərbaycandan gedir. Bugünlərdə ABŞ-ın Milli Demokratiya İnstitutunun (MDİ) Azərbaycan ofisinin bağlanması prosesi də başa çatdı. MDİ demokratiya üçün bu dərəcədə vacib bir məqamda ölkəni tərk etməli oldu.**

Xatırladaq ki, MDİ Azərbaycana 1995-ci ildə, eks - prezident Heydər Əliyevin dəvəti ilə gəlmişdi. Bu amil də heç nəyi dəyişmədi. Ümumiyyətlə, 1995-ci ildən bu yana ölkədə mənfiyə doğru çox nəsnə dəyişib.

«Freedom House», «Amnesty İnternational» kimi nüfuzlu beynəlxalq qurumların artıq Bakıda ofisləri yoxdur. Beynəlxalq Respublikaçılar İnstitutu, İFES də artıq Azərbaycanda fəaliyyətini dayandırıb. Norveç İnsan Hüquqları Evinın Bakı ofisi də bağlanıb.

İndi çox şey dəyişib. "Azadlıq", BBC, "Amerikanın səsi" radiostansiyaları FM dalğasından qovulub.

Nüfuzlu beynəlxalq təşkilatların Azərbaycandan gedişi daha qorxulu bir tendensiyanın xəbərçisidir.

Azərbaycana gəlmək istəyən bəzi digər qurumlar artıq bu barədə düşünmək belə istəmirlər.

Onlara Azərbaycanda yer yoxdur. Demokratiya və insan haqları ilə bağlı istənilən qurum Azərbaycanda "qara siyahı"ya düşmək təhlükəsi ilə üz-üzədir.

Qərb təşkilatlarına edilən təzyiqlərin başqa bir məqsədi mövcuddur. Unutmaq olmaz ki, Azərbaycanda Qərbə yaxınlığı ilə seçilən istənilən şəxs də təzyiqlərə məruz qalır. Görünən budur ki, hədəfdə olan Qərb dəyərləridir. Təzyiqə məruz qalan təşkilatın demokratiya tələblərində nə qədər yer almasının da elə də böyük önəmi yoxdur.

Məsələn, Milli Demokratiya İnstitutunun Azərbaycandakı əksər tərəfdaşları hakimiyyətə yaxın qurumlar idi. Bir sözlə, MDİ iqtidarın maraqlarına xidmət edən bir qurum idi və onun Azərbaycanda "rəngli inqilablar"a dəstək verməkdə, onun təşkilatçılarına maliyyə dəstəyi verməkdə ittiham olunması absurddur.

Vurğulayaq ki, Qərb heç zaman Azərbaycan QHT-lərinə xüsusi rəğbətlə yanaşmayıb. Maliyyələşdirilən layihələrlə isə hansısa böyük uğurlara imza atmaq mümkün olmayıb. Sadəcə olaraq, vətəndaş cəmiyyəti institutlarının mövcudluğunu qorumaq kursu götürülüb. Qərb donorları birmənalı şəkildə yalnız hakimiyyətə bağlı təşkilatlarla əməkdaşlıq ediblər. Bir qayda olaraq qrantlar o simaların təşkilatlarına verilib ki, onlar hakimiyyətin müxalifət və ya ictimai sektora "ezamiyyətə" göndərdiyi şəxslərdir.

Deyilənlərdən çıxan nəticə odur ki, Qərb qurumlarının rəsmi Bakı tərəfindən vurulması daha çox geosiyasi məsələlərlə bağlıdır.

Qərb təsisatlarına olan hücumlar istər-istəməz ABŞ -Azərbaycan münasibətlərinə də öz mənfi təsirini göstərəcək.

Bir məqama da diqqət yetirmək lazım gəlir. Son zamanlar hamını bir sual düşündürürdü. Rəsmi Bakı strateji tərəfdaş kimi hansı ölkəni seçəcək?

Görünən budur ki, hakimiyyət ABŞ ilə açıq qarşıdurmaya gedir.

Maraqlıdır ki, Qərb fondlarına bu qədər nifrət püskürən rəsmi Bakı Rusiya qarşısında acizlik nümayiş etdirir. Hər halda, Rusiyadan gələn təhdidlər Qərbin təzyiqləri ilə müqayisədə daha böyükdür.

Bakı sistemli şəkildə Kremlin maraqlarına xidmət edən kimi görünür və Qərblə arasındakı gərginliyi daha da dərinləşdirir.

Kənar baxışla görünən budur ki, qarşıdan gələn parlament seçkilərinə qədər Azərbaycan hakimiyyəti beynəlxalq qurumların təzyiqlərini neytrallaşdırmaq istəyir.

Belə ehtimallar da mövcuddur ki, seçki ərəfəsində Qərbin Azərbaycan hakimiyyətinə təzyiqləri artacaq. Beynəlxalq təşkilatları ölkədən qovmaqla rəsmi Bakı bir növ qabaqlayıcı addımlar atmaqdadır. Lakin bütün bunlar əks-effekt yarada bilər.

Qərb Azərbaycanda 2015-ci ildə keçiriləcək parlament seçkilərinə xüsusi önəm verir. Bu seçkilər demokratiyanın gələcəyi baxımından olduqca önəmlidir. Odur ki, proporsional seçki sisteminin bərpası və seçkilər zamanı saxtakarlığın qarşısının alınmasına nail olmaq beynəlxalq təşkilatların qarşısında duran əsas hədəflərdən biridir. Bu baxımdan, rəsmi Bakı istər-istəməz beynəlxalq təşkilatlarla əməkdaşlıq etməyə vadar olacaq...

YENİ MÜSAVAT
N 171 (5880) 5 iyul 2014



# Fazil Mustafadan Türkiyənin baş nazirinə sərt ittiham

## “Türk məktəblərinin bağlanması Ərdoğanın Azərbaycana vurduğu ən böyük zərbədir”

**Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən üç “Gülən məktəbi”- Naxçıvan Türk Liseyi, Şərur Türk Liseyi və Ordubad Qız Liseyi fəaliyyətini dayandırıb. Bu barədə virtualaz.org saytı məlumat yayıb. Naxçıvandakı mənbələrimizlə əlaqə saxladıq və məlum oldu ki, xəbər doğrudur.**

Muxtar respublikanın Təhsil Nazirliyindən liseylərə gələn komissiyalar eyni ilə Bakıda və digər rayonlarda olduğu kimi, Naxçıvandakı bu təhsil ocaqlarının da bağlanacağını deyiblər. Liseylərə fəaliyyətlərinə hüquqi müstəvidə də xitam vermək üçün avqust ayının 15-dək vaxt verilib.

Xatırladaq ki, Naxçıvandan başqa Azərbaycan Dövlət Neft Şirkətinin nəzdindəki Beynəlxalq Təhsil Kompleksinin tərkibinə daxil olan və daha çox “Fətullah Gülən məktəbləri” kimi tanınan 11 lisey - Ağdaş liseyi, Bakı liseyi, Dədə Qorqud liseyi, Qafqaz gimnaziyası, Gəncə liseyi, Quba liseyi, Lənkəran liseyi, Mingəçevir liseyi, Sumqayıt liseyi, Şəki liseyi və Şirvan liseyi ötən ay bağlanmışdı.

Naxçıvandakı liseylər isə Beynəlxalq Təhsil Kompleksinin tərkibinə daxil deyildi. Buna görə də onların bağlanmayacağı gözlənilirdi. Lakin Naxçıvan MR Təhsil Nazirliyi və “Zaman öyrətim” təhsil şirkəti nəzdində fəaliyyət göstərən bu üç liseyin də bağlanmasına qərar verilib.

**Əslən Naxçıvandan olan deputat Fazil Mustafa “Yeni Müsavat”a bildirib ki, türk liseylərinin bağlanması siyasi qərardır. Bu qərar təkcə Naxçıvanda yox, bütün Azərbaycanda həyata keçirilir:** “Siyasi qərara uyğun olaraq Bakıda və digər bölgələrdəki liseylər bağlanırsa, Naxçıvandakılar da bağlanmalı idi. Naxçıvanda bilirlər ki, bu məsələ siyasi məsələdir. Bu siyasi qərar, əlbəttə, Naxçıvanda da təhsildə problemlər yaradacaq. Türk liseylərinin bağlanması Rəcəb Tayyib Ərdoğanın Azərbaycana vurduğu ən böyük zərbədir. Hətta Ərdoğan Türkiyənin Ermənistanla sərhədini açsaydı belə, Azərbaycana türk liseylərinin bağlanması qədər zərbə olmazdı. Ərdoğan şəxsi kinini, nifrətini türk dünyasının çox vacib bir inteqrasiya sahəsi ola biləcək təhsili bağlamaq və təhsilə zərbə vurmaqla büruzə verdi. Mən təsəvvürümə gətirə bilmirəm ki, məsələn, Putin kiminləsə şəxsi düşmən ola, rus məktəblərini haradasa bağlada. Ərdoğan isə bunu etdi. Əgər kimlərsə qanunazidd hərəkət edibsə, onu qanunauyğun olaraq həbs etmək olar. Cəzanı məktəb bağlamaqla verməzlər. Məktəb bağlamaqdan böyük cinayət yoxdur”.

**Deputatın sözlərinə görə, türk məktəblərinin bağlanması o deməkdir ki, Türkiyə Azərbaycan üçün bir çox bədxahların həmişə dediyi kimi dönər satan, dönər təbliğ edən bir ölkə təsiri bağışlayacaq:** “Bu cür söyləyən bədxahlara cavab olaraq türk məktəblərini göstərirdik. Artıq təhsillə bağlı Azərbaycandan Türkiyə qırıldı. Bir hökumət başçısının başqa bir ölkədə belə bir addım atmasının adı nədir? Bu hadisə böyük bir faciədir. Söhbət ondan getmir ki, bağlanan məktəblərin yeri doldurulmayacaq. Doldurulacaq, amma bina tikəndə də sementi azaldırsan və yerinə qum doldurursan. Amma bununla binanın özülü möhkəm olmur. Yəni qumla dolduracaqlar, sementlə doldurmayacaqlar. Bu baxımdan da türk liseylərinin bağlanması böyük bir tarixi cinayətdir. Türkiyənin əsas dayaqlarının, Türkiyə-Azərbaycan əlaqələrinin sarsılmasına xidmət edən addımdır. Ona görə də Azərbaycanda da bunu göydən düşmə addım kimi qəbul edənlər oldu. Çünki bunun hesabına rus məktəblərinin sayı artacaq, rəqabət mühiti olmayacaq, Türkiyə profilli təhsil anlayışı Azərbaycan cəmiyyətinin gündəmindən çıxacaq. Türkiyə rəhbərliyinin təkidli addımlarından sonra Azərbaycanda türk liseyləri bağlandı. Təəssüf ki, şəxsi hikkənin müəyyən dərəcədə təmin olunması yoluna gedildi”.

F.Mustafa sonda vurğuladı ki, türk məktəblərinin bağlanması Azərbaycan təhsilinə vurulan çox ağır bir zərbədir. Bunun bədəlini biz yaxın gələcəkdə ödəyəcəyik.

❑ **Etibar SEYİDAĞA**



# ADP fəaliyyətini dayandırdı

## Sərdar Cəlaloğlu: “Biz bu hüququ onların əlindən ala, müxtəlif bəhanələr irəli sürə bilmərik”

**Azərbaycan Demokrat Partiyası yay tətilinə çıxıb. Bu haqda ADP İdarə Heyətinin iki gün öncə keçirilən son iclasında qərar verilib. Qərara görə, partiya iyul ayı ərzində fəaliyyət göstərməyəcək, üzvləri və rəhbər heyəti isə istənilən yerə gedə biləcək. Bu barədə partiyanın mətbuat xidmətinin yaydığı xəbərdə deyilir.**



Sərdar Cəlaloğlu

**ADP sədri Sərdar Cəlaloğlu** isə partiyanın bir aylıq tətilə çıxmasını belə əsaslandırıb ki, ADP rəhbərliyində təmsil olunan şəxslərin böyük əksəriyyəti oruc tutub. İnsanlara şərait yaratmaq üçün tətil qərarı verilib. Onun sözlərinə görə, bəzi xəstə şəxslər var ki, onlar oruc tutmayıb və tutmaları da səhhət baxımından doğru deyil: “Ancaq oruc tutmaq məsələsi partiya rəhbərliyinin qərarından asılı deyil. Yəni mən oruc tuturam deyə digərləri də tutmalıdır kimi bir anlayış yoxdur. Düşündük ki, üzvlərimiz orucunu rahat icra etsin, həm də işə gəlib burada nə edəcəklər ki? İyul ayı ölü aydır. Dedik ki, istirahət etsinlər. Bu ay ərzində ADP İdarə Heyətinin iclasları keçirilməyəcək. Əgər ortaya təcili bir hadisə çıxsa, İdarə Heyətinin toplantısını çağıracağıq. Amma belə baxıram ki, bunun üçün əsas olmayacaq. ADP hər il yay mövsümündə bir aylıq tətilə gedir. Ötən il avqust ayında getmişdik. Oruclluq hansı aya düşürsə, biz də tətili həmin aya salırıq. ADP-nin təmsil olunduğu "Qarabağ" bloku da bir aylıq məzuniyyət qərarı verib.

Partiyada insanlar ictimai əsaslarla çalışsa da, onlar da insandır və konstitusiya ilə istirahət hüququ var. Yoxsa biz partiyanın başında dururuq deyə hər şeyi bildiyimiz kimi etmək doğru olmaz. Əmək Məcəlləsi və konstitusiyaya əsasən hər bir vətəndaşın ildə bir dəfə istirahət hüququ var. Biz bu hüququ onların əlindən ala, müxtəlif bəhanələr irəli sürə bilmərik. Odur ki, son 20 ildə biz hər il ildə bir dəfə məzuniyyət veririk, şənbə və bazar günləri işləmirik. Yerdə qalan günlər isə səhər saat 10.00-dan axşam saat 18.00-a qədər işdə oluruq. Digər partiyalarda bu məsələlərin necə olduğu haqda dəqiq informasiyam yoxdur. Mənim təmasda olduğum partiyalarda əslində bu məsələyə ciddi yanaşmırlar. Biz hökuməti nədəsə tənqid etsək də, özümüz adətən o şeylərdə hökumətdən də çox uzağa gedirik. Bu, Azərbaycan müxalifətində bir ənənədir. Hökuməti dialoqa gəlməməkdə ittiham edirik, amma özümüz öz aramızda dialoq aparmırıq".

S.Cəlaloğlu hesab edir ki, hər kəs, hər partiya qanunlara riayət məsələsində öncə özündən başlamalıdır.

❑ **E.SEYİDAĞA**

# İqtidarda MDİ-nin ofisinin bağlanmasını kimlər istəyib?

## Ərəstun Oruclu: “Azərbaycan-Amerika münasibətləri soyuq və kəskin müstəviyə keçib”




**Xəbər verildiyi kimi, ABŞ-ın Milli Demokratiya İnstitutunun (MDİ) Azərbaycan ofisi bağlanıb. Azərbaycanın Ədliyyə Nazirliyi xəbərə münasibət bildirməyib.**

**Qeyd edək ki, MDİ Azərbaycanda “rəngli inqilablar”a dəstək verməkdə ittiham olunurdu. İddialara görə, MDİ Azərbaycanda hakimiyyətə qarşı olan bəzi müxalif dairələrə maddi yardım ayırıb.**

**“Şərq-Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Ərəstun Oruclu** MDİ-nin Azərbaycanda fəaliyyətinin dayandırılmasının ölkəmiz üçün mənfi hadisə olduğunu dedi: “MDİ-nin son illər fəaliyyəti siyasi sferadan tam uzaqlaşmışdır və daha çox maarifləndirmə xarakteri daşıyırdı. Yeri gəlmişkən, onu da xatırladım ki, Milli Demokratiya İnstitutunun əksər partnyorları da yerli təşkilatlar arasında daha çox hakimiyyətə yaxın gənclər təşkilatları idi. Sadəcə olaraq, hakimiyyətdə Milli Demokratiya İnstitutunun bağlanmasında maraqlı qruplaşma var idi. Ona görə yox ki, bu, Milli Demokratiya İnstitutu idi, ona görə ki, bu, Amerika təşkilatıdır. Məhz bu baxımdan MDİ bağlandı. Son nəticədə elə şəraitə gətirib çıxartdılar ki, Milli Demokratiya İnstitutu ofisini bağlamağa qərar verdi. Təbii ki, bu həm də ABŞ-la münasibətlərdən xəbər verir. Nəzərə alsaq ki, MDİ bu gün ABŞ-da hakimiyyətdə olan Demokrat Partiyasına yaxın təşkilatdır. Şübhəsiz ki, bu cür münasibət istər-istəməz ABŞ-Azərbaycan münasibətlərinə də öz təsirini göstərəcək və göstərməkdədir də. Nə olacaq bundan sonra? Bilmirəm. Çətindir söyləmək. Amma hər halda, bugünkü mərhələdə görünən budur ki, Milli Demokratiya İnstitutu Azərbaycanda de-fakto fəaliyyətini dayandırdı. Azərbaycan-Amerika münasibətləri bu dönəmdə yetərincə soyuq və kəskin müstəviyə keçib. Deməli, belə də davam edəcək. Məsələ burasındadır ki, iqtidar dairələrində Azərbaycanla ABŞ arasında münasibətlərin pis olmasında maraqlı olan qüvvələr var. Onlar da daimi bu istiqamətdə fəaliyyət göstərməkdədirlər”.

**Politoloq MDİ-in “rəngli inqilablara”a dəstək verməsi, müxalifət dairələrinə maddi yardım etməsi kimi iddialara sərt cavab verdi:** “Bunların hamısı ağ yalandır. Əgər belə bir fakt var idisə, onda cinayət işi qaldırıb araşdırardılar. Yoxdursa, onda belə boş-boş danışmağın yeri yoxdur. Bu haqda müsahibələrinin birində Novruz Məmmədov müxtəlif fikirlər səsləndirmişdir. O, demişdir ki, "Molotov kokteyli"nin düzəldilməsini maliyyələşdirən amerikalılar olubdur. Bu məsələdə ən azı iki yalan var idi. Birinci yalan ondan ibarətdir ki, orada heç “Molotov kokteyli” olmayıb, sadəcə olaraq, gəncləri şərlədilər. İkinci yalan da odur ki, olmayan “Molotov kokteyli”ni amerikalıların dəstəyi ilə istehsal olunmayıb. Maraqlı burasıdır ki, Rusiya Azərbaycanın ünvanına o qədər təhqirlər etdiyi halda, niyə həmin Novruz Məmmədov bir dəfə də olsun, Rusiyanın ünvanına yumşaq tənqidi fikirlər belə söyləməyib. Niyə? Qorxurlar ruslardan, yoxsa onlarla əməkdaşlıqda maraqlıdırlar? Bax, bu məsələdir. Milli Demokratiya İnstitutunun Azərbaycanda maarifləndirmə işində xeyli müsbət rolu var idi. Amma Azərbaycan hakimiyyəti belə bir fəaliyyətdə maraqlı deyildi".

❑ **Nərgiz YAQUBLU**

YENİ MÜSAVAT
N 171 (5880) 5 iyul 2014

**"Yeni Müsavat"ın əməkdaşı Fərahim İlqaroğlunun işində əhəmiyyətli yeniliklər var. Jurnalisti aprelin 25-də yaşadığı evin qabağında döyən Feyruz Termişinin ailəsi onların evinə üzrxahlığa gəlib. F.İlqaroğlunun verdiyi məlumata görə, Termişinin anası ilə söhbət olub.**



# Fərahim İlqaroğlunun işində şok yeniliklər

## Jurnalisti döyən Feyruz Termişinin ailəsi və Siyəzən məscidinin axundu əməkdaşımızın evinə gələrək övladlarının bağışlanmasını istəyib, "Anası dedi ki, oğlum bu adamların təsiri altında olub, belə iş görüb"; Məmmədovlar üzr istəsə, jurnalist onları bağışlayacaqmı?

"Əvvəlcə Feyruzun anası və xalaları gəlmişdi. Məndən onu bağışlamağı xahiş etdilər. Onlara döyülmə kadrlarını göstərdim və dedim ki, buna baxıb, vicdanlı qərar verin. Onlar bizimlə birlikdə videoya baxdılar. Anası dedi ki, bu kadrları ilk dəfədir görür.

Söylədi ki, Feyruzun məni belə döydüyünü bilmirdi. Rayonda onlara məsələni belə təqdim ediblər ki, guya mən Feyruzu davaya çağırmışam və gəlib, birinci onu vurmuşam. Anasına deyiblər ki, sonra Feyruz qisas almaq məqsədilə dostlarını yığıb gəlib məni evin qabağında döyüb," - deyə jurnalist qeyd etdi.

**Onun sözlərinə görə, F.Termişinin ailəsi videoya baxandan sonra övladlarının günahkar olduğunu etiraf ediblər, ondan üzr istəyiblər:**

"Anası mənə dedi ki, kasıb ailəyik, evdə işləyən tək Feyruzdur. Bakıda olduğu üçün onunla yetərincə maraqlana bilməyiblər. Anasına deyirmiş ki, təhlükəsizlik xidmətində işləyir. Mən də ona Tural Bayramovun şəklini göstərdim. Ancaq onu tanımadı. Dedi ki, oğlu ona məşhur boksçunun yanında işlədiyini söyləyib. Anası dedi ki, ayda 300-350 manat maaş alırdı, arabir də pul mükafatı verirdilər".

**F.İlqaroğlu bildirdi ki, Termişinin ailəsinin ondan bir xahişi olub:**

"Anası mənə dedi ki, rayonda Feyruzu sakit, tərbiyəli adam kimi tanıyıblar, uzun müddət idmanla məşğul olub. Onun bu hərəkəti rayonda hamını şoka salıb, ondan belə iş gözləmirdilər. Söylədi ki, oğlum bu adamların təsiri altında olub, belə iş görüb. Məndən dəfələrlə xahiş etdi ki, əgər sifarişçilər həbs olunsa, oğlumuzu bağışla, ailənin yeganə gəlir gətirən adamıdır, ümidimizi ona bağlamışıq.



Fərahim İlqaroğlu

Mən onların diqqətinə çatdırdım ki, iş gedir, zamanında istintaqa müdaxilələr olub, Feyruzun ifadəsi bir neçə dəfə dəyişdirilib. Əgər dəyişdirilən ifadəsinə etiraz edib, bunu dilə gətirsə və digər şəxslər həbs edilsə, məhkəmədə onun bağışlanması barədə fikirləşəcəyəm. Ancaq hələlik belə bir fikrim yoxdur. Onlar da çıxıb getdilər".

**Jurnalist qeyd etdi ki, Termişinin anası ikinci dəfə Siyəzən rayon məscidinin axundu ilə evlərinə təşrif buyurub:** "Feyruz Siyəzən sakinidir. Anası və axund valideynlərimlə görüşdülər. Axund hadisədən təəssüfləndiyini bildirib. Ailəmə deyiblər ki, Feyruzu bağışlamaqla bağlı məsələni Fərahimin öhdəsinə buraxırıq".

**F.İlqaroğlu Məmmədovlar ondan üzr istəyəcəyi halda hansı addım atacağına da münasibətini bildirdi:** "Bu hadisədən sonra hər hansı təmasımız olmayıb. Onların adı bu hadisədə hallanandan sonra gözləyirdim ki, görüş olacaq. Çünki Elton Məmmədov oğlunun günahkar olmadığını deyirdi. Ancaq sübuta yetirildi ki, sifariş onun oğlu Aynardan gəlib. Amma indiki halda üzr istəsələr nə qərar verəcəyim barədə heç nə fikirləşməmişəm. Nə Məmmədovlar tərəfindən, nə də onlara yaxın ətrafdan mənim səhhətimlə maraqlanıblar".

Qeyd edək ki, F.İlqaroğlu aprelin 25-də yaşadığı binanın qarşısında döyülüb. Onu döyən Feyruz Termişi həbs edilsə də, bu əmri verən kikboksinq üzrə idmançı Tural Bayramov cəmi 20 sutkalıq inzibati həbslə canını qurtarıb.

T.Bayramov istintaqa çağırılmayıb, ifadəsi alınmayıb. T.Bayramovun ifadəsi işin bütün tərəflərinin açılmasına kifayətdir. Çünki bu hadisənin sifarişini deputat Elton Məmmədovun oğlu Aynar Məmmədov-dur.

Müxbirimizin həyatına sui-qəsdi təşkil edən Aynar Məmmədov nəqliyyat naziri olan əmisi Ziya Məmmədov tərəfindən istintaqdan qorunur. Ona görə də "Yeni Müsavat" və musavat.com kollektivi Z.Məmmədovun rəhbəri olduğu Nəqliyyat Nazirliyi yaxınlığında piket keçirməyə qərar verib. Artıq bununla bağlı Bakı Şəhər İcra Hakimiyyətinə müraciət olunub.

Meriya piketə icazə verməyib. Qəzet əsassız cavaba görə mer Hacıbala Abutalıbovu məhkəməyə verməyi planlaşdırır. Eyni zamanda yenidən BŞİH-ə aksiya ilə bağlı müraciət etməyi və gələn həftə etirazlara başlamağı qərarlaşdırıb.

❑ E.SALAMOĞLU

# Ali Məhkəmə Masallı dindarları barədə hökmü qüvvədə saxladı

## Kasasiya şikayəti təmin edilməyən siyasi dustaqlarla bağlı Avropa Məhkəməsinə şikayət ediləcək...

**Həbsdə olan cenub-news.com internet qəzetinin təsisçi-baş redaktoru Araz Quliyev və digər Masallı dindarlarının kasasiya şikayətinə baxılıb. Məhkəmə prosesi Ali Məhkəmədə, hakim İnqilab Nəsirovun sədrliyi ilə keçirilib.**

Məhbus Surac Ağayevin vəkili Nicat İslamov bildirib ki, həm Lənkəran Ağır Cinayətlər Məhkəməsinin çıxardığı hökm, həm də Şirvan Apelyasiya Məhkəməsinin hökmü ləğv edilməli və təqsirləndirilən Surac Ağayev barəsində bəraət hökmü çıxarılmalıdır.

**Daha sonra Araz Quliyevin vəkili Fariz Namazlı** söz alaraq qeyd edib ki, Araz Quliyev və digərləri dindar olduğu üçün yerli icra hakimiyyətinin və hüquq-mühafizə əməkdaşlarının sifarişi əsasında həbs olunub: "Ona verilən ittihamlar əsla həqiqətə uyğun deyil. Araz Quliyev rəhbərlik etdiyi xeber44.com saytında yerli hakimiyyət nümayəndələrini tənqid etdiyi üçün dəfələrlə MTN və polis idarəsinə çağırılıb və həbslərlə hədələnib. Lakin hüquq-mühafizə orqanları Araz Quliyevin susmadığını görüb, onu və ona yaxın qohum və dostlarını həbs edib".




Vəkil Araz Quliyev barədə çıxarılmış hökmün ləğv edilməsi və barəsində bəraət hökmü çıxarılmasını tələb edib. Bundan sonra dövlət ittihamçısı çıxış edərək Lənkəran Ağır Cinayətlər Məhkəməsinin çıxardığı və Şirvan Apelyasiya Məhkəməsinin verdiyi hökmlərin dəyişdirilmədən qüvvədə qalmasını istəyib.

Hakimlər qısa müşavirə edərək Araz Quliyev və digərləri barədə hökmün qüvvədə saxlanması barədə qərarı oxuyublar. Proses bununla da yekunlaşıb. Fariz Namazlı portala bildirib ki, Araz Quliyevin işi ilə bağlı yaxın vaxtlarda Avropa Məhkəməsinə müraciət ediləcək.

Xatırladaq ki, siyasi məhbus sayılan Araz Quliyev və digər 7 nəfər 2012-ci ilin sentyabrında şərlənərək həbsə salınıblar. Onlar Masallıda beynəlxalq folklor festivalı ilə əlaqəli tədbirin pozulmasına cəhd göstərmək, dinc sakinlərə və polis əməkdaşına xəsarət yetirmək ittihamı ilə tutuqlanıblar. Sonradan onlardan bir çoxunun işinə haqsız yerə silah və narkotik ittihamı da əlavə edilib.

Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Araz Quliyev 8, Xalid Kazımov 8, Ziya Tahirov 7, Rza Ağalı 7, Surac Ağayev 5, Nicat Əliyev və Namiq Kişiyev 4 il 6 ay müddətinə azadlıqdan məhrum ediliblər. Vüsal Quliyevə isə 3 il 6 gün şərti cəza kəsilib.

❑ NURLAN

# Təhlükəli sükut



Mahal İSMAYILOĞLU
mahal57@mail.ru

**Siyasi olayları kənardan müşahidə edəndə, eyni niyyəti hədəfə alan iki tendensiya aydın şəkildə hiss olunur: Azərbaycan AŞ PA-nın son sessiyasında və ev sahibliyi etdiyi ATƏT-in Parlament Assambleyasının tədbirində Rusiya əleyhinə olan müzakirələrə qarışmadı, hətta müəyyən məqamlarda ona qarşı da çıxdı. Təbiidir ki, Azərbaycanın səsi hər iki tədbirdə həlledici deyildi. Rusiyadan çəkindiyi də anlaşılan idi...**

Bunlar bizim müşahidə etdiklərimizin üst qatıdır - Azərbaycan da belə üsulla Gürcüstanda və Ukraynada baş verənlərdən sığortalanmaq istəyir. Amma o da bəllidir ki, belə ehtiyatlı addımlar da yetərli olmaya bilər - yenidən imperiya olmaq eyforiyası ilə yaşayan Rusiya susmaqla bəlanın ondan yan keçəcəyinə ümidli olan Azərbaycana qarşı ən gözlənilməz addımlar ata bilər...

Azərbaycanın əlindəki yeganə siyasi sipər Dağlıq Qarabağ münaqişəsidir, elə şimal qonşumuzdan çəkindirən də... Rusiyanın tamah dişini qıcadığı istənilən ölkədə eyni təhlükə mövcuddur. Əgər yoxdursa, onu yaratmaq klassik rus diplomatiyası və kəşfiyyat orqanları üçün elə ciddi problem deyil. Necə ki, Ukraynanı cəzalandırmaq üçün Krımın ilhaqı yetərli olmadı və yeni münaqişə ocaqları - Donetsk və Luqansk vilayətlərində yeni separatizm ocaqları alovlandırıldı... İndi Rusiya prezidenti özünün müəllifi olduğu bölgədə baş verənlərdən danışanda, bir zərrə də ağrı hissi keçirmədən, insan haqlarından, demokratiyadan, beynəlxalq hüquqa hörmət sözlərindən gen-bol istifadə edir... Dünyanın heç bir yerində, heç kəsin şübhəsi yoxdur ki, bu vilayətlərdə baş verənlərin günahı məhz Putinin ayağına yazılır... Qərb ölkələri də Rusiyanı bu niyyətindən çəkindirmək üçün bütün vasitələrdən yararlanır...

Artıq hiss olunur ki, Rusiyanın siyasi dairələri böyük səhv yol verdiklərini dərk edirlər... Hətta Krımın işğalının ilkin çağlarında artan rus şovinizmi ənənəvi formada sönür... Həmişə sönən patriotluq bu ölkədə hakimiyyətə qarşı qiyama dönüb. İndi Rusiyanı idarə edənlər bu qorxu hissinə bürünüblər. Qərbin bu dövlətə qarşı yönələn iqtisadi sanksiyaları da öz işini görür - son üç ayda bu səbəbdən Rusiya 100 milyarddan çox ziyanla üzləşib. Hətta tələm-tələsik Krımı özəlləşdirməyə xərclənən vəsaiti kompensasiya edə bilmirlər. İndi bəlli olur ki, neftindən və qazından savayı güvənc yeri olmayan kasıb ölkə hətta qocaların, əlillərin aldığı təqaüdə də göz dikibmiş...

Rusiyada üsyan yetişir. Onsuz da bu ölkə son 25 ildə heç bir ciddi uğura imza atmayıb. Ölkədə sənaye istehsalı hələ 1989-il səviyyəsinə çatmayıb... Korrupsiya isə yeni formada, yeni cilddə mövcuddur, ölkənin sonuncu resurslarını da dişinə çəkir...

İndi Putin çox böyük rahatlıqla sakit-səssiz geri çəkilərdi... Amma "niyə başladın və sonda acı məğlubiyyətlə üzləşdin" ittihamından çəkinir... Rusların özləri ilə haqq-hesab çürütməsi isə həmişə böyük fəlakətə dönüb. Rusiyanın Ukraynada alovlandırdığı münaqişə artıq onun özünə yönəlir. Daha iki-üç ay davam etsə, onun nə ilə nəticələnəcəyini proqnozlaşdırmaq mümkün deyil... Əslində hər gün biabırçı bir məğlubiyyətə doğru atılan addımdır...

Amma bütün bunlar bizə yönələn təhlükəni sovuşdurmur, əksinə, Azərbaycanın ortaya qətiyyətli mövqe qoymaması Qərb cəbhəsindəki məğlubiyyətin əvəzini Şərq cəbhəsində - Azərbaycandan çıxmağa həvəsləndirir...

Bütün təhlükələri önləmək üçün Azərbaycan rəhbərliyi "bəlkə, hələlik" yarım vədlərini bir kənara qoyub qəti şəkildə heç bir şərt qarşılığında Putinin Avrasiya Birliyinə qoşulmayacağını bildirməlidir. Bu, hələ də bizə ehtiyatla yanaşan Avropanın böyük dəstəyə, Ermənistan üçün isə böyük siyasi uğursuzluğa dönərdi...

Hərdən iqtidarın belə susmağına haqq qazandıranlar "işğal olmuş torpaqlarımız geri qaytarılsa, bu birliyə üzv olarıq" vədi verirlər...

Belə yanaşma gerçək səbəbləri görməyən üçün arqument ola bilər, amma azadlıq xəyallarının üstündən xətt çəkmək üçün yetərlidir... Rusiya məhz işğal olunmuş torpaqlarla bazarlıq edib, bizi birdəfəlik öz ayağına bağlamaq istəyir... Üstəlik, bundan sonra bizim Avropaya açılan etibarlı qapımız - Gürcüstan da üzümüzə bağlana bilər. Ən azından Rusiyanın nüfuz dairəsində olan bir ölkəyə qarşı sərt viza rejimi tətbiq edilər...

Biz bir dövlət kimi belə sükutla özümüzü çox təhlükəli qeyri-müəyyənlik zolağına atırıq. Axı bu da bir aksiomdur ki, vaxtında atılmayan addımı sonra kompensasiya etmək olduqca çətin olur.



# Darıxıb gələnlərin karıxması

Samir SARI

**Bizim adamlar ölkədən çıxandan qısa bir müddətdən sonra "vətənimə qurban olum" havasına köklənir, ya telefonla danışanda, ya da sosial şəbəkələrdə Bakıdan ötrü darıxdıqlarından, cənnətə oxşayan qürbətin əslində çəkilməz bir yer olduğundan danışır, yazırlar.**

Adam gərək düzünü, səmimisini desin, nəyə görəsə məndə elə deyil. Arada hətta özümdən şübhələnirəm ki, bəlkə mən kifayət qədər patriot deyiləm, bəlkə doğma Bakının gözəlliklərini yaxşı görmürəm. Sonra fikirləşirəm ki, yox, bunların heç biri deyil, sadəcə, məsələyə emosiyasız, riqqətsiz yanaşmaq lazımdır.

Budur, bugünlərdə 3-5 gün ölkədən kənarda oldum, 47 fərqli millətə mənsub minlərlə adam gördüm, amma doğma, əziz Bakımızdan ötrü zərrə qədər darıxmadım. Əksinə, yadıma düşəndə ki, yenə o qarmaqarışıqlığın, tıxacların, yersiz, cılız intriqaların içinə qayıdacağam, darıxırdım.

Bəlkə də bu yazdıqlarım xaricdə olduqları vaxt "vətən həsrətindən qovruldum, bitdim", "Bakının mərkəzində addımlamaq üçün nələr, nələr verərdim" yazanların xoşuna gəlməyəcək, amma məncə, o fikirlər qeyri-səmimidir, türkün sözü, tribunlara oynamaqdır. Əslində həmin şəxslər ya kimlərinsə gözünə patriot kimi görünmək istəyirlər, ya da ötəri duyğusal ovqata qapılıb böylə şeylər yazırlar.

Ölkədən kənarda olduğum vaxtda bir dalaşan, boğuşan, itələşən, səsini qaldıran, növbəyə riayət etməyən görmədim, hamı bir-birinə "pardon", "sorri", "ekskyüzmi", "mersi", "sənk yu" deyir, elə şeylər də eşidirdi, amma elə ki, Bakıya endik...

Elə aeroportdaca iki davanın şahidi oldum. Birində pasport kontrolundan keçmək üçün növbəyə dayanmış adamlar mübahisəyə girişdilər. Mübahisə tərəfdaşları 35-40 yaşlı adamlar idi, hərəsinin öz müşayiətçiləri də vardı. Mübahisə kimin daha öndə olması üstündəydi. Biri deyirdi ki, onun çamadanı 5 santimetr qabaqdaydı, demək, o digərindən öndə olmalıdır. O biri də deyirdi ki, öndəki adamın ardında ilk olaraq o növbəyə dayanıb, demək, pasporta möhür vuran məmurlara da birinci o yaxınlaşmalıdır.

Əslində bu, mübahisə predmeti olmamalıydı. Çünki bir-iki dəqiqə qabağa düşmək heç nəyi həll eləmirdi, onsuz da baqajları almaq üçün hamı 15-20 dəqiqə gözləyir. Ha sırada gözləmiş, ha çamadanları gətirən elevatorun qırağında gözləmiş.

Amma mübahisə edənlər bu adi həqiqəti nəzərə almadılar və az qaldılar əlbəyaxa olsunlar, səslərini qaldırdılar. Arada onların yanındakı adamlar da mübahisəyə qoşuldular. Biri o birinə dedi ki, səsini qaldırma, yoxsa, pis olar. O biri də dedi ki, pis olub nə olacaq. Bu biri dedi ki, yaxşı, burdan çıxaq, bayırda danışarıq. O biri də dedi ki, danışarıq, amma yerində sakit dur, başın ağrıyar.

Ətrafda mühafizə polisləri olmasaydı, onlar, bişəkk, tutaşacaqdılar. Birinin növbəsi çatdı, irəli getdi, mübahisə bitdi. Daha bilmədim, onlar aeroportdan çıxdıqdan sonra bir kənarda görüşüb dalaşdılarmı. Hərçənd bıçaqlaşma ehtimalı yox idi, çünki üstlərində soyuq silah daşımırdılar.

Kişilərin mübahisəsi bitəndən 20-30 saniyə sonra daha bir çığır-bağır sol tərəfdən gəldi. Bu dəfə bir xanım və onu müşayiət edən cantaraq oğlan aeroportun mühafizə xidmətinin əməkdaşı ilə dartışırdılar. Qız çığıra-çığıra deyirdi ki, siz kimsiniz mənim əlimdən telefonumu alırsınız. Oğlan da yüksək səslə və ötkəm halda deyirdi ki, siz vətəndaşın şəxsi əmlakını əlindən hansı haqla alırsınız. Qız deyirdi, bu saat papama zəng edəcəm. Oğlan deyirdi, sizdən şikayət edəcəyik, gününüzü görəcəksiniz. Aeroportun mühafizə xidmətinin işçisi heç nə demirdi. Digər mühafizəçilər də onlara yaxınlaşdılar. Camaat tamaşaya durdu. Məlum oldu ki, oğlan qızın şəklini çəkib, bu isə təhlükəsizlik qaydalarına zidd olduğundan mühafizəçi telefonu qızın əlindən almaq istəyəndə ara qarışıb. Bir qədər çığır-bağırdan sonra münaqişə sülhlə bitdi.

Bax, biz beləyik. Hər dəqiqə dalaşmağa, mübahisə etməyə hazırıq. Növbə nədir, basıb keçməliyik. Mütləq tanış axtaracağıq ki, bizi başqalarından qabağa salsın. Bu dəfə o imtiyazdan bir qadın və onun yanındakı dörd qız yararlandı. Bir aeroport əməkdaşı onları növbədən çıxardı və aparıb xarici vətəndaşlar üçün nəzərdə tutulan məntəqədən keçirdi.

Xaricdən vətən üçün darıxıb gələn və bir an öncə doğma ölkəyə qədəm basmağa tələsənlər bu mənzərələri görüb karıxanlar acı-acı başlarını bulayırdılar...

# Nazir restoranından tapılan "bağırsaq çöpü" aranı qatdı

## "Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi bizdən 3 min manat rüşvət istəyib"

**Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi yanında Texniki Tənzimləmə və Standartlaşdırma üzrə Dövlət Nəzarəti Xidməti tərəfindən Bakı şəhəri, Nəsimi rayonu, Səməd Vurğun küçəsində yerləşən "Niaqara" restoranında dövlət nəzarəti tədbirləri həyata keçirilib.**

Musavat.com-un komitənin saytına istinadən verdiyi məlumata görə, araşdırmalar nəticəsində restoranda mənşəyi məlum olmayan, təhlükəsizliyi müvafiq qaydada konservləşdirilmiş xiyar, göyəm, alma, alça, badımcan, gavalı turşusu aşkarlanıb. Müəssisədə hazırlanan "paytaxt" salatından nümunə götürülərək Komitənin Təcrübə-Sınaq Mərkəzinin (AzTest) laboratoriyasına təqdim edilmiş, aparılan müayinələr nəticəsində salatın tərkibində bağırsaq çöpləri qrupundan olan bakteriyalar aşkar edilib. Bundan başqa, müəssisədə yeməklərin heç bir texnoloji təlimat və reseptura olmadan hazırlandığı, soyuducularda ərzaqların saxlanılması zamanı mal qonşuluğu qaydalarına əməl olunmadığı, istismar olunan ölçmə vasitələrinin müqayisəli dövlət yoxlanışından keçirilmədiyi aşkar edilib. Araşdırmalar zamanı həmçinin yeməklərin hazırlanması zamanı istifadə olunan ətin baytarlıq şəhadətnaməsi, digər ərzaq məhsullarının uyğunluq və gigiyenik sertifikatları, hazırlanan yeməklərin sınaqlarının nəticələrini təsdiq edən sınaq protokolları, müəssisədə çalışan işçilərin tibbi kartları, peşə təhsillərini təsdiq edən hər hansı sənəd yoxlamaya təqdim edilməyib.



Aşkar edilmiş bu və digər nöqsanlarla bağlı müəssisə rəhbərinə inzibati protokol əsasında cərimə tətbiq edilib, normativ sənədlərin tələblərinə cavab verməyən məhsulların hazırlanması və satışı qadağan edilib.

Qeyd edək ki, "Niaqara" restoranı müdafiə sənayesi naziri Yavər Camalova məxsusdur.

Məsələ ilə bağlı teleqraf.com-a açıqlama verən "Niaqara" restoranının adının çəkilməsini istəməyən əməkdaşı bu məlumatın qərəzli olaraq yayıldığını deyib və bildirib ki, yoxlama zamanı heç bir nöqsan aşkarlanmayıb: **"Komitənin əməkdaşları restoran rəhbərliyindən rüşvət istəyiblər. Verilmədiyinə görə restoran haqqında yalan məlumatlar yayıblar. Gəlib bütün yeməklərdən, soyuq qəlyənaltılardan nümunə götürdülər. Sonra cavablarını göndərdilər və bildirdilər ki, heç bir nöqsan aşkarlanmayıb. Həmin sənədlər bizdə durur, hansı ki, salatların tərkibinin standartlara cavab verdiyini komitə təsdiqləyib. Amma sonradan gedib yalan məlumat yayıblar".** Restoranın əməkdaşı bildirib ki, komitə əməkdaşları restoran rəhbərliyindən 3 min manat rüşvət tələb ediblər: **"Bu pulu vermədiyimizə görə "Niaqara" haqqında yanlış məlumat yayıblar. Amma müştərilərimizə demək istəyirik ki, buna inanmasınlar".** Sonda o da bildirilib ki, komitənin yaydığı məlumatın restorandakı iş prosesinə heç bir təsiri yoxdur və restoran fəaliyyətini əvvəlki qaydada davam etdirir.

# Prokuror QHT rəhbərinə 7 il həbs cəzası istədi

**İyulun 4-də Gəncənin Nizami Rayon Məhkəməsində "Kamil Vətəndaş" Maarifləndirmə Mərkəzinin rəhbəri Həsən Hüseynlinin işi üzrə proses davam edib. Həsən Hüseynliyə silah tətbiq etməklə xuliqanlıq və qanunsuz olaraq soyuq silah gəzdirmə ittihamı irəli sürülüb.**

QHT rəhbəri qeyd edir ki, bu il martın 31-də ona qarşı təxribat olub. Onun sözlərinə görə, Gəncədə, Mərkəzi Poçtun yaxınlığında 35-40 yaşlarında bir adam *(Gəncə sakini Arzu Qəhrəmanov)* ona yaxınlaşaraq söz atıb, söyüş söyüb, daha sonra güc tətbiq edib. Elə həmin gün polisə üz tutan Arzu Qəhrəmanov Həsən Hüseynlinin onu bıçaqla vurduğunu iddia edib.

**"Mediaforum" saytına danışan vəkil Elçin Sadıqov bildirib ki, bugünkü prosesdə dövlət ittihamçısı Həsən Hüseynlinin 7 il azadlıqdan məhrum edilməsi təklifini verib:** "Çıxışa hazırlaşmaq üçün vaxt istədik. İyulun 11-nə qədər vaxt verildi. Növbəti iclasda vəkillər çıxış edəcək. Həsən Hüseynli də son sözünü həmin gün desə, hökm oxuna bilər".



Həsən Hüseynli

**Elçin Sadıqov əlavə edib ki, Həsən Hüseynliyə qarşı irəli sürülmüş ittiham öz təsdiqini tapmayıb:** "Həsən Hüseynlinin cinayət törətməsi ilə bağlı heç bir sübut yoxdur. İstintaqın məhkəməyə təqdim etdiyi sübutlar arasında kəskin ziddiyyətlər var. Prosesdə şahidlər bir-birinin ifadəsini təkzib edirdi. Bıçağın kimə məxsus olması ilə bağlı istintaq orqanında heç bir sübut yoxdur. Hesab edirik ki, prokurorluğun açıq-aşkar sübut olmadan Həsən Hüseynliyə belə ağır cəza istəməsində böyük bir sifariş var. Həsən Hüseynlini cəmiyyətdən təcrid etmək istəyirlər".

# Bakıdakı sənədsiz evlərin sakinlərinə şad xəbər

**Bakı sakinlərinin bir qismini narahat edən əsas problemlərdən biri öz həllini tapır. Məlumdur ki, Bakı və ətraf qəsəbələrdə qeyri-qanuni xeyli tikililər mövcuddur. Bu da bir çox hallarda vətəndaşlarla dövlət qurumları arasında ciddi problemə səbəb olur.**

Tikililərin dövlət qeydiyyatına düşməsi isə ciddi əngəllərlə qarşılaşır. Bu problemin həll olunması və paytaxtında qanunsuz tikililərin sənədləşdirilməsi ilə bağlı Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq Bakı Şəhər İcra Hakimiyyəti belə tikililərin siyahıya alınması prosesini başa çatdırıb. Aznews.az-ın xəbərinə görə, artıq 4 kateqoriya üzrə siyahı hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilib: "Bakı Şəhər İcra Hakimiyyəti müvafiq qurumlarla birgə 1900-1950-ci illədək, 1975-ci illədək, 1990-2000-ci illədək və 2012-ci illədək tikilən sənədsiz tikililərin siyahısını tərtib edib".



Xəbəri Bakı Şəhər İcra Hakimiyyətindən təsdiqləyiblər. Qurumdan bildirilib ki, sözügedən kateqoriyalar üzrə icazəsiz tikilən evlərin sənədləşdirilməsinə bu ilin sentyabrından başlanacaq.

**Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü, deputat Vahid Əhmədov da açıqlamasında bu ilin sentyabrından Bakı və ətraf qəsəbələrdə bu tip tikililərin sənədləşdirilməsi prosesinin başlanacağını istisna etməyib:** "Bununla bağlı dövlət başçısı tərəfindən göstəriş verilib. Bakı Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə sənədsiz evlərin sənədləşdirilməsi ilə bağlı komissiya yaradılıb. Aldığım son məlumata görə, problemin həlli ilə bağlı komissiya tərəfindən işlər yekunlaşıb. Bununla bağlı ölkə başçısına da yaxın vaxtlarda məlumat veriləcək. Yəqin ki, sentyabrdan sənədsiz evlərin sənədləşdirilməsinə başlanılacaq".

Xatırladaq ki, ölkə başçısı 2010-cu ildə Bakı və ətraf qəsəbələrinin inkişafına dair II Dövlət Proqramının təqdimatına dair keçirilən konfransda bu problemi qaldırdı. Prezident İlham Əliyev qanunsuz tikililər məsələsinin paytaxt üçün ciddi sosial problemə çevrildiyini bəyan edərək müvafiq strukturlara, xüsusilə Bakı Şəhər İcra Hakimiyyətinə sənədləşmə ilə bağlı xüsusi tapşırıq verib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT

N 171 (5880) 5 iyul 2014

# Naxçıvan cəbhəsi Qarabağı xilas edəcəkmi?

**Son zamanlar cəbhənin Naxçıvan istiqamətindən atəşkəsin davamlı şəkildə pozulması, həm Azərbaycan, həm də Ermənistan tərəfdən itkilərlə müşayiət olunan atışmaların getməsi diqqəti bu bölgəyə yönəldib. Təcavüzkar Ermənistanla 246 km-lik sərhədə malik olan Naxçıvan Muxtar Respublikasının (MR) bir yaşayış məntəqəsi - Kərki də 24 ildir düşmən ölkənin işğalı altındadır.**





**Üzeyir Cəfərov:** “Azərbaycan rəhbərliyi Ermənistana problem yaşatmaq üçün Naxçıvandakı hərbi qüvvələrimizdən ciddi şəkildə istifadə edəcək”



**Asəf Quliyev:** “Ortada Qars müqaviləsi var və onlar Türkiyə variantını nəzərdən qaçırmırlar”

Sədərək rayonunun inzibati ərazisinə daxil olan və 1920-ci illərdə Naxçıvan ərazisinin bir hissəsinin Ermənistana verilməsi nəticəsində ərazisi daxilində anklav vəziyyətə düşən Kərki kəndi 1990-cı ildə Ermənistanda dislokasiya olunmuş 7-ci sovet ordusunun hissələrinin yardımı ilə işğal olunub. Əslində Kərki kəndi Naxçıvanın Ermənistan işğalı altında olan yeganə yaşayış məntəqəsi deyil. 1929-cu il 18 fevralda Zaqafqaziya MİK totalitar inzibati-amirlik şəraitində Naxçıvan MSSR-in doqquz kəndinin - Şərur dairəsinin Qurdqulaq, Xaçik, Horadiz, Şahbuz nahiyyəsinin Oğbin, Sultanbəy, Ağxəç, Almalı, İtqıran kəndlərinin, Ordubad dairəsinin Qorçevan kəndinin, habelə Kilit kəndinin torpaqlarının bir hissəsinin, əkin sahələri və torpaqları ilə birlikdə Ermənistan SSR-ə birləşdirilməsi haqqında qərar qəbul edib. Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin Naxçıvanın sərhədləri məsələsinə baxması, Moskva müqaviləsi (1921) və Qars müqaviləsi (1921) sənədlərini imzalayan tərəflərin iştirakı olmadan Naxçıvan ərazisinin bir hissəsinin Ermənistana verilməsi beynəlxalq hüquq normalarının kobudcasına pozulması hadisəsi baş verib. Əslində Azərbaycanın daha çox Kərki də daxil olmaqla, işğal altında olan Naxçıvan MR əraziləri və Azərbaycanın ötən əsrin sonlarında qəsb edilən 20 faiz torpaqlarının geri qaytarılması uğrunda qəti addımlar atmaq hüququ var. Lakin düşmən ölkə həyasızcasına Qazax rayonuna qarşı iddialar irəli sürməyə başlayıb.

Naxçıvanla bağlı gedən müzakirələrdə diqqət çəkən məqamlar var. Xüsusilə də Azərbaycan ordusu rəhbərliyinin, Türkiyə Silahlı Qüvvələrinin də iştirakı ilə Naxçıvanda mövqeləri möhkəmləndirməsi, geniş miqyaslı hərbi təlimlər keçirməsi Ermənistanda narahatlıq yaradıb. Belə bir ərəfədə Rusiya və Ermənistanın həftənin sonunadək davam edən birgə hərbi təlimləri də Azərbaycan-Türkiyə hərbi müttəfiqliyinə və son vaxtlar keçirilən təlimlərə cavab kimi dəyərləndirilə bilər. Ekspertlər hesab edir ki, hazırda Azərbaycan ordusunun Ermənistanı çökdürməsi üçün ən ideal müharibə meydanı cəbhənin Naxçıvan istiqamətidir. Məlumatlara görə, hətta 22 il əvvəl Elçibəy iqtidarı Türkiyə dövləti ilə razılaşdıraraq, Naxçıvandan əməliyyatların başlaması və Zəngəzur ərazisinə doğru Mehri koridorunun açılmasını təmin edəcək plan hazırlayıbmış. **Savaş planının əsas müəlliflərindən biri, 1993-cü ildə baş nazir vəzifəsində olan Pənah Hüseyn deyib ki, yaranmış hərbi situasiyanı dəyişmək, Naxçıvanla Azərbaycanı birləşdirən Mehri dəhlizinin açılması üçün Naxçıvandan və Zəngilan istiqamətindən hücumun təşkil olunması planlaşdırılırdı:** “Naxçıvan blokada vəziyyətində idi və bu blokadanın aradan qaldırılmasının təbii yolu bir çoxlarına Zəngəzurun, Mehri dəhlizinin hərbi yolla azad olunması kimi görünürdü. İndiki terminologiyadan istifadə etsək, hesab edilirdi ki, bu bir növ humanitar əməliyyat kimi dünya tərəfindən başa düşülə bilər”. **P.Hüseyn deyib ki, Türkiyənin müdaxilə məsələsi elə də xəyal deyildi.** “Əməliyyatların Naxçıvandan başlayacağı ilə bağlı xəbərlərin gündəmə gəlməsi təsadüfi ola bilər. Lakin istənilən halda döyüş əməliyyatlarının başlayacağı halda istisna eləmirəm ki, bu, yalnız Qarabağ cəbhəsi ilə məhdudlaşdırılsın”-deyə, P.Hüseyn bildirib. Qeyd edək ki, son zamanlar Naxçıvandakı Silahlı Qüvvələrimizlə bağlı ciddi addımların atılması Qarabağın azadlığı uğrunda savaşda Naxçıvan cəbhəsinin həlledici olacağı barədə ehtimalları qüvvətləndirir.

**Hərbi ekspert Üzeyir Cəfərovun sözlərinə görə, Azərbaycan çox asanlıqla Ermənistan ordusunun qarşısına çıxa və düşmənə sarsıdıcı zərbələr endirə bilər:** “Ermənilər də yaxşı anlayır ki, indi 90-cı illər deyil, 2014-cü ildir və düşmənlə ən müasir şəkildə düşmənlə mübarizə aparmağa imkan var. Azərbaycan öz Silahlı Qüvvələrini yetərincə gücləndirib. Bütün problemlərə baxmayaraq bu gün Silahlı Qüvvələrimizdə ən müasir silahlar var. Əsas odur ki, dəfələrlə genişmiqyaslı təlimlər keçirilib. Ən böyük hərbi təlimlər də Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunda keçirilib. Bu gün Naxçıvandakı Əlahiddə Ümumqoşun Ordusu həm heyətinə, həm təchizatına görə bütün yerdəqalan birləşmələrin hamısından üstündür. Yeni Naxçıvanda olan T-90S tankları, Mİ-35 döyüş vertolyotları, müasir hücum təyyarələri, SMERÇ qurğusu çox asanlıqla Ermənistana problemlər yaşada bilər. Ona görə də düşünmürəm ki, Ermənistan risk edib Naxçıvana hər hansı problem yarada bilər. Əlbəttə ki, onlar dəfələrlə cəhd göstəriblər ki, Naxçıvanı təxribata cəlb eləsinlər. Amma çox şükürlər olsun ki, Naxçıvandakı etibarlı müdafiəmiz düşmənə o imkanı yaratmayıb”. **Ü.Cəfərov Naxçıvanla bağlı mühüm bir məqamı da vurğuladı:** “Sirr də deyil ki, bu gün Naxçıvan Türkiyənin himayəsi altındadır, bunu Azərbaycanın dostları da, düşmənləri də bilir. Naxçıvan blokada şəraitində olduğuna görə onun bilavasitə təhlükəsizliyi və müdafiəsi Azərbaycanla yanaşı türkiyəli qardaşlarımıza da həvalə olunub. Naxçıvan elə bir həssas yerdədir ki, istənilən an problemlərlə üz-üzə qala bilər. O problemlər yaşanmasın deyə, ən yüksək səviyyədə bütün işlər görülür, görülməkdə də davam edir. Qarabağla bağlı Ermənistanın başlada biləcəyi hər hansı təxribatçı hərəkətlər öz başında çatlaya və özləri üçün heç də yaxşı olmayan bir nəticə verə bilər. Düzdür, onlar özlərini KTMT müqaviləsi, Rusiyanın 102-ci hərbi bazası ilə arxayın edirlər. Amma tam əminliklə deyirəm ki, Rusiya Ermənistana heç bir dəstəyi verməyəcək. Çünki Putin Rusiyasının başı digər məsələlərə qarışıb və onun Cənubi Qafqazdakı proseslərə qarışması özünə əlavə problemlər yarada bilər”. **Hərbi ekspert hesab edir ki, Qarabağ məsələsinin həlli uzandıqca Ermənistanın gələcəkdə böyük problemlərlə üzləşməsi qaçılmazdır:** “Günün birində Azərbaycanı Naxçıvanla birləşdirən Mehri dəhlizinin fəaliyyətə başlaması mümkün olacaq. Bu gün ermənilər özlərini sakitləşdirsələr də, üzləşə biləcəkləri fəlakətlərə görə çox narahatdırlar. Ümumiyyətlə, bölgəmizdəki növbəti silahlı münaqişə Ermənistanın ziyanına işləyə bilər və düşmən ölkə bunu nəzərə alır. Vaxtaşırı cəfəng bəyanatlar da verirlər. Məsələn, guya Qazağı alıb Ermənistana birləşdirmək üçün özünümüdafiə batalyonu yaradacaqlar və s. Bunlar hamısı boş, əsası olmayan çıxışlardır. Ermənilər özləri də başa düşürlər ki, bu xına o xınadan deyil, müharibə düşmən üçün çox acınacaqlı nəticələr verə bilər. Yeganə faktor Rusiya faktorudur. Lakin istənilən halda Azərbaycan rəhbərliyi Ermənistana problem yaşatmaq üçün Naxçıvandakı hərbi qüvvələrimizdən də ciddi şəkildə istifadə edəcək. Azərbaycan çox asanlıqla ermənilərin qarşısına çıxa bilər. Naxçıvanda faktiki olaraq mini Müdafiə Nazirliyi yaradılıb, orda həm ştat, həm əsgər sayı, həm də generalların sayını artırdılar. Təkcə iki korpusun maliyyə vəsaiti bu Ümumqoşun Ordusuna ayrılır. Naxçıvan əvvəlki illərə nisbətən daha etibarlı vəziyyətdədir”.

**90-cı illərin əvvəllərində Naxçıvandakı könüllülərdən ibarət 4 tabordan birində döyüşmüş Asəf Quliyev isə deyir ki, savaşın Naxçıvandan başlayacağını düşünmür:** “Azərbaycanın savaşa Naxçıvandan başlamağa maraqlı olduğunu güman etmirəm. Xırda atışmalar illərdir ki, davam edir. Ancaq adətən belə xəbərlər mətbuata çıxmırdı. Naxçıvanın Ermənistanla ilk atışması 1990-cı ilin 17 yanvarından başlayıb. Bizim iştirak etdiyimiz döyüşlər boyu, 1990-cı ilin sonlarına qədər Ermənistan Naxçıvanın hər hansı bir bölgəsini götürə bilərdi. Çünki orda həm Ermənistanın güclü qüvvəsi vardı, həm də Rusiyanın dəstəyi öz sözünü deyə bilərdi. Lakin Ermənistan o addımı atmadı. Çünki ortada Qars müqaviləsi var və onlar Türkiyə variantını nəzərdən qaçırmırlar. Ona görə də Ermənistan Naxçıvanla ancaq uzaqdan atışmalara üstünlük verirdi. İndi də Ermənistanın müharibəyə Naxçıvandan başlamağa maraqlı olduğunu gözləmirəm. Ermənilər Qars müqaviləsini əsas tutaraq Türkiyənin savaşa qatılması ehtimalını nəzərə alaraq buna getməzlər”. **Keçmiş döyüşçü Qarabağ uğrunda savaşın Naxçıvandan başlanmasını yanlış sayır:** “Əgər Qarabağın hərbi yolla qaytarılması variantı reallaşacaqsa, Naxçıvan amili çox önəm kəsb edəcək. Çünki Naxçıvan elə bir strateji mövqedədir ki, Ermənistanın Qafan, Gorus, Sisyan, Mehri, Əzizbəyov rayonlarına həm məsafəcə yaxındır, həm də Laçın dəhlizinə, Dağlıq Qarabağa gedən yollar Naxçıvanın ayağının altında qalır. Əgər Naxçıvandan ağır artilleriya atəşi açılacaqsa, istər-istəməz Ermənistanla Dağlıq Qarabağ arasındakı əlaqələr mütləq dayanacaq. Bu mənada Dağlıq Qarabağın azad olunmasında Naxçıvanın çox böyük önəmi və strateji mövqeyi var. Dağlıq Qarabağdakı erməni işğalçılarının cavabının verilməsi üçün Naxçıvan mütləq hərbi əməliyyatlara qoşulmalıdır”. **A.Quliyevin Mehri əməliyyatı ilə bağlı maraqlı faktları da xatırladıb:** “Mən həmin dövrü çox yaxşı xatırlayıram. 91-ci ildə ilk dəfə Türkiyədə rəhmətlik Ecevit o təklifi verişdi. O məsələ ortaya çıxandan sonra rəhmətlik Elçibəy mənə bir məktub verdi. 1991-ci ildə mən Ecevitlə, digər partiya rəhbərləri ilə görüşdüm. Ecevit dedi ki, siz elə hesab etməyin ki, Dağlıq Qarabağda müəyyən qədər irəliləməyiniz böyük uğur vəd edir. Çünki bu müharibə uzun gedəcək. Naxçıvanın təhlükəsizliyini təmin etmək, onun inkişafı üçün də mütləq dəhliz açılmalıdır. İzah etdi ki, əvvəl-axır Rusiyanın təsiri ilə Laçın Ermənistanla Dağlıq Qarabağ arasında dəhliz kimi istifadə olunacaq. Ona görə də dedi ki, siz fürsətdən istifadə edib Laçın dəhlizi əvəzinə, Mehri dəhlizini götürün. Dedi siz ya buna danışıqla getməlisiniz, ya da döyüşlə. Hətta bir generalla danışdı və o general Mehrinin götürülməsi planını hazırladı, bizə verdi. Əslində biz də Naxçıvanda planlaşdırmışdıq ki, Xorxat yüksəkliyi vardı, oranı götürsəydik Mehri iki saata boşalmalı idi. Çünki bu yüksəklik həm Mehrinin, həm də İcevanın üzərində idi. 1992-ci ildə biz Xorxatı götürdük. Deyəsən, may ayı idi. Gecə saat 3-də bizim qüvvələr hərəkət etdi, səhər 6-ya işləmiş itki vermədən yüksəkliyi götürdük. Ermənilərin orda bir neçə BMP-si, hərbi birləşmələri vardı. Deyim ki, Xorxat neytral ərazi idi, ancaq ermənilərin əlində idi. Çünki bizdən ora heç bir texnika getmirdi, ancaq Mehridən maşınla qalxmaq olurdu. Ermənilər orda xeyli itki verdilər. Sonra məsələ qaldırıldı ki, Ermənistanla Naxçıvan arasında müqavilə var, gərginliyin yaranmaması, aranın qızışmaması üçün geri qayıtmaq lazımdır. Belə olduqda biz qayıtdıq. Çünki bizə kömək də gəlmədi. Qayıdanda isə iki döyüşçümüz şəhid oldu. Təəssüf ki, Naxçıvanla Azərbaycan arasında dəhliz yaratmaq mümkün olmadı. Aydındır ki, erməni danışıq yolu ilə heç vaxt bu razılaşmaya getməzdi. Elə Xorxatı götürəndə ordakı ərzaq məhsullarının hamısının üstündə İran yazıları vardı. Ermənistan İranın sayəsində təchiz olunurdu. Bu mənada onlar Mehrini verməklə İranla olan əlaqəni heç vaxt kəsmək istəməzdilər". Naxçıvandan Laçın rayonu istiqamətində qısa məsafənin olmasını nəzərə alan bəzi ekspertlər hesab edir ki, Naxçıvandakı qüvvələrimiz hücuma keçərək Qarabağ istiqamətindəki ərazilərimizdəki düşmənə də sarsıdıcı zərbə vura bilər.

**Ancaq keçmiş döyüşçü 20 il öncəyə nisbətən situasiyanın dəyişdiyi qənaətindədir:** “Qarabağ Azərbaycanın ərazisidir. Bu mənada Qarabağı qaytarmaq üçün Naxçıvandan düşmən ölkəyə müdaxilə olursa, bu, Ermənistana təcavüz kimi qiymətləndirilə bilər. O halda Rusiyanın əlinə şans düşür ki, Ermənistanla hərbi müqaviləsini əsas götürüb rus qoşunlarının savaşda iştirakına qərar versin. Bu da taktiki yanlışlıq olardı. Hesab edirəm ki, bu gün Naxçıvanın adının hallandırılması, müharibənin Naxçıvandan başlanacağı ilə bağlı xəbərlərin yayılması siyasi oyunların tərkib hissəsidir. Buna getmək olmaz”.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 171 (5880) 5 iyul 2014

## Azad Rəhimov: "Bakı 2015 Avropa Oyunlarının yeganə mobil rabitə tərəfdaşı "Nar Mobile" mobil operatorudur"

**Bakı 2015 Avropa Oyunları yarışlarının eksklüziv və yeganə rəsmi mobil rabitə tərəfdaşı "Azerfon" ("Nar Mobile" ticarət nişanı) şirkətidir. Bu barədə tərəfdaşlıq müqaviləsinin imzalanma mərasimindən sonra keçirilən mətbuat konfransı zamanı Azərbaycan Respublikası gənclər və idman naziri Azad Rəhimov məlumat verib.**

**Xatırladaq ki, iyul ayının 2-də "Four Seasons Baku" hotelində "Nar Mobile" mobil operatorunun Bakı 2015 Avropa Oyunları yarışlarının rəsmi mobil telekommunikasiya xidməti təminatçısı olması haqqında müqavilə imzalanıb. Müqaviləni Bakı 2015 Avropa Oyunları Təşkilat Komitəsinin baş icraçı direktoru, gənclər və idman naziri Azad Rəhimov və "Azerfon" şirkətinin baş icraçı direktoru Kent Maknili imzalayıblar.**

**Azərbaycan Respublikasının gənclər və idman naziri, Bakı-2015 Avropa Oyunları Təşkilat komitəsinin baş icraçı direktoru Azad Rəhimov mobil operatorla imzalanan anlaşmanın ilk Avropa Oyunlarının keçirilməsinə dəstək məqsədi ilə "Nar Mobile" mobil operatorunun telekommunikasiya sahəsində malik olduğu geniş təcrübəni tətbiq etməsini nəzərdə tutan əhəmiyyətli müqavilə olduğunu bildirmişdir.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

**Elan**

**Bakının Türkan qəsəbəsində dənizdən 600-700 metr aralı, sahəsi 20 sot olan bag satılır. \Bağın orderi, 82 metr dərinlikdən çıxan şirin suyu, hasar və darvazası, meyvə agacları, 1 otaq və mətbəxdən ibarət kiçik tikilisi var. Qaz və telefon xətti yaxınlıqdan keçir. Qiyməti razılaşma yolu ilə.**

**Əlaqə tel: 070-611-64-15**

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

# Şəkidə 10 günlük istirahət 500-1000 manata başa gəlir

## Nəsib İmaməliyev: "Rayon bir gündə 1000-1200 turisti qəbul edə bilər"

**Yay mövsümündə hər kəs işdən, gündəlik qayğılardan uzaqlaşaraq bir qədər istirahət etmək istəyir. Çoxları istirahət etmək üçün xarici ölkələri seçsə də, doğma yurdumuzu qarış-qarış gəzənlər də az deyil. Ölkəmizdə turizm bölgələrində qiymətlərin yüksək olması orta və kasıb təbəqədən olanların işinə yaramır. İndiki qiymətlərlə 1 nəfərin hansısa bir turistik məkanda 10 günlük dincəlməsi üçün ən azı 500-1000 manat lazımdır ki, buna da hər kəsin imkanı çatmır. Bu vəziyyətdə olanlar boşluğu parka, yaxud pulsuz çimərliklərə üz tutmaqla doldurmağa çalışırlar. Təbii ki, bunların heç biri hansısa dağlıq rayonda, sakit bir məkanda istirahətin əvəzini verə bilməz. Yay mövsümünü təbiətin əhatəsində, normal və lüks yerlərdə keçirmək istəyirsinizsə, bunun neçəyə başa gələcəyini bilməlisiniz.**











Bizdə turistlərin və yerli əhalinin istirahət üçün daha çox üz tutduğu rayonlardan birində - Şəkidə olub oradakı bir neçə istirahət mərkəzinin və hotellərin xidmətləri, qiymətləri ilə maraqlandıq. İlk baş çəkdiyimiz məkan dağın döşündə yerləşən "Cənnət bağı" istirahət mərkəzi oldu. Sərin, təmiz havası və gözəlliyi ilə insanı özünə cəlb edən bu məkanda qalmaq üçün kotteclər, müxtəlif əyləncələr təklif edilir. Burada kotteclər ailələr üçün nəzərdə tutulub. Kotteclərdə qalmağın bir gecəsi isə 40-80 manatdır.

**"Cənnət bağı"nın administratoru Murad Əhmədov kotteclərə şəxsiyyət vəsiqəsi olmayanların buraxılmadığını dedi:** "Biz qiymətləri endirmişik. Başqa yerlərdə bir gecə qalmaq 100 manatadır. Bizdə qalmaq qiymətinə yemək daxil deyil. Burada uşaqların dincəlməsi və əylənməsi üçün də şərait var".

"Cənnət bağı"nda fəaliyyət göstərən kafe və restoranlardakı qiymətə gəlincə, hər kəsin büdcəsinə uyğun qiymətlər olduğunu deyən M. Əhmədov bir nəfərin naharının təxmini 5-20 manata başa gəldiyini bildirdi: "Bizim restoranlarda kababların qiyməti 3 manat 50 qəpik, Şəkiyə xas olan piti 4 manat, şorbalar isə 1 manatadır".

Digər baş çəkdiyimiz məkan isə "Narınqala" istirahət mərkəzi oldu. Sıx meşəliyin içində yerləşən kotteclər, təmiz hava, bulaq, şəlalə yanında yerləşən çay evləri, gözəl restoranlar insanın zövqünü oxşayır. Burada 2 nəfərlik kottecdə bir günlük qalmaq 70 manat, 3 nəfərlik kottec 90 manat, 4 nəfərlik kottec 110 manat, 6 nəfərlik isə 130 manatdır. Bu pula səhər yeməyi və müxtəlif əyləncələr daxildir. Burada kotteclərin içərisində mətbəx də var. Gələnlər istəsələr özləri də yemək bişirə bilərlər.

**"Narınqala"nın icraçı direktoru Mahir Lətifov istirahət üçün onlara üz tutanların rahatlığı naminə əllərindən gələni etdiklərini dedi:** "Bizim kotteclərimiz genişliyi və rahatlığına görə digərlərindən fərqlənir. Kotteclərin içərisində gələn qonaqlar üçün xüsusi yerlər də var. Kottec üçün ödənilən pula görə səhər yeməyi verilir, həmçinin istirahətə gələnlər meydançada voleybol, həndbol, tennis oynaya bilirlər. Səhər yeməyində isə yağ, bal, qaymaq, pendir, yumurta və kakao verilir. Uşaqlar üçün xüsusi park da var. Bu parkdan istifadə də kottec üçün ödənilən pulun içərisində nəzərdə tutulub. Bizdə restorandakı qiymətlər də münasibdir. Məsələn, kabablar 3 manat 50 qəpik, piti 4 manatdır. Bizim restoranların menyüsündə şorba olmur. Əgər müştəri istəyərsə bişirilir. Havalar sərin keçdiyi üçün hələ ki gələnlər azdır. Bu ay gələnlərin sayının artacağını güman edirik. Şəki camaatına isə qapılarımız daim açıqdır. Gəlib buradan park kimi istifadə edir, yemək yeyir, çay içirlər. Giriş haqqı yoxdur".

"Narınqala"da çay dəsgahının qiyməti 10-15 manatdır. Çay dəsgahına mürəbbə, Şəki şirniyyatları, limon daxildir. Bunun qiyməti isə 10 manatdır. Könlü samovar çayı istəyənlər üçün isə bu dəsgahın qiyməti 15 manatdır.

"Məkan" istirahət mərkəzində isə qiymətlər xeyli münasibdir. Ərazi baxımından kiçik də olsa, buranı seçənlər heç də az deyil. Ancaq burada daha çox gecələmək məqsədilə qalırlar. "Məkan"da bir gecə qalmağın qiyməti 15 manatdır. Bu qiymətə yemək daxil deyil. "Məkan"da çayın qiyməti 50 qəpikdən başlayıb 10 manatadək artır. Yeməklərin qiymətləri olduqca münasibdir.

Şəkiyə qonaq gələnlərin daha çox üz tutduğu hotellərdən biri də "Şəki-Karvansara" hotelidir. Eyni vaxtda 75 nəfərə qədər qonaq qəbul etmək imkanı olan bu müasir mehmanxana kompleksində 38 nömrə, o cümlədən 8 ədəd iki mərtəbəli lüks nömrə, əyləncə mərkəzi, diskoteka, konfrans zalı, kafe, qış və yay restoranları var. Bundan başqa, turistlərin əksəriyyəti, xüsusən də xarici turistlər dəbdəbəli hotellərdənsə təbiət qoynundakı evlərə üstünlük verirlər. Turistləri cəlb etmək üçün evlərdə hər cür rahatlıq yaradılıb. Rahatlıqla yanaşı, evlərin yerləşdiyi ərazi də qonaqları çox maraqlandırır.

**Şəki Turizm İnformasiya Mərkəzinin sədri Nəsib İmaməliyev rayondakı istirahət mərkəzlərindəki qiymətlərin digər regionlarla eyni olduğunu dedi:** "Şəkidə turizm qiymətləri demək olar ki, digər rayonlarla eynidir. "Şəki Karvansara" hotelində isə qiymətlər daha münasibdir. Burada 1 gecə iki nəfərlik otaq 30 manat, 3 nəfərlik otaq 36 manat, 4 nəfərlik otaq 48 manat, lüks otaqlar isə 50 manatdır. Bu qiymətə səhər yeməyi daxil deyil. Digər mehmanxanalarda isə qiymətlər buna nisbətən yüksəkdir. Şəkidə ilboyu turizm olur. Şəki elə bir yerdir ki, bura tranzit bir zonadır və Böyük İpək Yolunun üzərində yerləşir. Araşdırmalara görə Şəkinin turizm tarixi 16-cı əsrə gedib çıxır. Şəkiyə demək olar ki, bütün ölkələrdən turistlər gəlir. Elə turistlər olur ki, onlar qeydiyyata alınmır. Çünki onlar qatar və ya şəxsi maşınları ilə gəlib səhərdən axşama qədər Şəkini gəzib qayıdırlar. Ancaq araşdırmalarımıza görə hər il turist sayı artır. Şəkidə hazırda 15 istirahət mərkəzi var. Bu istirahət mərkəzlərindən biri şəhərdən 25 kilometr uzaqda olan Baş Küncüt kəndində yerləşir. Ora çox möhtəşəm bir yerdir. Bu istirahət mərkəzi dağın döşündə yerləşir. Oradan aşağı baxanda regionları belə görmək mümkündür. Ümumi götürəndə Şəkidə bir gündə evlərlə birlikdə 1000-1200 turisti qəbul etmək və onların gecələməsi üçün yer və şərait var".

**❑ Günel MANAFLI**
**Fotolar müəllifindir**







# Xaçmazda atasının intiharına dözməyən 18 yaşlı gənc özünü asdı

**Xaçmazda intihar faktı qeydə alınıb. APA TV-nin şimal bürosunun verdiyi məlumata görə, hadisə Xaçmaz şəhərinin Memar Əcəmi küçəsində yerləşən evdə baş verib. Bakı şəhər sakini, 18 yaşlı Şərifli Əmrah Rəhman oğlu qonaq gəldiyi dayısının evində özünü asıb. İntihar edən şəxsin yaxınları bildiriblər ki, mərhumun atası da bir müddət əvvəl Bakıda yaşadığı mənzildə eyni üsulla intihar edib.**

Bundan təsirlənən oğlu Əmrah bu müddət ərzində psixoloji sarsıntılar keçirib. Ailənin digər üzvləri Rəhmanın özünə nə isə edəcəyindən ehtiyatlanıblar və onun depressiyadan çıxması məqsədilə bir müddətlik rayona dayısının yanına göndəriblər. Sözügedən hadisə də elə dayısının evində baş verib. Faktla bağlı Xaçmaz Rayon Prokurorluğunda araşdırma başlanılıb.

# İntiqam gecəsi:

1986





# Belçìka-Argentìna









**Braziliyada keçirilən XX dünya çempionatında bu gecə sonuncu yarımfinalçılar da müəyyən ediləcək. İyunun 5-də Bakı vaxtilə saat 21:00-da 1/4 final mərhələsinə vəsiqə qazanmış Argentina millisi Belçika ilə qarşı-qarşıya gələcək. İyunun 6-sına keçən gecə saat 01:00-da isə Hollandiya-Kosta-Rika matçı başlayacaq.**

## 1986-ci il mundialının yarımfinalında uduzan avropalılar Messinin komandasından qisaslarını ala biləcəklərmi?; Hollandiya iki dünya çempionuna qalib gələn Kosta-Rika ilə qarşılaşır



***

Argentina millisi bu mundialda 1/4 final mərhələsinə elə Braziliya kimi vəsiqə qazandı: zorla. Argentina millisinin oyununda problemlər olduğu hələ qrup mərhələsində keçirdiyi görüşlərdən də bəlli idi. Komanda keçirdiyi hər üç oyunda qələbə qazandı, amma Argentinanın yox, Messinin sayəsində. Üç oyunda rəqib qapısından keçirilən 6 topun 4-nü bu ulduz futbolçu vurub. Bosniya ilə oyunda bir avtoqol olub, bir dəfə isə müdafiəçi Roxo fərqlənib. İsveçrə ilə oyunda isə yalnız uzatma dəqiqələrində nəhayət ki, Anxel di Mariya da fərqlənib. Soruşula bilər ki, bütün oyunlarda qol vurulub və yarımfinalın astasınadək gəlinibsə, nə problem? Dəfələrlə qeyd etdiyimiz fikri bir daha təkrarlamaq zorundayıq: Argentina bu oyunla çempion ola bilməyəcək! Yəni məqsəd çempionluqsa, Argentina Amerika qitəsində mübarizəni davam etdirən Kolumbiyadan zəif, Kosta-Rikadan bir az üstün görünür. Ən əsası bu oyunlarda Argentina millisində mütəşəkkillik və mübarizlik tam nəzərə çarpmır.

**Dieqo Armando Maradona da İsveçrə ilə oyundan sonra yığmanın bu mundialdakı çıxışından narazılıq edilib. O, Argentina millisinin potensialından aşağı oyun nümayiş etdirdiyini bildirib:** "Argentinanın tam gücü ilə oynadığını düşünmürəm. Komanda hücumda oyun tempinə nəzarət edə bilmir. Buna görə çox acıqlı və əsəbiyəm. Yığma komanda daha yaxşı oynamalıdır. Lionel Messi tək qalıb. Yarımmüdafiəçilər oyunu üzərilərinə götürməyə cəhd etmirlər. Komanda potensialından aşağı çıxış edir. Əgər komanda Belçika ilə oyuna qədər özünə gəlməsə, yenə narahatçılıq içində olacağıq". Bunu isə bizim kimi həvəskar idman yazarı yox, Maradona deyir...

Argentina FİFA reytinqində 5-ci, Belçika millisi isə 11-ci pillədə qərarlaşıb. Bu komandalar indiyədək 4 dəfə qarşı-qarşıya gəliblər. Bunların 3-də sevinən tərəf argentinalılar olub, 1 oyunda isə Belçika qələbə qazanıb. Komandalar 1982-ci il İspaniyada keçirilən dünya çempionatında qarşılaşıblar və həmin oyunda belçikalılar 1:0 hesabı ilə qalib gəlib. 1986-ci ildə Meksika çempionatında bu komandalar yarımfinalda yenidən rəqib olublar. Həmin görüşdə isə Argentina 2:0 hesabı ilə qalib gələrək finala yüksəlib. Finalda Argentina AFR-ə 3:2 hesabı ilə qalib gələrək mundialın qalibi olub. Belçika isə 3-cü yer uğrunda mübarizədə də Fransa millisinə 2:4 uduzaraq Meksikanı medalsız tərk edib.

İndi Belçikanın 28 illik fasilədən sonra Argentinadan qisas almaq üçün gözəl fürsəti var. Argentina daha o komanda deyil axı...

Belçika millisi "H" qrupunda 9 xalla lider olub. Belçika Rusiya, Əlcəzair və Cənubi Koreya ilə bir qrupda yer alırdı və komandaların səviyyəsi bərabər deyildi. Ona görə də Belçika xüsusi çətinlik çəkmədən hər üç görüşdə minimal hesabla da olsa (2:1, 1:0, 1:0) qalib gəldi. Belçika millisi ABŞ-la oyunda qrup mərhələsindəkindən daha yaxşı oyun sərgilədi. Mark Vilmotsun rəhbərlik etdiyi komanda xüsusilə hücum xəttində yaxşı göründü.

ABŞ-la oyunda həlledici qolu vuran Lukaku ("Everton"), Oriqi ("Lill"), Dris Mertens ("Napoli"), Kevin Miralyas ("Everton") və Eden Hazard ("Çelsi") istənilən rəqib üçün təhlükəli olduqlarını göstərdilər.

Belçika yaxşı heyətə malik və sürətli oynayan komandadır və uzun müddətdən sonra onlar da mundiallarda öz güclərini göstərməyə başlayıblar. Bu oyunda komandaların şansları zənnimizcə, bərabərdir. Amma Argentina Çili ilə oynadığı kimi dişsiz, Belçika isə ABŞ-la oyunun xüsusilə əlavə vaxtındakı qədər sürətli oynayarsa, Avropa təmsilçiləri 1986-cı ilin intiqamını ala bilərlər.

Belçika millisinin hücumçusu Eden Hazard Argentina ilə oyunla bağlı fikirlərini açıqlayıb.

**Gənc hücumçu komandasının mundialda tarix yaza biləcəyini iddia edib:** "İki yaxşı komanda üz-üzə gələcək. Şansları bərabər görürəm. Rəqibin heyətində Messi, İquain və Lavezzi kimi dünya səviyyəli futbolçular var. Ancaq bizim də komanda yaxşı futbolçulardan təşkil olunub. Messini dayandırmalıyıq. Əks təqdirdə, bizə çətin olacaq. Açığı onu necə dayandıracağımızı bilmirəm. Bununla belə, rəqib komandadan çəkinmirik. Argentina ilə oyunda qələbə qazanmağa çalışacağıq. Çünki bu zəfər bizim üçün böyük uğur olacaq. Ümid edirəm ki, mundialda mübarizəni davam etdirəcəyik. Tarix yaza bilərik. Bunun üçün var-gücümüzü meydanda qoymalıyıq".

**Belçika millisinin qapıçısı Tibo Kurtua da Messi barədə danışıb:** "Messi gözlənilməz anlarda zərbə mövqeyinə çıxa bilən futbolçudur. Ona qarşı oynadıqda bu futbolçunu daim nəzarətdə saxlamalısan. Əks təqdirdə, o, səni cəzalandıracaq".

Belçika millisinin yarımmüdafiəçisi Aksel Vitsel Argentina ilə oyun öncəsi maraqlı fikirlər səsləndirib.

**Təcrübəli futbolçu komandasının dünya çempionu ola biləcəyini bildirib:** "Düşünürəm ki, biz yarımfinala yüksələ bilərik. Argentina yığması çox güclüdür. Onların heyətlərində Lionel Messi, Anxel di Mariya və Qonzalo İquain kimi ulduz futbolçular çıxış edir. Ancaq Belçika yığması da baxımlı oyun sərgiləyir. Argentinadan qorxmuruq və bu görüşdə yalnız qələbəyə oynayacağıq. Bilmirəm, möcüzə edərək dünya çempionu ola bilərik, ya yox. Ancaq hər kəs elindən gələni etsə, biz bunu bacararıq".

***

Kosta-Rika bu çempionatda adını tarixə artıq yazdırıb. Onların bu mərhələyədək gəlib çıxması əlbəttə ki, möcüzə deyil, komandanın illərdir çəkdiyi əziyyət hesabınadır. Kosta-Rikanın sərgilədiyi futbol şəxsən mənim üçün baxımlı deyil, bir az da cansıxıcıdır. Müdafiəsi mundialdan yola saldıqları Yunanıstanı daha çox xatırladır. Meydanda komanda oyunu var, maraqlı kombinasiyalar da qurulur, amma canlı deyil və tamaşaçını cəlb etmir. Kosta-Rika bu gün Hollandiyanın da canının boğazına yığıb, imkan tapıb bir qol vura, sonra o dəmir müdafiədə oturub yarımfinalın müjdə fitin çalınmasını gözləyə bilərlər.

Hollandiya Meksika ilə görüşdə xeyli səhvlər buraxdı və yalnız son dəqiqələrdə qələbəni haqq etdi. Lui Van Qal İtaliya millisinin Kosta-Rika ilə oyunundan nəticə çıxarmalıdır. Kosta-Rikanı yalnız hücum oyununda məğlub etmək daha real görünür. Bu komanda zarafatı sevmir və bu mundialda üç dünya çempionunu evə yollayıb.

**Aryen Robben də Kosta-Rikanın güclü rəqib olduğunu da bildirib:** "Onlar İtaliya, İngiltərə və Uruqvay kimi komandaların mübarizə apardığı qrupdan çıxaraq necə komanda olduqlarını sübut etdilər. İndiyə kimi yaxşı oyun nümayiş etdiriblər. Kosta-Rikanı məğlub etmək üçün yaxşı hazırlaşmalıyıq".

Oyun ərəfəsi isə hər iki komandanın heyətindən itkilər olması barədə xəbərlər var. Kosta-Rikadan müdafiəçi Roy Millerin Hollandiya ilə matçda iştirak etməyəcəyi açıqlanıb.

Hollandiya millisinin itkiləri isə daha ciddidir. Meksika ilə görüşdə zədələnən Niqel de Yonq üçün dünya çempionatı artıq başa çatıb.

Hollandiya millisinin əsas ümidlərindən olan Robin van Persinin və Snayderin zədələnməsi xəbərləri də var. Onlar bu gün meydana çıxmazsa, Hollandiyanın işi çətin olacaq.

**Gecəni gözləyək.**

❑ **Orxan ƏLİYEV**

Yeni MÜSAVAT

Son səhifə

N 171 (5880) 5 iyul 2014

# Yemək çempionu olsa da, kökəlmir

Amerikada təşkil edilən bir çox yemək yarışmalarında bir neçə dəfə birinci yerə çıxan Matt Stonie adlı tələbə heç vaxt kökəlmədiyi üçün hər kəsi təəccübləndirir. Sadəcə 56 kiloqram ağırlığı olan Stonie yarışmalara hazırlaşarkən ağırlığının 15%-i qədər yemək yeyir. O, sonuncu dəfə iştirak etdiyi yarışda 10 dəqiqədə 24 ədəd dönər yemişdi. Universitetlərin birində dietoloq kimi çalışan gənc arıqlamağın sirlərini tələbələrinə də öyrədir. O, yarışlarda çox yediyi üçün daha çox idman etdiyini deyir.





## Hər cür suya allergiyası var

İngiltərədə yaşayan Barbara Vard adlı qadın qəribə xəstəlikdən əziyyət çəkir. 43 yaşlı qadının bütün növ sulara allergiyası var. Tər, göz yaşı və yağış bədəninə dəydiyi zaman dərisi qızarmağa başlayır. Duş alarkən çətinlik çəkən qadın üzə bilmir. Yağışa düşməmək üçün isə əlindən gələni edir. 230 milyondan bir adamda görülən xəstəliyin daşıyıcısı olan qadın tərləməmək üçün idmanla məşğul olmur, ağlamamaq üçün filmlər izləmir, suya toxunmamaq üçün ev işləri görmür. Əks halda, şoka düşüb ölə bilər.



## 8-ci mərtəbədən düşən uşağı tutdu

Çində yaşayan Yuan Jianping adlı kişi 8-ci mərtəbədən düşən qız uşağını havada tuta bilib. Çinin Gaoling şəhərində baş verən hadisə zamanı Yuan adlı kişi 8-ci mərtəbənin balkonundan düşən qızı görüb. Həmin anda balkonun altında duraraq qızın aşağı düşməsini gözləyib və onu tutmaq üçün əlindən gələni edib. Azyaşlı qızın həyatını xilas edən Y.Jianping köməyə gedərkən heç bir şey düşünmədiyini deyib: “Bəlkə də uşağı tutarkən qollarım qırıla, ya da mənə bir şey ola bilərdi. Lakin uşağı xilas etmək üçün qaçdığım zaman bunları düşünmədim. Bir saniyə belə geciksəydim o uşaq hazırda ölmüş ola bilərdi. Yaxşı ki, onu xilas edə bildim”.

Yaun qızı xəstəxanaya apardığı zaman yalnız bir qabırğasında kiçik bir qırıq olduğu məlum olub. Qəzanın baş verdiyi zaman kiçik qızın ailəsinin evdə olmadığı deyilir.

# Oturaraq çalışmaq zìyandır

Amerikada aparılan araşdırmalar nəticəsində məlum olub ki, oturaraq çalışmaq insan orqanizmi üçün bir çox problemlər yaradır. Amerikada oturaraq çalışanlar və hərəkət edərək çalışanların orqanizmləri müqayisə edilib. “Amerikanın səsi” radiosunda yayımlanan araşdırmanın nəticələrinə görə, hər gün bir neçə addım atmaq insan orqanizmi üçün olduqca faydalıdır. Corc Vaşinqton Universitetinin professoru Amanda Visek davamlı oturaq işləməyin bir çox xəstəliklər yaratdığını açıqlayıb: “Oturaq həyat tərzi kökəlmək, şəkər xəstəliyi, ürək-damar problemləri, yüksək qan təzyiqi, depressiya, hətta ölümə səbəb olur. Oturmağın verdiyi zərəri azaltmaq üçün hər gün bir az hərəkət kifayət edir. Misal üçün, iş yoldaşlarınızla telefonla danışmaq əvəzinə, yanına gedərək onunla üzbəüz danışın. Liftə minmək əvəzinə pilləkənlərlə çıxmaq insan orqanizmi üçün çox əhəmiyyətlidir”.





## 15 yaşında 100 min qazandı

Hələ 15 yaşında olan oğlan nənəsindən borc aldığı 1000 dollarla 100 min dollar qazanıb. Məlumatlara görə, son zamanlar internetdə pul qazanmaq üçün yaradılmış Bitcoin saytı bir çoxlarının zənginləşməsinə şərait yaradıb. Eric Finman da bu yolla varlanmaq üçün nənəsindən 1000 dollar borc alaraq sayta pul qoyub. Pul 17 ay saytda qaldıqdan sonra 15 yaşlı oğlana 100 min dollar qazandırıb. Botangle.com adlı saytın rəhbəri Finman jurnalistlərə verdiyi müsahibədə əsas məqsədinin şagirdləri, tələbələri və müəllimləri varlandırmaq olduğunu deyib. 15 yaşlı gənc isə internetdə saytda pul qazanmağın dərslərinə əngəl olmadığını deyib. O, qazandığı pulla böyük qardaşına olan borcunu ödədiyini, gələcək həyatı və təhsili haqqında yaxşı planlar qurduğunu deyib.




QOÇ - Sizin üçün istirahət etməkdən söhbət belə gedə bilməz. Əksinə, bütün işgüzar görüşlərinizi bu təqvimə təyin etməlisiniz. Çünki ən uğurlu gün məhz sizin bürcün bəxtindədir.

BUĞA - İxtiyarınızda olan bu təqvimdə ilk öncə işgüzarlığınızı artırmağa çalışın. Əsas işləriniz yarımçıq qaldığı təqdirdə istirahət etməyin. Yeni sövdələşmələrə də hazır olun.

ƏKİZLƏR - İqlimin qəfil dəyişkənliyi və proseslərin əsəbi müstəviyə keçməsi səhhətinizlə bağlı problemlər yarada bilər. Odur ki, özünüzü qorumağa güc verin. Göy-göyərti çox yeyin.

XƏRÇƏNG - Bürcünüzün ən gözəl günlərindən birini yaşayacaqsınız. Bütün proseslər xeyrinizədir. Ulduzlar büdcənizə xeyir verəcək. Amma sizə ehtiyac duyan insanlara baş çəkməyi də unutmamalısınız.

ŞİR - Mənəvi və ruhi baxımdan uğurlu gündür. Göy qübbəsi bütün hərəkətlərinizi tənzimləyəcək. Özünüzü qorumağa çalışın ki, bəzi xoşagəlməz hadisələr ovqatınızı poza bilməsin.

QIZ - Riskli qərar çıxarmayın. Əks təqdirdə, həmişəki kimi yanılacaqsınız. Başqaları ilə məsləhətləşməməyinizə ulduzlar da təəccüblənir. Unutmayın ki, çox vaxt “tək əldən səs çıxmır”.

TƏRƏZİ - Hansısa xırda məsələyə görə bu qədər sıxıntı keçirməyiniz nəyə lazım? Axı çıxış yollarını hamıdan yaxşı siz bilirsiniz. Özünüzü çətinliyə salmaqdansa, qəti qərar verin. Yeri gəlsə, məsləhətləşin.

ƏQRƏB - Əsas diqqətinizi ailə-sevgi münasibətlərinin tənzimlənməsinə yönəldin. Hazırda ətrafınıza daha çox yaxşı adamlar toplaşıb. Onların kömək və məsləhətlərindən yararlanın.

OXATAN - Ulduzlar bəyan edir ki, yalnız münasibətlər zəminində uğurlarınız olacaq. Səfər, fəaliyyət və ya şəxsi işlər üçünsə sərfəli vaxt deyil. Qohumlarla mübahisələrə yol verməyin.

OĞLAQ - Nədənsə son vaxtlar sürətlə ötən günlərdən mənəvi zövq ala bilmirsiniz. Bu problemi aradan qaldırmaq istəyirsinizsə, qonaq gedin. Narahatlığı yalnız bu cür dəf edə bilərsiniz.

SUTÖKƏN - Astroloji göstəricilər bu təqvimdə daha çox sizin bürc üçün büdcə artımı olduğuna işarə edir. Bəxtinizi sınamaq pis olmazdı. Amma riskli və yeni işlərdən də uzaqlaşmalısınız.

BALIQLAR - Səhhətinizə fikir verə bilsəniz, günün ümumi mənzərəsi qənaətbəxş olacaq. Qayğınıza qalanlar sizi darıxmağa qoymayacaq. Bu gün dünyadan gedənlərinizə dualar oxuyun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Təyyarəni su basdı



Avstraliyanın Melburnu şəhərinə getmək üzrə Amerikanın Los-Anceles şəhərindən havaya qalxan Qantas Hava Yollarına aid təyyarəni su basıb. Təyyarənin tavanından su axmağa başlayınca təyyarədə qorxulu anlar yaşanıb. Təyyarədəki sərnişinlər birdən-birə ayağa qalxıblar. Təyyarədəki amerikalı aktyor Yvette Nikole Brovn tvitter hesabında “Los-Ancelesə geri qayıdırıq. Təyyarənin koridorundan çay axır” deyə, status yazıb. Qantas Hava Yollarının işçiləri təyyarədəki su borularından birinin partladığını, lakin sərnişinlər üçün qorxulu bir şey olmadığını açıqlayıblar.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 6.500